Xalqın qəzeti!

# Xalq qəzeti

№ 106 (31075) 19 iyun 2026-cı il, cümə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Zati-aliləri!**

28 May – Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizi Malavi Respublikasının Hökuməti və xalqı adından təbrik etməkdən məmnunam.

Fürsətdən istifadə edərək ümidvar olduğumu bildirirəm ki, ölkələrimiz arasında mövcud olan sıx dostluq və əməkdaşlıq əlaqələri xalqlarımızın rifahı naminə qarşıdakı illərdə də dərinləşməkdə davam edəcək.

Zati-aliləri, Sizə möhkəm cansağlığı, Azərbaycan xalqına davamlı firavanlıq və rifah arzularımı qəbul etməyinizi xahiş edirəm.

**Hörmətlə,**

***Artur Piter MUTARİKA***
***Malavi Respublikasının Prezidenti***

# Müstəqillik dövründə Azərbaycan iqtisadiyyatına xarici mənbələrdən 350 milyard dollarlıq sərmayə yatırılıb

# Prezident İlham Əliyevin iştirakı ilə Bakıda İslam İnkişaf Bankı Qrupunun 2026-cı il üzrə İllik Toplantılarının açılış mərasimi




**İyunun 18-də Bakıda İslam İnkişaf Bankı Qrupunun 2026-cı il üzrə İllik Toplantılarının açılış mərasimi keçirilib.**

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.**

**Əvvəlcə birgə foto çəkdirildi.**

**Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.**

**Sonra “Qurani-Kərim”dən ayə oxundu.**

**Daha sonra İslam İnkişaf Bankı (IsDB) haqqında videoçarx nümayiş olundu.**

**Dövlətimizin başçısı mərasimdə çıxış etdi.**

*(ardı 2-ci səhifədə)*

## Kahramanmaraşda “Azərbaycan” məhəlləsi – gücümüzə güc qatan qardaşlığın rəmzi



Səhifə ⇨ 7

## Yaxın Şərq anlaşması və Cənubi Qafqaz



Səhifə ⇨ 7

## BMT-nin nüfuz böhranı




Səhifə ⇨ 6

## İxracda qeyri-neft-qaz sektorunun payı daha da artacaq



Səhifə ⇨ 9

## Cənubi Qafqazın səsini dünyaya yayan lider dövlət



Səhifə ⇨ 5

## Tranzit ölkədən strateji mərkəzə



Səhifə ⇨ 5

## Türkiyə, regional sülh naminə qarant və ...Azərbaycanın şərti



Səhifə ⇨ 6

## “Yanmış kilsə” Trampın mövqeyini necə dəyişdi?



Səhifə ⇨ 15

## Marsa səyahət realdır, yoxsa xəyal?



Səhifə ⇨ 14

# Prezident İlham Əliyevin iştirakı ilə Bakıda İslam İnkişaf Bankı Qrupunun 2026-cı il üzrə İllik Toplantılarının açılış mərasimi











*(əvvəli 1-ci səhifədə)*

## Prezident İlham Əliyevin çıxışı

– İslam İnkişaf Bankı Qrupunun hörmətli cənab sədri.

Əziz qonaqlar, xanımlar və cənablar.

Mən İllik Toplantının bütün iştirakçılarını salamlayıram, Azərbaycana xoş gəlmisiniz.

Qrupa, onun sədrinə və bütün heyətə Azərbaycanı İllik Toplantıya ev sahibliyi edən ölkə kimi seçdiklərinə görə olduqca minnətdaram. Bu, bizim üçün böyük şərəfdir və aramızda güclü əlaqələrin olmasını bir daha göstərir. Mən Azərbaycanda islahatlara verdiyi davamlı dəstəyə, Bankın gələcəyə doğru irəliləməsində planlarına və ölkəmizə səmimi münasibətinə görə cənab sədr doktor Əl-Casirə şəxsən təşəkkürümü bildirmək istərdim.

Doktor Əl-Casir artıq Azərbaycana dəfələrlə səfər edib və həmçinin azad edilmiş ərazilərdə iki dəfə səfərdə olub. Bu isə hamımızda xüsusi məmnunluq yaradır.

Bildiyiniz kimi, Azərbaycan ikinci dəfədir ki, İllik Toplantıya ev sahibliyi edir və bu, həmçinin sıx əlaqələrimizi, əməkdaşlıq səviyyəsini və birgə fəaliyyətin miqyasını aydın şəkildə göstərir. 2010-cu ili çox yaxşı xatırlayıram. O vaxt biz ilk dəfə toplantıya ev sahibliyi edən ölkə idik.

Həmin İllik Toplantı Qrup ilə tərəfdaşlığımıza, eləcə də iqtisadiyyatı şaxələndirmək üçün Azərbaycanın həyata keçirdiyi islahatlara, enerji sektorundan asılılığı azaltmağa güclü təkan verdi. O vaxtdan etibarən Azərbaycanda və ətrafda çox dəyişikliklər baş verdi. Dəyişməyən yeganə məsələ Azərbaycanın sabit və uğurlu inkişafı oldu.

Bu, milli maraqlara əsaslanan, qlobal səhnədə bütün iştirakçılarla yaxşı münasibətlərin qurulmasına, uğurlu inkişafımıza qəti sadiqliyimizə söykənən siyasətimizin təzahürüdür. Uğurlu inkişaf bir çox meyara əsaslanır. Azərbaycan cəmi 35 ildir ki, müstəqildir. Müharibə, işğal, humanitar fəlakət, vətəndaş müharibəsi və digər çətinliklərlə səciyyələnən ilk iki ili istisna etməklə, qalan dövr ölkənin sabit inkişafı ilə yadda qaldı. Bu isə hər hansı ölkənin uğuru üçün əsas ilkin şərtlərdən biridir. Sabitlik pozulduqda biz inkişaf haqqında heç danışa bilmərik. Beləliklə, sabitlik, - yəni bu gün Azərbaycanın reallığını təşkil edən siyasi, iqtisadi və sosial sabitlik, - nəinki inkişafımızın əsas meyarıdır, o cümlədən regional inkişaf göstəricisidir. Çünki Azərbaycan regional və qlobal səviyyədə güclü əlaqələr sayəsində bir çox aspektlərdə artıq mühüm iştirakçıya çevrilib.

Müstəqil xarici siyasətimiz beynəlxalq ictimaiyyətin güclü dəstəyini qazanıb. Dostlarımızın sayı ilbəil artır. Beynəlxalq ictimaiyyətin verdiyi dəstək çox nümunəvi anlarda öz əksini tapır. Məsələn, namizədliyimiz müxtəlif təsisatlar üçün namizədlər siyahısında var idi və biz tam mütləq dəstəyi qazandıq. Bu hal bir neçə il əvvəl BMT-nin Təhlükəsizlik Şurasına namizəd olduğumuz zaman müşahidə edildi. O vaxt biz 155 ölkənin dəstəyini qazandıq.

Bu hal 120 ölkədən ibarət və BMT-dən sonra ikinci ən böyük beynəlxalq qurum olan Qoşulmama Hərəkatının sədrliyinə namizəd olduğumuz zaman özünü büruzə verdi. Biz yekdilliklə seçildik və nəinki seçildik, sonradan sədrliyimiz müddəti yekdilliklə uzadıldı. Bütövlükdə, bu, beynəlxalq dəstəyin təzahürü idi. Bəzən "beynəlxalq ictimaiyyət" sözünü eşitdikdə bəziləri düşünür ki, o, inkişaf etmiş ölkələrdən ibarət bir məhdud qrupdur və əgər belə demək olarsa, bu adı özünə seçən ölkələr tərəfindən belə yanaşılır. Lakin bu, yanlış yanaşmadır.

Beynəlxalq ictimaiyyət bütün dünyadan, BMT-yə üzv olan ölkələrdən ibarətdir. Dünyanın tam mütləq əksəriyyətinin dəstəyini qazanmaq, artıq söylədiyim kimi, həqiqətən, yalnız bəyanatlar əsasında deyil, praktiki addımlara əsaslanan hörməti göstərir. İslam İnkişaf Bankı Qrupunun 2010-cu ildə keçirdiyi İllik Toplantısından sonra biz bir çox beynəlxalq tədbirlərə uğurla ev sahibliyi edən ölkə olmuşuq. Ən sonuncular arasında əla nəticələrlə seçilən 2024-cü ildə keçirilmiş uğurlu COP29 tədbirini qeyd etmək istərdim. Eyni zamanda, böyük beynəlxalq toplantılardan olan Ümumdünya Şəhərsalma Forumu ötən ay Azərbaycanda uğurla keçirilmişdir. Bir çox digər tədbirlər də gözlənilir.

Bir sözlə bu, fəaliyyətimizin şaxələndirilmiş gündəliyini bir daha göstərir. Azərbaycan Avrasiya ölkələrini birləşdirən, xüsusən də enerji təchizat zəncirlərinin etibarlı olmadığı, o cümlədən enerji təhlükəsizliyinin hər bir ölkənin milli təhlükəsizliyinə çevrilən əsas amillərdən biri hesab edildiyi bir vaxtda onlara lazımi enerjini təchiz edən irimiqyaslı enerji infrastrukturu layihələrini irəli sürən, maliyyələşdirən və icra edən qlobal sahənin mühüm iştirakçısına çevrilib.

Çox müsbət sərmayə siyasəti müxtəlif sahələrə, o cümlədən enerji sahəsinə, Xəzər dənizini Qara dəniz və Aralıq dənizi ilə birləşdirən, Xəzərdə hasil olunan qazın Avropa bazarlarına çıxaran boru kəmərlərinin çəkilməsinə milyardlarla vəsaiti cəlb etməyə imkan yaratmışdır.

Bu, həqiqətən böyük səylər diplomatiya, siyasi münasibət, qonşularla yaxşı münasibətlər, qonşuların qonşusu ilə əlaqələr, maliyyələşmə, yaxşı nüfuz və güclü iqtisadiyyat tələb edirdi. Beləliklə, həmin meyarlar toplusu hazırda Azərbaycana mühüm enerji təchizatçılarından birinə çevrilmək imkanı yaratdı.

Təbii qaz təchizatı ilə bağlı. Bu gün Azərbaycan boru kəməri ilə qaz təchizatının coğrafiyası baxımından birinci yerdədir. Biz təbii qazı 16 ölkəyə nəql edirik. Onların sayı ilbəil artır və artmaqda davam edəcək. Neft təchizatı daha çox ölkələri əhatə edir və bu, hasilatçı, tranzit ölkələrə və istehlakçıların hamısına fayda gətirir.

Beləliklə, bu, yaradılmış komanda işidir və həqiqətən, layihələrin mürəkkəb icrası, maliyyələşməsi, relyefi, qarşımızda olan müxtəlif siyasi maneələr baxımından unikaldır.

Biz əsasən infrastruktura sərmayə yatıraraq diqqətimizi təkcə ölkə daxilindəki infrastruktur üzərinə yox, ölkə daxilində olan beynəlxalq əhəmiyyətli infrastruktura cəmlədik. Digər sözlə, biz bildiyiniz kimi, Azərbaycanı açıq dənizə çıxışı olmayan ölkədən beynəlxalq nəqliyyat qovşağına çevirməyə, güclü nəqliyyat infrastrukturunu qurmaq üçün coğrafiyamızdan bünövrə kimi istifadə etməyə çalışdıq. Çünki əlbəttə, coğrafiya önəmlidir. Lakin onun üzərinə infrastrukturu əlavə etməsək böyük bir çəkisi olmur. Odur ki, bu gün Azərbaycandan keçən Şərq-Qərb və Şimal-Cənub dəhlizləri sayı artmaqda olan ölkələr üçün çox önəmli təchizat marşrutlarını təmin edir. Sadəcə, xəritəyə nəzər salsaq görərik ki, Azərbaycan Avropa və Asiyanın arasında yerləşir. Coğrafi yerləşmə, əlbəttə ki, gündəlikdən asılı olaraq başağrısı da ola bilər, üstünlük də ola bilər. Bizə gəldikdə bu, təkcə bizim üçün yox, bir çox ölkələr üçün üstünlükdür. Bu gün artıq qeyd etdiyim kimi, Azərbaycandan keçən dəhlizlər bir çox ölkələr üçün əlaqələndirilmiş və razılaşdırılmış nəqliyyat vətərini yaradır. Əlbəttə ki, bir çox işlər görülməlidir və yeri gəlmişkən, bu, bizim prioritetlərimizdən biridir.

Azərbaycanın iqtisadi inkişafı müsbətdir və qeyd etdiyim kimi, iqtisadiyyat sabitdir. Biz dəyəri 350 milyard ABŞ dollarından çox olan birbaşa investisiyaları, onların yarısını son 20 ildə demək olar ki, xarici mənbələrdən cəlb edə bilmişik. Bizim investisiya planlarımız davam edir, çünki bu gün investorlar sabit yerlərin axtarışındadır. Əfsuslar olsun ki, vaxt ötdükcə sabit yerlərin sayı artmır. Təəssüf ki, bu, günümüzün reallığıdır. Buna görə yaxşı investisiya mühiti, investisiyaların qorunması, qanunvericilik bazası və artıq həyata keçirilmiş layihələr bizə təkcə enerji sahəsinə yox, həm də qeyri-enerji sahəsinə investisiyaları cəlb etməyə imkan verir ki, bu da, yeri gəlmişkən, bizim prioritetlərimizdən biridir. Biz bu barədə 16 il bundan əvvəl Bakıda keçirilmiş İslam İnkişaf Bankının İllik Toplantısında danışdıq və o vaxtdan bəri biz dəyişmişik.

Bu gün qeyri-neft və qaz sektorunun ÜDM-də payı 70 faizdən artıqdır ki, bu da özlüyündə əlamətdar bir nailiyyətdir. Lakin biz ixracımızda neft, qaz və qeyri-neft və qaz sektorunun balansının dəyişdirilməsini davam etdirmək üçün gərgin çalışmalıyıq. Bu gün ixracımızın mütləq əksəriyyətini enerji resursları təşkil edir. Beləliklə, biz vəziyyəti dəyişmək üçün çox gərgin çalışırıq və bunun üçün əlbəttə ki, bizə daha çox islahatlar, daha çox investisiyalar və yeni bazarlar lazımdır və bu da problemdir. Çünki bazarlar uğrunda, mən belə deyərdim, çox fəal mübarizə gedir. Beləliklə, iqtisadiyyatın şaxələndirilməsi artıq reallıqdır, lakin biz, əlbəttə ki, davam etməliyik.

Xarici borcumuzu azaltmağa nail olduq. Bu, mənim tərəfimdən bir neçə il bundan əvvəl qarşıya qoyulmuş bir hədəf idi və biz bunu etdik və hətta planlaşdırdığımızdan artığına nail olduq. Bu gün xarici borcumuz ÜDM-in yalnız 6 faizini təşkil edir, odur ki, biz yenidən vəsaitləri cəlb etməyə başladıq. Fasilə yaranmışdır, lakin biz yenidən vəsaitləri cəlb etməyə başladıq və əlbəttə ki, bizim müraciət etdiyimiz birinci maliyyə təsisatı İslam İnkişaf Bankı idi. Çünki bizim bu Bankla güclü əlaqələrimiz, ortaq tariximiz və çox məhsuldar, konstruktiv münasibətlərimiz var.

Toplantı zamanı yeni infrastruktur layihələrinə təkan vermək üçün bir çox müqavilələr imzalanacaq və onlar da, öz növbəsində, qeyri-neft sektorunun dəyərinin artmasına gətirib çıxaracaqdır. Beləliklə, xarici borcun aşağı səviyyədə olması, əlbəttə ki, böyük üstünlükdür. Biz daha çox borc götürə bilərik, lakin bunu çox ehtiyatla edəcəyik. Buna baxmayaraq, bizim xarici valyutada olan ehtiyatlarımız xarici borcumuzu demək olar ki, 20 dəfə üstələyir. Hesab edirəm ki, bu göstəriciyə görə Azərbaycan çox sabit maliyyə vəziyyəti, tarazlaşdırılmış büdcəsi olan aparıcı ölkələrdən biridir və bu hal reytinqimizi investisiya reytinqinə qaldıran "Moody's" və "Fitch" kimi aparıcı reytinq agentlikləri tərəfindən dəyərləndirilir. Onların verdiyi proqnoz müsbət və sabitdir. Beləliklə, iqtisadi inkişafımızla bağlı hər hansı bir çətinlik görmürük və irimiqyaslı sosial proqramlarımız da buna uyğundur. Ötən bir neçə ildə əhalimizin demək olar ki, 30 faizindən çoxunu əhatə edən bir neçə sosial dəstək layihəsini icra etmişik. Yoxsulluğun və işsizliyin azaldılması da hədəflərimizdən biri idi və biz buna uğurla nail olduq. Bu gün yoxsulluğun və işsizliyin səviyyəsi təqribən 5 faiz təşkil edir. Məşğulluqla bağlı olan məsələlər əhalisi artmaqda olan istənilən digər ölkə kimi, bizim də diqqətimizin mərkəzində olacaq. Çünki əhali artdığı zaman, - təəssüf ki, müsəlman ölkələrində bu tendensiyanın davam etdiyini hamımız bilirik, - bunun, eyni zamanda, özü ilə bir çox çağırışlar gətirdiyini görürük. Çünki siz iş yerləri yaratmalısınız, daha çox sosial infrastruktur və ümumiyyətlə, infrastruktur qurmalısınız. Beləliklə, bu məsələ - işsizlik səviyyəsinin çox aşağı səviyyədə saxlanılması həmişə diqqət mərkəzində olacaq.

Əlbəttə ki, 2010-cu ildə keçirdiyimiz toplantıdan bəri baş vermiş əsas dəyişikliklərdən biri Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini bərpa etməsidir. 1990-cı illərin əvvəllərində torpaqlarımız işğal edilmişdir və bu da humanitar fəlakətə yol açmışdır. 1990-cı illərin əvvəllərində bizim 1 milyon qaçqın və məcburi köçkünümüz var idi. O vaxt əhalimiz 8 milyon idi, beləliklə, hər səkkiz nəfərdən biri məcburi köçkün, evsiz, işsiz, yaşamaq üçün heç bir maddi imkanı olmayan idi. Bu, həqiqi humanitar fəlakət idi və biz tək qalmışdıq. Müharibə cinayətlərini və Xocalı soyqırımını törətmiş, bizim şəhər və kəndlərimizi dağıtmış, işğal olunmuş ərazilərdə urbisid törətmiş Ermənistana qarşı sanksiya tətbiq olunmadı. Hər gün sanksiyalar haqqında eşidirik – sanksiyalar və yenə də sanksiyalar. Hər gün eşidirik. Haradasa hər hansı bir hadisə baş verən kimi dərhal sanksiyalar tətbiq olunur. Lakin Ermənistana qarşı heç kəs sanksiyalar tətbiq etmədi və bu, ikili standartların, həmçinin bəyan edilən qondarma dəyərlərlə real siyasət arasındakı fərqin açıq təzahürüdür. Əgər beynəlxalq hüququ pozduğuna, suveren dövlətin ərazilərini işğal etdiyinə və müharibə cinayətləri törətdiyinə görə Ermənistana qarşı sanksiyalar tətbiq edilsəydi, iki ölkə arasında münaqişə bu qədər uzun sürməzdi.

Bu münaqişə təxminən 30 il davam etdi və bu illər ərzində çoxsaylı nəticəsiz, sonsuz və mənasız danışıq raundları aparıldı. Həmin danışıqlara himayədarlıq edənlərin yalnız bir məqsədi var idi – torpaqlarımızı əbədi olaraq Ermənistanın işğalı altında saxlamaq. Sülhün təmin edilməsi və ərazilərimizin azad olunması mandatını daşıyanların məqsədi məhz bundan ibarət idi. Mən ATƏT-in Minsk qrupunun həmsədrlərini – BMT Təhlükəsizlik Şurasının üç daimi üzvü olan Fransanı, Rusiyanı və Amerika Birləşmiş Ştatlarını nəzərdə tuturam. Təsəvvür edin, bu ölkələr Ermənistanı Azərbaycan ərazilərini azad etməyə məcbur edə bilməzdilərmi? Əlbəttə ki, edə bilərdilər. Sadəcə bunu istəmirdilər. Onlar torpaqlarımızın Ermənistanın işğalı altında qalmasını istəyirdilər. Bu, onların birgə qərarı idi. Lakin biz bu planları dəyişdirdik.

Danışıqlar prosesinin ilkin mərhələsində böyük ümidlərimiz var idi. Mən 2003-cü ildən Prezident kimi fəaliyyət göstərirəm və 17 il ərzində, dediyim kimi, sonradan nəticəsiz olduğu aydın olan bu danışıqlarda şəxsən iştirak etdim, sülh yolu ilə həll variantı tapmağa və böyük dövlətləri həqiqətin bizim tərəfimizdə olduğuna inandırmağa çalışdım. Biz deyirdik: "Haqq bizim tərəfimizdədir. Biz işğala məruz qalmışıq. Xəritəyə baxın, Ermənistan silahlı qüvvələrinin bizim ərazilərimizdə harada yerləşdiyini görün". Bunun müqabilində isə yalnız bir cavab alırdıq: "Gedin razılaşın" birinci mesaj. İkinci mesaj: "Bu münaqişənin hərbi həlli yoxdur". Üçüncü mesaj: "Siz müharibəyə başlaya bilməzsiniz". Dördüncü mesaj: "Əgər müharibəyə başlasanız, sanksiyalara məruz qalacaqsınız" və bunun kimi çoxsaylı başqa mesajlar verilirdi, sadəcə, vaxtınızı çox almaq istəmirəm.

Beləliklə, dünya siyasətində qərar verən qüvvələrin torpaqlarımızın qeyri-qanuni şəkildə əbədi işğal altında qalmasına qərar verdiyini anladığımız zaman, biz öz qərarımızı verdik və bütün planları dəyişdirdik. 2020-ci ildə torpaqlarımızın azad olunması uğrunda müharibə 44 gün davam etdi və Ermənistanın kapitulyasiyası ilə nəticələndi. Biz işğal altında olan ərazilərimizin böyük hissəsini azad etdik, lakin hamısını deyil. Daha sonra - 2023-cü ildə bu məsələyə tam və qəti nöqtə qoyduq. Bu gün Azərbaycanın ərazi bütövlüyü və dövlət suverenliyi tam şəkildə bərpa olunub və bu, bütün dünya tərəfindən qəbul edilir. Bundan sonra isə biz Ermənistana sülh təklif etdik. İşğaldan və dağıntılardan əziyyət çəkmiş qalib ölkə, qalib xalq olaraq sülh təşəbbüsü ilə çıxış edən tərəf məhz biz olduq. Bu gün isə artıq sülh reallığa çevrilib.

Artıq təxminən bir ilə yaxındır ki, biz sülh şəraitində yaşayırıq və bunun müsbət nəticələrini görürük. Ermənistanın işğalçı qüvvələrinin xalqımıza və şəhərlərimizə qarşı törətdiklərini heç vaxt unutmayacağıq. Onların 65 məscidi dağıtmasını, xalqımızın dini hisslərini təhqir etmək məqsədilə məscidlərdə heyvan, o cümlədən donuz saxlamalarını heç vaxt unutmayacağıq. Biz Xocalı soyqırımını da heç vaxt unutmayacağıq. Lakin gələcəyə baxmağı bacarmalıyıq. Biz qisasımızı döyüş meydanında aldıq və bu, kifayətdir. Müharibə dayanmalı idi və onu dayandıran da biz olduq. Güclü tərəf olaraq biz müharibəyə son qoyduq və sülh təklif etdik. Beləliklə, bu gün sülh artıq reallıqdır.

Ərazilərimizi azad etdikdən dərhal sonra genişmiqyaslı bərpa və yenidənqurma proqramına başladıq. Bu gün artıq Qarabağda və Şərqi Zəngəzurda təxminən 90 min insan yaşayır, çalışır və təhsil alır. Müxtəlif infrastruktur və yaşayış layihələrinin həyata keçirilməsi üçün dövlət büdcəsindən 15 milyard ABŞ dollarından artıq vəsait ayrılıb. Bütün maliyyə mənbələri nəzərə alındıqda isə azad edilmiş ərazilərə yönəldilən ümumi investisiyaların həcmi 17 milyard ABŞ dollarına yaxındır.

Hazırda genişmiqyaslı infrastruktur layihələri həyata keçirilir. Bunlara su anbarları, su kanalları, elektrik stansiyaları, artıq istifadəyə verilmiş beynəlxalq hava limanları, tunellər və körpülər daxildir. Azad edilmiş ərazilərin yenidən qurulması istiqamətində bizim səylərimizi dəstəklədiyinə görə İslam İnkişaf Bankı Qrupuna minnətdarıq. Bu gün bu məsələ hökumətimizin əsas prioritetlərindən biridir, lakin yeganə prioritet deyil. Əminəm ki, Qrup çərçivəsində aparılan müzakirələr zamanı bu mövzular geniş şəkildə nəzərdən keçirilib.

Mən yalnız gələcəyə dair bir neçə prioritet istiqaməti xüsusi vurğulamaq istəyirəm. Onlardan biri, qeyd etdiyim kimi, bağlantıdır. Biz Azərbaycanı daha da güclü nəqliyyat-logistika mərkəzinə çevirməyə davam etməliyik. Məqsədimiz Azərbaycan ərazisindən daşınan yüklərin həcmini iki dəfə artırmaqdır. Hazırda bu göstərici təxminən 14–15 milyon ton təşkil edir və biz bu rəqəmi ikiqat artırmağı hədəfləyirik. Əlbəttə, bunun hamısı yalnız bizdən asılı deyil. Bu, həm geosiyasi vəziyyətdən, həm də regiondakı ümumi şəraitdən asılı olacaq. Lakin bunlar bizim planlarımızdır.

Ərzaq təhlükəsizliyi ilə bağlı planlarımız da tam aydındır. Kənd təsərrüfatının inkişafına dair bu yaxınlarda qəbul edilmiş dövlət proqramı çərçivəsində əsas istehlak məhsulları üzrə maksimum özünütəminetmə səviyyəsinə nail olmağı planlaşdırırıq. Suvarma sahəsində, o cümlədən İslam İnkişaf Bankının su kanalları və su anbarlarının tikintisinə verdiyi dəstək sayəsində fermerlər su ehtiyatlarına daha geniş çıxış əldə edəcəklər və öz istehsalında məhsuldarlıq əhəmiyyətli dərəcədə artacaq.

Bərpaolunan enerji, həmçinin böyük potensiala malik sahələrdən biridir. Artıq beynəlxalq və yerli şirkətlərlə imzalanmış müqavilələr 2032-ci ilədək ölkəmizə 8 giqavat həcmində Günəş və külək enerjisi istehsal gücü qazandıracaq. Bu, minimum göstəricidir. Söhbət niyyət protokollarından deyil, artıq imzalanmış konkret müqavilələrdən gedir və bu rəqəm gələcəkdə daha da artacaq. Hazırda biz ötürücü xətlərin yaradılması və enerji ixracı istiqamətində çalışırıq, çünki qeyd etdiyim kimi, bu qədər enerjiyə ehtiyacımız olmayacaq. Buna görə də enerjiyə ehtiyacı olan bazarlara, ilk növbədə, Avropaya enerji ötürülməsini təmin edəcək infrastruktur üzərində işləyirik. Hamıya məlumdur ki, Avropanın uzun illər ərzində elektrik enerjisinə böyük ehtiyacı olacaq.

Bütün bunlar, eləcə də bir çox digər istiqamətlər strateji prioritetlərimiz sırasında yer alır. Əminəm ki, planlarımızın böyük hissəsi artıq auditoriyanın diqqətinə çatdırılıb. Vaxtınızı çox almaq istəmirəm. Bir daha Azərbaycanı ev sahibi ölkə kimi seçdiyinizə, bizimlə bir yerdə olduğunuza və göstərdiyiniz dəstəyə görə minnətdarlığımı bildirir, İllik Toplantıların uğurla keçməsini arzulayıram. Çox sağ olun.

*(ardı 3-cü səhifədə)*

# Prezident İlham Əliyevin iştirakı ilə Bakıda İslam İnkişaf Bankı Qrupunun 2026-cı il üzrə İllik Toplantılarının açılış mərasimi

*(əvvəli 2-ci səhifədə)*

İslam İnkişaf Bankı Qrupunun sədri **Məhəmməd Süleyman Əl-Casir** çıxış edərək dedi:



– Azərbaycan Respublikasının Prezidenti, Zati-aliləri cənab İlham Əliyev.

Azərbaycan Respublikasının iqtisadiyyat naziri, Rəhbərlər Şurasının sədri cənab Mikayıl Cabbarov.

Zati-aliləri, rəhbərlər və alternativ rəhbərlər.

Hörmətli icraçı direktorlar, dəyərli nümayəndələr, xanımlar və cənablar.

Əs-səlamu əleykum və rəhmətullahi və bərəkətuh.

Sizi İslam İnkişaf Bankı Qrupunun 2026-cı il İllik Toplantıları münasibətilə möhtəşəm Bakı şəhərində salamlamaq mənim üçün böyük şərəfdir. İlk növbədə, Zati-aliləri Prezident İlham Əliyevə, həmçinin Azərbaycan hökumətinə və xalqına göstərilən xüsusi qonaqpərvərliyə və mükəmməl hazırlıqlara görə dərin minnətdarlığımızı bildirmək istəyirəm.

Toplantımızın Azərbaycanın Milli Qurtuluş Günü ilə üst-üstə düşməsi xüsusilə əlamətdardır. Bu gün - ölkənin sabitlik, dayanıqlılıq və yenilənmə yolunda yeni mərhələyə qədəm qoymasını təmin edən tarixi dönüş nöqtəsidir. Bu diyar əsrlər boyu Qədim İpək Yolundan bu günün Orta Dəhlizinə qədər Şərqlə Qərbi, Şimalla Cənubu birləşdirərək coğrafi mövqeyini ortaq imkanlara çevirmişdir. Lakin Azərbaycanın hekayəsi yalnız bağlantılar hekayəsi deyil. Bu, eyni zamanda, dözümlülük və yenilənmə hekayəsidir. Bu baxımdan Şuşaya son səfərimdən qısa bir təəssürat paylaşmaq istərdim. Qarabağın incisi olan Şuşanın zəngin irsi şairə və xeyriyyəçi Xurşidbanu Natəvan kimi şəxsiyyətlərin timsalında yaşayır. O, mədəni dayanıqlılığın və mərhəmətin əbədi rəmzidir. Məni Xalq şairi Məmməd Arazın aşağıdakı misraları çox təsirləndirdi:

“Ayağa dur, Azərbaycan, səninləyəm!
Səndən qeyri biz hər şeyi bölə billik!”

Çox güclü misralardır. Bu sözlər heç vaxt ümidini itirməmiş xalqın ruhunu əks etdirir. Məhz həmin ruh Azərbaycanla tərəfdaşlığımızın əsasını təşkil edir.

Biz azad edilmiş Qarabağa səfər edən ilk çoxtərəfli İnkişaf Bankı olmaqdan qürur duyuruq və bununla Azərbaycanın yenidənqurma və inkişaf səylərinə sadiqliyimizi bir daha təsdiqləyirik.

Azərbaycanın 1992-ci ildə Banka qoşulmasından bəri əməkdaşlığımız uğurla inkişaf etmişdir. İslam İnkişaf Bankı Qrupu infrastruktur, enerji, kənd təsərrüfatı və sosial xidmətlər sahələrində 84 layihə üzrə təxminən 1,8 milyard ABŞ dolları həcmində maliyyələşdirmə təsdiqləmişdir. Bakı–Tbilisi–Qars dəmir yolu və Ələt Azad İqtisadi Zonası kimi layihələr təkcə milli layihələr deyil, onlar regional ticarətin əsas arteriyalarıdır və İllik Toplantılarımızın “Davamlı rifah naminə regional inteqrasiya” mövzusunu mükəmməl şəkildə təcəssüm etdirir.

Zati-aliləri cənab Prezident, xanımlar və cənablar.

Regional inteqrasiya və ortaq rifah naminə hədəflərimiz inflyasiya, münaqişələr və təchizat zəncirlərindəki pozuntularla sınağa çəkilən qlobal mühitdə reallaşır. Qlobal iqtisadiyyat müəyyən dayanıqlılıq nümayiş etdirsə də, iqtisadi perspektivlər hələ də kövrək olaraq qalır. Üzv ölkələrimizdə iqtisadi artımın dünya və inkişaf etməkdə olan bazarların orta göstəricilərini üstələyəcəyi proqnozlaşdırılsa da, bu ümumi göstərici daha həssas iqtisadiyyatların üzləşdiyi çətin reallığı tam əks etdirmir. Məhz belə mürəkkəb şəraitdə İslam İnkişaf Bankı Qrupu fəaliyyətini daha da gücləndirmişdir. 2025-ci ildə maliyyələşdirmə təsdiqləri 20 faiz artaraq təxminən 16 milyard ABŞ dollarına çatmış, fəaliyyətə başladığımız vaxtdan etibarən ümumi təsdiqlənmiş maliyyələşdirmə həcmi isə 209 milyard ABŞ dollarına yüksəlmişdir.

Lakin yalnız öhdəliklər kifayət deyil. Nəticələr onların icrasından asılıdır. Buna görə də icra mexanizmlərimizi gücləndirərək vəsaitlərin ayrılmasını 2024-cü ildəki 9,2 milyard ABŞ dollarından 2025-ci ildə 11 milyard ABŞ dollarına çatdırmışıq. İslam İnkişaf Bankında təsdiqlənmiş 5,7 milyard ABŞ dolları həcmində maliyyə prioritet sahələrə yönəldilmişdir, bunun 46 faizi nəqliyyat və bağlantılara, 20 faizi su və şəhər xidmətlərinə, 16 faizi isə səhiyyənin maliyyələşdirilməsinə ayrılmışdır. Qrupun digər qurumları da bu dinamikanı daha da gücləndirmişdir. Beynəlxalq İslam Ticarət və Maliyyə Korporasiyası ticarətin maliyyələşdirilməsi üçün 9,3 milyard ABŞ dolları ayırmışdır. Özəl Sektorun İnkişafı üzrə İslam Korporasiyası özəl sektorun dəstəklənməsi məqsədilə 556 milyon ABŞ dolları həcmində maliyyələşdirmə təsdiqləmişdir. İnvestisiyaların və İxrac Kreditlərinin Sığortalanması üzrə İslam Korporasiyası isə 17,8 milyard ABŞ dolları həcmində sığortalanmış biznes əməliyyatlarına dəstək vermişdir. Bu genişmiqyaslı fəaliyyət maliyyə intizamına əsaslanır. Qlobal qeyri-müəyyənliyə baxmayaraq, biz “AAA” kredit reytinqimizi qoruyub saxlamış və 2025-ci ildə 5 milyard ABŞ dolları dəyərində sukuk buraxmışıq.

Zati-aliləri cənab Prezident, xanımlar və cənablar.

Beş il əvvəl üzv ölkələrimiz mənə bu möhtəşəm quruma rəhbərliyi etibar etdikdə daha çevik, daha təsirli və xidmət göstərdiyimiz insanlara daha yaxın olan yenilənmiş İslam İnkişaf Bankı Qrupu yaratmağa söz vermişdim. Bu vəd COVID19 pandemiyasının kölgəsində verilmişdi. Daha sonra Şərqi Avropadakı müharibə və onun üzv ölkələrimizin ərzaq təhlükəsizliyinə təsirləri vəziyyəti daha da mürəkkəbləşdirdi. Bu çətinliklərlə üzləşərkən ehtiyatlı gözləməyi deyil, fəaliyyət göstərməyi seçdik. Əməliyyatlarımızı genişləndirdik, çünki xidmət etdiyimiz icmaların gecikməyə vaxtı yox idi. Nəticələr bunu açıq şəkildə göstərir. Qrup üzrə illik maliyyələşdirmə təsdiqlərini 2020-ci ildəki 6,8 milyard ABŞ dollarından 2025-ci ildə təxminən 16 milyard ABŞ dollarına çatdıraraq iki dəfədən çox artırmışıq. Eyni zamanda, ayrılan vəsaitlərin həcmi 7,1 milyard ABŞ dollarından 11 milyard ABŞ dollarına yüksəlmişdir.






Lakin inkişaf yalnız yatırılan milyardlarla, dollarlarla ölçülmür. Onun əsl göstəricisi dəyişən həyatlarda və yenidən alovlanan ümiddə əks olunur. Bu, Kamerunda bir kənd rəhbərinin əvvəllər bütün gün çəkən yolunu indi cəmi bir saata qət etməsidir. Bu, Uqandanın kənd yerlərində doğulan körpələrin yaşamaq şansının artmasıdır. Bu, İndoneziyanın şəhərtipli kəndlərində yaşayan 8,5 milyon insanın daha təhlükəsiz və daha ləyaqətli yaşayış şəraitinə qovuşmasıdır. Bu, həmin icmalardan birinin lideri Ani Badriyanın daha yaxşı həyata doğru irəlilədiyinə görə Allaha şükür etməsidir.

Cakartadan Dakara, Almatıdan Abicana, Düşənbədən Corctaun və Paramariboya qədər səfərlərim zamanı İslam İnkişaf Bankının layihələrinin, – istər kiçik sosial təşəbbüslər, istərsə də transformativ infrastruktur proqramları olsun, – milyonlarla insanın həyatını yaxşılaşdırdığını və yeni imkanlar yaratdığını öz gözlərimlə görmüşəm. Bunların şahidi olmaq həyatımın ən gözəl və mənalı təcrübələrindən biri olmuşdur. Bu təcrübə məni əsasən makroiqtisadi göstəricilər və pul siyasəti ilə məşğul olan mərkəzi bankirdən, 57 üzv ölkəmizin gündəlik çətinlikləri və böyük potensialı ilə birbaşa üzləşən inkişaf bankirinə çevirmişdir.

Zati-aliləri cənab Prezident, xanımlar və cənablar.

Son beş il ərzində həmkarlarımla birlikdə İslam İnkişaf Bankı Qrupunun üzv ölkələrimiz üçün əhəmiyyətini artırmaq, institusional idarəetməni gücləndirmək və Qrupun uzunmüddətli dayanıqlılığını təmin etmək istiqamətində yorulmadan çalışmışıq. Əlhəmdülillah, əvvəlki strategiyanı yenidən uyğunlaşdırmış, tərəfdaşlıqlarımızı canlandırmış və İslam İnkişaf Bankı Qrupunun dünyanın aparıcı çoxtərəfli inkişaf bankları arasında mövqeyini daha da möhkəmləndirmişik. Həmçinin 2026-2035-ci illəri əhatə edən, özünəməxsusluq, həmrəylik və nəsillərarası rifah prinsiplərinə əsaslanan Onillik Strateji Çərçivəni istifadəyə vermişik. Bu uzunmüddətli baxış artıq Bankın və onun törəmə qurumlarının yeni Beşillik Korporativ Strategiyaları vasitəsilə konkret fəaliyyətlərə çevrilir. Bu strategiyalar 2026–2030-cu illər üçün iddialı Yol Xəritəsi müəyyən edir. İnşallah, bu toplantılar başa çatan kimi onların icrasına başlanılacaq.

Eyni zamanda, tarixi bir nailiyyət əldə etmişik. Artıq fəaliyyət göstərən İslam İnkişaf Bankının Güzəştli Fondu yüksəktəsirli yeni layihələri dəstəkləyir və həssas ölkələrin aktual inkişaf problemlərini həll etməsinə kömək göstərir. Bu mühüm təşəbbüsə artıq töhfə vermiş üzv ölkələrə səmimi təşəkkürümü bildirirəm. Onların dəstəyi qurumumuzu xarakterizə edən həmrəylik ruhunun bariz nümunəsidir. İrəliyə doğru gedərkən Fondun daha da gücləndirilməsi və heç bir üzv ölkənin geridə qalmamasının təmin olunması üçün davamlı dəstəyinizə və səxavətli töhfələrinizə ümid edirik.

Zati-aliləri cənab Prezident, xanımlar və cənablar.

Mənə ikinci müddət üçün bu quruma rəhbərlik etməyi təklif etdiyinə görə Səudiyyə Ərəbistanı Krallığına, eləcə də dəstəklərinə və etimadlarına görə hörmətli rəhbərlərə minnətdaram. Bu yenilənmiş etimad İslam İnkişaf Bankı Qrupunu daha da irəli aparmaq əzmimizi gücləndirir. Həmişə olduğu kimi, yanaşmamız milli prioritetlərə əsaslanan həllərə söykənəcək və investisiyalar üzv ölkələrimizin inkişaf məqsədləri ilə uzlaşdırılacaqdır.

İstiqamətimiz aydındır. Böyük miqyasda nəticələr əldə etmək, yüksək keyfiyyətlə fəaliyyət göstərmək və vahid bir qrup kimi çıxış etmək. Lakin heç bir qurum nə qədər güclü vizyona və strategiyaya malik olsa da, onun missiyasını hər gün həyata keçirən insanların fədakarlığı olmadan real təsir yarada bilməz.

İslam İnkişaf Bankı Qrupunun rəhbərliyinə və əməkdaşlarına peşəkarlıqları və sədaqətləri üçün dərin minnətdarlığımı bildirirəm. Həmçinin bütün rəhbərlərimizə, icraçı direktorlarımıza, Ərəb Koordinasiya Qrupundakı tərəfdaşlarımıza və daha geniş çoxtərəfli inkişaf bankları icmasına təşəkkür edirəm.

İllik Toplantıların təşkilat komandasına yorulmaz səylərinə görə xüsusi təşəkkürümü bildirir, dəyərli nümayəndələrə ortaq məqsədlərimizə sadiqliklərinə görə minnətdarlığımı ifadə edirəm. Bir daha Zati-aliləri Prezident İlham Əliyevə toplantılarımıza göstərdiyi himayəyə, həmçinin Azərbaycan hökumətinə və xalqına səmimi qonaqpərvərliyə görə dərin təşəkkürümü bildirirəm.

Zati-aliləri cənab Prezident, xanımlar və cənablar.

Qeyri-müəyyənlik, parçalanma və artan həssaslıqlarla xarakterizə olunan dünyada həmrəylik artıq seçim deyil, zərurətdir. Müqəddəs “Qurani-Kərim” bizə buyurur: “Yaxşılıq və təqva üzərində bir-birinizə kömək edin”. Bu əbədi prinsip missiyamızın əsasını təşkil edir. O bizə xatırladır ki, rifah müqəddəs əmanətdir — paylaşılmalı və hamı üçün ləyaqətə, imkanlara və ümidə çevrilməli olan bir nemətdir. Lakin üzv ölkələrimizin müxtəlif bölgələrində davam edən dərin humanitar böhranları nəzərə almadan rifahdan danışa bilmərik. Günahsız insanlar böyük əzablar, itkilər, məcburi köçkünlük və qeyri-müəyyənlik yaşayırlar. Bu reallıqlar bizə xatırladır ki, həmrəylik yalnız bəyanatlar və çıxışlarla məhdudlaşan prinsip olmamalıdır. O, kollektiv fəaliyyətə, ortaq məsuliyyətə və çətinliklərlə üzləşən insanlara real dəstəyə çevrilməlidir.

Gəlin Bakıdan elə ayrılaq ki, ortaq səylərimiz nəticəsində bir uşaq təhsil ala bilsin, bir ana təhlükəsiz şəkildə övladını dünyaya gətirsin, bir fermer daha yaxşı dolanışıq əldə etsin və həssas bir icma gələcəyə daha böyük ümid və inamla baxsın.

Diqqətinizə görə təşəkkür edirəm.

*

Tədbirdə iqtisadiyyat naziri, Rəhbərlər Şurasının sədri **Mikayıl Cabbarov** çıxış edərək dedi:

– Zati-aliləri cənab Prezident, hörmətli sədr doktor Əl-Casir, hörmətli rəhbərlər, sizi salamlayıram.



Hörmətli cənab Prezident, icazənizlə, bu tədbirdə iştirakınıza və İllik Toplantının hazırlanmasına göstərdiyiniz dəstəyə görə Sizə minnətdarlığımı bildirim. Sizin dəstəyiniz bu toplantıya xüsusi əhəmiyyət verir.

Hörmətli doktor Əl-Casir, Zati-alilərinin və hörmətli rəhbərlərin iştirakı ilə Sizi yenidən seçilməyiniz və yeni mandat almağınız münasibətilə təbrik edirəm. Bu, üzv dövlətlərimizin Sizə göstərdiyi etimaddır. Bundan başqa, Bakıda toplaşan bütün rəhbərlərə və həmkarlarıma təşəkkürümü bildirirəm. Bu İllik Toplantını yüksək səviyyədə təşkil etdiklərinə görə həmkarlarıma və bütün komanda üzvlərinə minnətdaram.

Bizim tərəfdaşlığımız sonuncu görüşümüzdən bu günə qədər böyük inkişaf yolu keçmişdir. Bizim bank fəaliyyətlərimiz 10 dəfə - 0,1-dən 1 faizə qədər artmışdır. Portfelimiz də əhəmiyyətli dərəcədə artmışdır. Burada Qarabağ suvarma kanalının inşasına dair müqavilənin imzalanmasını xüsusilə qeyd etmək istəyirəm. Azad edilmiş ərazilərdə dəmir yollarının və kənd təsərrüfatı sahələrinin inkişafı bizim üçün xüsusi əhəmiyyət daşıyır. Əməkdaşlığımız artıq strateji səviyyəyə qalxıb. Çoxillik Strateji Tərəfdaşlıq Proqramının və Anlaşma Memorandumunun imzalanmasını xüsusilə qeyd etmək istəyirəm.

Azərbaycan öz uğur hekayəsini sizinlə bölüşür. İqtisadi transformasiyadan insan kapitalının inkişafına qədər və dövlət xidmətlərinin “ASAN xidmət” və DOST Agentliyi vasitəsilə göstərilməsi bizi daha da məşhurlaşdırmışdır. Eyni zamanda, bu mərkəzlərin azad olunmuş ərazilərdə də yaradılmasını qeyd etmək istəyirəm. Bunlar regional hab kimi xidmət göstərir və bu təcrübəmizi üzv dövlətlərlə də bölüşməyə hazırıq.

Zati-aliləri cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Cənub-Cənub ikitərəfli iqtisadi tərəfdaşlıq modeli inkişaf etdirə bilmişdir. Bu sahə üzv dövlətlərimizin əksəriyyətinin fəaliyyət göstərdiyi sahədir. Bundan başqa, bankların rəhbərliyinə təşəkkürümü bildirmək istəyirəm. Azərbaycan Ərəb Koordinasiya Qrupu ilə əlaqələrin qurulması və tərəfdaşlıq bizə bir çox milyardlıq boru kəmərləri layihələrinin icrasına, dəmir yolları və avtomobil yollarının inşasına imkan yaratmışdır.

Özəl sektorun strateji inkişafı insan kapitalı və texnoloji inkişafı şərtləndirir. Bu həftə ərzində əldə olunan nailiyyətlər ümumi milli vizyonun nəticəsidir, hansı ki, davamlı şəkildə uzun illər ərzində icra edilmişdir. Eyni zamanda, bu dəstək qurumlara öz siyasətlərini müəyyənləşdirməyə və nəticə əldə etməyə imkan vermişdir.

Zati-aliləri cənab Prezidentin iştirakı ilə ölkəmiz 2010-cu ildə İslam İnkişaf Bankının 35-ci İllik Toplantısına ev sahibliyi edib və 15 ildən sonra bu toplantılar dövlətimizin başçısının ali himayəsi altında tamamilə dəyişmiş bir ölkədə yenidən keçirilir. Biz İslam İnkişaf Bankı Qrupunu üzv ölkələrin əlaqələrini gücləndirən, ticarəti asanlaşdıran və insanların hərəkətini sadələşdirən ortaq çərçivələr vasitəsilə regional əməkdaşlığı daha da dərinləşdirmək yollarını bu ruhda öyrənməyə təşviq edirik. Bank bu sahədə bütün ümmət üçün iqtisadiyyatın inkişaf etdirilməsi məqsədilə yolların axtarışındadır. Düşünürəm ki, bu İllik Toplantılar zamanı siz məhsuldar müzakirələrin şahidi olacaqsınız. Bizim komandalar bankın komandası ilə əlaqələr qura biləcək. Eyni zamanda, Azərbaycanın zəngin tarixi, mədəniyyəti ilə tanış ola biləcəksiniz. Əminəm ki, həm də bizim mədəni proqramdan, musiqimizdən həzz alacaqsınız, təamlarımızdan dadacaqsınız və irsimiz haqqında daha çox öyrənəcəksiniz. Ona görə də biz hamınızı dəvət edirik. Bu, ən əhəmiyyətli İllik Toplantılardan biri olacaq. Sizi, dostlarınızı və ailə üzvlərinizi Azərbaycanda xoş gördük və gələcəkdə də görməyə şad olacağıq. Çox sağ olun.

*

Daha sonra tədbirdə “Qarabağ suvarma kanalının yenidən qurulması” layihəsi üzrə Çərçivə (Kredit) sazişi, “Qarabağ suvarma kanalının yenidən qurulması” layihəsi üzrə Qrant Sazişi və “Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və İslam İnkişaf Bankı arasında Azərbaycan Respublikası üçün Üzv Ölkə Tərəfdaşlıq Strategiyasının hazırlanmasına dair Anlaşma Memorandumu” imzalandı.

***AZƏRTAC***

# Prezident İlham Əliyev Ərəb Koordinasiya Qrupuna üzv qurumların rəhbər heyətini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 18-də Ərəb Koordinasiya Qrupuna daxil olan üzv qurumların rəhbər şəxslərindən ibarət nümayəndə heyətini qəbul edib.**

Nümayəndə heyətinə İslam İnkişaf Bankı Qrupunun sədri Məhəmməd Süleyman Əl-Casir, Beynəlxalq İnkişaf üzrə OPEC Fondunun prezidenti Əbdülhəmid Əl-Xəlifə, Afrikada İqtisadi İnkişaf üzrə Ərəb Bankının prezidenti Abdulla Xəlil Əl-Müseybih, Ərəb Valyuta Fondunun Baş direktoru və İdarə Heyətinin sədri Fəhad Əl-Türki, Səudiyyə İnkişaf Fondunun Baş icraçı direktoru Sultan Əbdürrəhman Əl-Mərşad, Ərəb Körfəzi İnkişaf Proqramının icraçı direktoru Həmmam bin Nasir bin Cureyd, Küveyt Ərəb İqtisadi İnkişaf Fondunun əməliyyat direktoru Tamer Əl-Failakavi, Səudiyyə Ərəbistanı Krallığının maliyyə naziri Məhəmməd Abdulla Əl-Cadan, Küveyt Dövlətinin maliyyə naziri Yaqub Ər-Rifai, Qətər Dövlətinin maliyyə naziri Əli Əhməd Əl-Kuvari və Birləşmiş Ərəb Əmirlikləri Maliyyə Nazirliyinin beynəlxalq maliyyə əlaqələri üzrə nazir müavini Əliabdulla Şərəfi daxildir.

Dövlətimizin başçısı Ərəb Koordinasiya Qrupuna daxil olan üzv qurumların rəhbər şəxslərinin İslam İnkişaf Bankı Qrupunun 2026-cı il üzrə İllik Toplantılarında iştirakının əhəmiyyətini qeyd etdi.

Azərbaycanla Ərəb Koordinasiya Qrupuna daxil olan üzv qurumlar arasında fəal əməkdaşlığın qurulduğunu deyən Prezident İlham Əliyev bir çox layihələrin icra mərhələsində olduğunu vurğuladı. Dövlətimizin başçısı imzalanacaq sənədlərin önəminə də toxundu.



Ölkəmizdə olmaqdan məmnunluğunu bildirən İslam İnkişaf Bankı Qrupunun sədri Məhəmməd Süleyman Əl-Casir qəbula görə nümayəndə heyəti adından Prezident İlham Əliyevə minnətdarlığını ifadə etdi.

Qonaq rəhbərlik etdiyi qurumla Azərbaycan arasında əməkdaşlığın genişləndirilməsinə dövlətimizin başçısının göstərdiyi dəstəyi yüksək qiymətləndirdi.

Söhbət zamanı Azərbaycanla Ərəb Koordinasiya Qrupuna daxil olan üzv qurumlar arasında tərəfdaşlığın genişləndirilməsi üçün yaxşı imkanların olduğu vurğulandı, ölkəmizdə mövcud olan əlverişli investisiya mühitinin Ərəb Koordinasiya Qrupuna daxil olan üzv qurumlarla birgə layihələr həyata keçirmək baxımından əhəmiyyəti qeyd edildi.

Görüşdən sonra Azərbaycan Prezidentinin iştirakı ilə "Sumqayıt Yeni Tullantı Sutəmizləyici Qurğunun tikintisi" layihəsi üzrə Kredit sazişi imzalandı. Həmçinin imzalanmış "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi və Ərəb Koordinasiya Qrupu üzvləri arasında "Abşeron yarımadasında 33 yaşayış məntəqəsinin su təchizatı və kanalizasiya sistemlərinin tikintisi layihəsi üzrə əməkdaşlığın genişləndirilməsinə dair Anlaşma Memorandumu" mübadilə olundu.

Daha sonra dövlətimizin başçısı İslam İnkişaf Bankı Qrupunun sədri Məhəmməd Süleyman Əl-Casirə "Dostluq" ordenini təqdim etdi.

Məhəmməd Süleyman Əl-Casir onun fəaliyyətinə verdiyi yüksək qiymətə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi.

Qeyd edək ki, Məhəmməd Süleyman Əl-Casir ölkəmizlə İslam İnkişaf Bankı arasında əməkdaşlığın inkişafına verdiyi töhfəyə görə Prezident İlham Əliyevin Sərəncamına əsasən bu ordenlə təltif olunub.

***AZƏRTAC***

# Ombudsmanların Beynəlxalq Bakı Sammitinin iştirakçılarına

**Hörmətli Sammit iştirakçıları!**

Sizi "Süni intellekt dövründə insan hüquqları: imkanlar, risklər və məsuliyyətlər" mövzusunda keçirilən Ombudsmanların Beynəlxalq Bakı Sammitinin açılışı münasibətilə salamlayıram.

İnsan hüquqları sahəsində yeni qlobal çağırışlara həsr olunmuş bu Sammitin 18 İyun Azərbaycan Respublikasında İnsan Hüquqları Günündə keçirilməsi xüsusi əhəmiyyət kəsb edir. Bu tarix Azərbaycan Respublikasının Ümummilli Lideri Heydər Əliyevin ölkəmizdə ilk "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı"nı təsdiq etdiyi və insan hüquqlarının təmin olunmasını dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyənləşdirdiyi gündür.

Müasir dövrdə süni intellekt texnologiyalarının sürətlə inkişafı bəşəriyyətin sosial, iqtisadi, hüquqi və etik gündəliyini əsaslı şəkildə dəyişməkdədir. Bu proses yeni imkanlarla yanaşı, bütün sahələrdə, o cümlədən insan hüquqları sahəsində də yeni prioritetləri aktuallaşdırır.

Ölkəmiz texnoloji tərəqqinin insan amilinə xidmət etməsini dövlət siyasətinin əsas prinsiplərindən biri kimi qəbul edir. Belə ki, Azərbaycanda innovativ texnologiyaların və süni intellektin məsuliyyətli və balanslaşdırılmış tətbiqi istiqamətində mühüm addımlar atılır. Qeyd olunan sahədə qəbul etdiyimiz hüquqi aktlar, konsepsiya və fəaliyyət planları bu texnologiyaların təhlükəsiz, şəffaf və insan hüquqlarına əsaslanan prinsiplər çərçivəsində tətbiqini təşviq edir, inklüziv inkişafın dəstəklənməsinə və rəqəmsal transformasiyanın sürətləndirilməsinə xidmət edir.

Azərbaycanın yeni rəqəmsal arxitekturası üzrə həyata keçirilən təşəbbüslər, dövlət idarəçiliyində süni intellektin tətbiqinin genişləndirilməsi, informasiya təhlükəsizliyi və milli süni intellekt infrastrukturunun inkişaf etdirilməsi ölkəmizin müasir çağırışlara strateji yanaşmasını nümayiş etdirir.

Xüsusi qeyd olunmalıdır ki, bu yaxınlarda Bakı şəhərində keçirilmiş BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyası dayanıqlı inkişaf, rəqəmsal idarəetmə, insanyönümlü şəhər mühitinin formalaşdırılması istiqamətində beynəlxalq əməkdaşlığa və qlobal dialoqa ölkəmizin verdiyi töhfənin mühüm göstəricisi oldu.

Bu kontekstdə, Azərbaycanın işğaldan azad edilmiş ərazilərində həyata keçirilən "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyaları süni intellekt texnologiyalarının, innovativ həllərin və ekoloji dayanıqlılıq prinsiplərinin insan rifahına, təhlükəsiz yaşayış mühitinin formalaşdırılmasına və sosial-iqtisadi reinteqrasiyanın təmin edilməsinə yönəlmiş uğurlu inkişaf modelidir.

Bu inkişaf tendensiyaları insan hüquqlarının müdafiəsi sahəsində institusional mexanizmlərin və beynəlxalq əməkdaşlığın əhəmiyyətini də artırır. Bu baxımdan milli insan hüquqları institutları, o cümlədən ombudsman təsisatı yeni texnoloji çağırışlar dövründə insan hüquq və azadlıqlarının müdafiəsində və hüquq mədəniyyətinin təbliğində mühüm rol oynayır.

Əminəm ki, Ombudsmanların Beynəlxalq Bakı Sammiti bu sahədə beynəlxalq əməkdaşlığın və qabaqcıl təcrübə mübadiləsinin genişləndirilməsinə, insanyönümlü və hüquqa əsaslanan innovativ idarəetmə mexanizmlərinin təşviqinə mühüm töhfə verəcəkdir.

Bir daha sizi salamlayır, Sammitin işinə uğurlar arzu edirəm.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 17 iyun 2026-cı il**

# Azərbaycan–Rumıniya strateji tərəfdaşlıq müzakirəsi



**Azərbaycan və Rumıniya arasında strateji tərəfdaşlıq müzakirə olunub.**

Bu barədə Azərbaycan Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev "X" sosial media hesabında paylaşım edib.

O, rumıniyalı həmkarı Marius Lazurka ilə məhsuldar görüş keçirdiyini bildirib: "Azərbaycan və Rumıniya arasındakı strateji tərəfdaşlığı və ənənəvi dostluğu bir daha təsdiq edərək ikitərəfli əlaqələrimizin daha da dərinləşdirilməsi üçün imkanları müzakirə etdik. Cənubi Qafqaza coğrafi cəhətdən ən yaxın olan Avropa İttifaqı üzvü dövləti kimi Rumıniya əməkdaşlığımızda mühüm yer tutur. Siyasi, iqtisadi, enerji, müdafiə, mədəni, humanitar və digər sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi perspektivləri barədə fikir mübadiləsi apardıq. Fəal siyasi və təhlükəsizlik dialoqumuzu davam etdirmək barədə razılığa gəldik".

***XQ***

# Milli Məclisdə Rusiya Federasiya Şurasının sədri ilə görüş



**Milli Məclisin Sədri Sahibə Qafarova Rusiya Federasiyası Federal Məclisinin Federasiya Şurası sədrinin birinci müavini Andrey Yatskin ilə görüşüb.**

Görüşdə Əməkdaşlıq Komissiyasının parlamentlərimiz arasında əməkdaşlığın genişləndirilməsi və gündəlikdə olan bir sıra digər məsələlərin müzakirəsi baxımından əhəmiyyətli platforma olduğu vurğulanaraq, növbəti iclasın da uğurla keçdiyi və faydalı müzakirələrin baş tutduğu bildirilib. Söhbət zamanı iki ölkənin qanunvericilik orqanları arasında əlaqələrin uğurla inkişaf etdiyi diqqətə çatdırılıb.

Həmçinin beynəlxalq parlament təşkilatları, o cümlədən Parlamentlərarası İttifaq, MDB Parlament Assambleyası və digər beynəlxalq təşkilatlarda əməkdaşlıq məsələləri nəzərdən keçirilib.

***XQ***

# Xarici İşlər Nazirliyində



**İyunun 18-də xarici işlər naziri Ceyhun Bayramov İsveç Krallığının Azərbaycandakı səfiri Tobias Lorentzsonla ölkəmizdə diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar görüşüb.**

Görüş zamanı Azərbaycan ilə İsveç arasında siyasi dialoq, iqtisadiyyat, ticarət, humanitar və təhsil sahələrində əməkdaşlıq məsələləri müzakirə olunub. Tərəflər ikitərəfli münasibətlərin inkişaf etdirilməsi, qarşılıqlı səfərlərin və təmasların davam etdirilməsinin əhəmiyyətini vurğulayıblar.

Nazir Ceyhun Bayramov iki ölkə arasında mövcud münasibətlərin inkişafını məmnunluqla qeyd edərək, bu istiqamətdə göstərdiyi səylərə görə səfirə təşəkkürünü bildirib. O, səfir Tobias Lorentzsonun fəaliyyət müddəti ərzində Azərbaycan-İsveç əlaqələrinin inkişafına verdiyi töhfələri yüksək qiymətləndirib və gələcək fəaliyyətində ona uğurlar arzulayıb.

Səfir ölkəmizdə fəaliyyəti dövründə göstərilən dəstəyə görə təşəkkürünü ifadə edib.

*

**Həmin gün xarici işlər naziri Ceyhun Bayramov ilə Banqladeşin xarici işlər naziri Xəlilur Rəhman arasında telefon danışığı olub.**

Ceyhun Bayramov Xəlilur Rəhmanı BMT Baş Assambleyasının 81-ci sessiyasının Prezidenti vəzifəsinə seçilməsi münasibətilə təbrik edib, ona gələcək fəaliyyətində uğurlar arzulayıb. Onun bu nüfuzlu vəzifəyə seçilməsinin Banqladeşin beynəlxalq aləmdə artan rolunun göstəricisi olduğu vurğulanıb.

Telefon danışığı zamanı Azərbaycan ilə Banqladeş arasında ikitərəfli münasibətlərin cari vəziyyəti və inkişaf perspektivləri müzakirə olunub. Tərəflər siyasi dialoqun, iqtisadi-ticarət əlaqələrinin, təhsil, humanitar və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün mövcud potensialı qeyd ediblər.

***XQ***

# Azərbaycan–Rusiya Parlamentlərarası Əməkdaşlıq Komissiyasının iclası



**İyunun 18-də Azərbaycan Milli Məclisi və Rusiya Federal Məclisi Parlamentlərarası Əməkdaşlıq Komissiyasının 24-cü iclası keçirilib.**

Milli Məclis sədrinin birinci müavini, Azərbaycan tərəfdən Komissiyanın həmsədri Əli Əhmədov ölkələrimiz arasında xalqlarımızın mənafelərinə xidmət edən mehriban qonşuluq, dostluq və əməkdaşlıq ənənələrinin mövcud olduğunu qeyd edib. O bildirib ki, Azərbaycan-Rusiya münasibətlərində Azərbaycan Milli Məclisi ilə Rusiya Federal Məclisi arasında Əməkdaşlıq üzrə Parlamentlərarası Komissiya xüsusi yer tutur. Öz fəaliyyəti dövründə komissiya vacib platforma kimi özünü təsdiqləyib. O, parlamentlərarası əlaqələrin gücləndirilməsinin və təcrübə mübadiləsinin parlament fəaliyyətinin səmərəliliyinin artırılmasına və ölkələr arasında əməkdaşlığın daha da inkişaf etdirilməsinə töhfə verəcəyinə əminliyini ifadə edib.

Rusiya Federal Məclisi Federasiya Şurası sədrinin birinci müavini, Rusiya tərəfindən Komissiyanın həmsədri Andrey Yatskin çıxışında deyib ki, parlamentlərarası əməkdaşlıq iki ölkə arasında dostluq və müttəfiqlik münasibətlərinin mühüm istiqamətlərindən biridir. O, Azərbaycan ilə Rusiya arasında parlamentlərarası əməkdaşlığın davamlı xarakterinin əhəmiyyətini qeyd edib və tədbirin təşkilinə görə Azərbaycan tərəfinə təşəkkürünü bildirib.

Sonra komissiyanın iclasında Azərbaycan Milli Məclisi ilə Rusiya Federal Məclisi arasında əməkdaşlıq kontekstində parlament demokratiyasının inkişafı, iki ölkə arasında səhiyyə və tibb kadrlarının hazırlanması sahəsində əməkdaşlıq, elm və təhsil sahəsində əməkdaşlığın perspektivləri mövzularında müzakirələr aparılıb.

Müzakirələrdə Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova, Səhiyyə komitəsinin üzvü Anatoliy Rafailov, Elm və təhsil komitəsinin üzvü Bəxtiyar Əliyev, Azərbaycan Respublikası səhiyyə nazirinin müavini İlqar Qasımov, elm və təhsil nazirinin müavini Firudin Qurbanov, Federasiya Şurasının Elm, təhsil və mədəniyyət komitəsi sədrinin birinci müavini İlyas Umaxanov və başqaları çıxış edərək gündəlikdəki məsələlər barədə fikirlərini açıqlayıblar.

Tədbirdə Milli Məclislə Federal Məclis arasında Əməkdaşlıq üzrə Parlamentlərarası Komissiyanın növbəti – 25-ci iclası ilə bağlı təşkilati məsələlərə də baxılıb.

***XQ***

# Cənubi Qafqazın səsini dünyaya yayan lider dövlət

## *Azərbaycanın çoxşaxəli diplomatiyasının uğur marafonu davam edir*



**Paytaxt Bakının qlobal miqyaslı diplomatik müzakirələrin, iqlim konfranslarının və beynəlxalq təşkilatların toplantılarının mərkəzi halına gəlməsi dövlətin çoxşaxəli fəaliyyət gündəliyinin əyani göstəricisidir. Azərbaycan Prezidenti İlham Əliyevin son bəyanatlarında vurğulandığı kimi, Bakıda keçirilən genişmiqyaslı xarici siyasət yığıncaqları respublikanın beynəlxalq arenada artan rolunu və fərqli platformalar arasında körpü rolunu oynamaq potensialını nümayiş etdirir.**

Beynəlxalq münasibətlər nəzəriyyəsində strateji muxtariyyət anlayışı dövlətin xarici güclərdən asılı olmadan, milli hədəflərinə uyğun qərarlar qəbul etmək iradəsini ifadə edir. Azərbaycan xarici siyasətində çoxvektorluluq prinsipini rəhbər tutaraq qlobal güc mərkəzləri ilə bərabərhüquqlu və qarşılıqlı hörmətə əsaslanan əlaqələr qurmağa nail olub. Respublikanın fəaliyyət trayektoriyası göstərir ki, güclü dövlət olmaq qlobal səviyyədə fərqli siyasi qütbləri sülh və əməkdaşlıq naminə mərkəzləşdirmək bacarığı ilə bağlıdır.

Azərbaycan regional inteqrasiya layihələrinin fəal təşəbbüskarı olmaqla yanaşı, həm də qlobal idarəçilik strukturları ilə əməkdaşlığı prioritet istiqamət kimi müəyyən edib. Dövlətin xarici siyasət fəlsəfəsi münaqişələrin sülh yolu ilə həlli, suverenliyə hörmət və daxili işlərə qarışmamaq prinsipləri üzərində qurulub. Bakı şəhərinin beynəlxalq konfranslar mərkəzinə çevrilməsi həmin prinsiplərin qlobal miqyasda təbliği üçün əlverişli şərait yaradır.

Tarixi baxımından yanaşdıqda, Azərbaycanın qlobal maliyyə və inkişaf institutları ilə tərəfdaşlığı çoxillik inkişaf yolu keçib. 2010-cu ildə Bakıda təşkil olunan İslam İnkişaf Bankı Qrupunun 35-ci illik toplantısı ölkənin beynəlxalq səviyyəli genişmiqyaslı konfranslara ev sahibliyi etmək qabiliyyətinin ilkin mühüm mərhələlərindən hesab edilir. Həmin tarixi dövrdən etibarən respublika qlobal maliyyə arxitekturasının fəal iştirakçısına çevrilib. Aradan keçən 16 il ərzində qazanılmış təcrübə, möhkəmlənən daxili sabitlik və genişlənən xarici əlaqələr imkan vermişdir ki, cari ilin iyun ayında Azərbaycan növbəti dəfə İslam İnkişaf Bankı Qrupunun illik toplantılarına uğurla ev sahibliyi etsin. Belə ardıcıl əməkdaşlıq İslam dünyası ilə siyasi həmrəyliyin dərinləşməsi baxımından geosiyasi əhəmiyyət daşıyır.

İslam İnkişaf Bankı Qrupunun illik toplantılarının Bakıda keçirilməsi tarixi, dini və mədəni bağların müasir beynəlxalq münasibətlər sistemində böyük siyasi gücə çevrildiyini aydın göstərir. Dövlət rəhbərliyinin İslam coğrafiyasındakı fəallığı təkcə qarşılıqlı iqtisadi layihələrlə məhdudlaşmır, həm də İslam əleyhinə yönəlmiş qlobal təhdidlərlə mübarizədə ortaq platformaların yaradılmasını hədəfləyir. Azərbaycan İslam Əməkdaşlıq Təşkilatının ən fəal üzvlərindən olaraq, müsəlman xalqların haqlı mövqelərinin beynəlxalq arenada müdafiəsinə böyük töhfələr verib.

Xarici siyasət kursunun çoxşaxəliliyini və qlobal miqyasını nümayiş etdirən mühüm mərhələlərdən növbətisi 2024-cü ilin noyabr ayında paytaxtda keçirilən COP29 iqlim sammiti idi. BMT-nin qlobal konfranslarından hesab olunan həmin sammitin Bakıda təşkil edilməsi ölkənin beynəlxalq nüfuzunun zirvə nöqtələrindən hesab olunmalıdır. Geosiyasi qarşıdurmaların gərginləşdiyi bir dövrdə Azərbaycan həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan dövlətləri ortaq məqsədlər ətrafında cəmləşdirmək istedadını ortaya qoydu. Enerji ixracatçısı olan dövlətin yaşıl gündəliyi dəstəkləməsi və qlobal iqlim maliyyələşdirilməsi istiqamətində qərarların qəbul edilməsinə rəhbərlik etməsi onun strateji uzaqgörənliyini göstərir. Sammit zamanı əldə olunan uğurlar Azərbaycanın diplomatik korpusunun yüksək peşəkarlığını və mürəkkəb qlobal məsələlərdə konsensus əldə etmək qabiliyyətini nümayiş etdirdi.

Qlobal miqyaslı uğurlu fəaliyyətin davamı olaraq, cari il may ayında Bakıda düzənlənən Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) mühüm siyasi əhəmiyyət kəsb etdi. Dünyada mənzil böhranı, təhlükəsiz və dayanıqlı yaşayış məskənlərinin qurulması mövzusuna həsr edilən nüfuzlu konfrans 17-dən çox ölkənin nümayəndələrini, dövlət rəsmilərini və ekspertləri paytaxtda cəmləşdirdi. Beynəlxalq ictimaiyyətin göstərdiyi yüksək maraq Azərbaycanın qlobal urbanizasiya proseslərinə verdiyi töhfələrin və etibarlı tərəfdaşlıq imicinin bariz nümunəsidir. Ümumdünya Şəhərsalma Forumu dövlətin beynəlxalq təşkilatlarla, xüsusən də BMT-nin Məskunlaşma Proqramı ilə çoxşaxəli əlaqələrini yeni mərhələyə qaldırdı.

Ümumdünya Şəhərsalma Forumunun Bakıda keçirilməsinin siyasi baxımdan ən mühüm tərəflərindən digəri, işğaldan azad edilmiş ərazilərdə aparılan genişmiqyaslı yenidənqurma fəaliyyətinin qlobal ictimaiyyətə təqdim olunmasıdır. Qarabağ və Şərqi Zəngəzur bölgələrində həyata keçirilən “ağıllı şəhər” və “ağıllı kənd” layihələri, “yaşıl enerji” zonalarının yaradılması, ekoloji cəhətdən dayanıqlı yaşayış məskənlərinin inkişafı beynəlxalq ekspertlər tərəfindən yüksək qiymətləndirilir. Adıçəkilən ərazilərin bərpası və məcburi köçkünlərin geri qayıtması prosesi müasir urbanizasiya elminin ən qabaqcıl standartlarına uyğun aparılır. WUF13 çərçivəsində xarici nümayəndə heyətlərinin həmin nəhəng quruculuq işləri ilə yaxından tanış olması, Azərbaycanın postmünaqişə dövründəki dinc quruculuq missiyasını aydın şəkildə nümayiş etdirdi.

Prezident İlham Əliyevin qeyd etdiyi fəaliyyət gündəliyinin çoxşaxəliliyi konsepsiyası Azərbaycanın qlobal siyasətdəki çoxvektorlu yanaşmasının fəlsəfəsini əks etdirir. Dövlətin xarici siyasəti təktərəfli asılılıqlardan uzaq, milli mənafelərin qorunmasına yönəlik tarazlaşdırıcı strategiyaya əsaslanır. Beynəlxalq konfransların fərqli mövzularda keçirilməsi göstərir ki, Azərbaycan dünya səviyyəsində müxtəlif maraq qrupları ilə uğurlu əlaqələr qura bilir. Qərb və Şərq, Şimal və Cənub geosiyasi qütbləri arasında etibarlı kommunikasiya kanalı rolunu oynamaq respublikanın strateji dəyərini artırır. Belə çoxtərəfli diplomatiya vasitəsilə dövlət regional gərginliklərdən qorunmaqla yanaşı, həm də qlobal səhnədə fəallığını təmin edir.

Qlobal səhnədə aparıcı mövqeyə sahib olmaq üçün təkcə hərbi və ya fiziki güc kifayət etmir. Yumşaq güc resurslarının inkişaf etdirilməsi dövlətin xarici siyasət səmərəliliyini artıran əsas amillərdəndir. Bakıda keçirilən ardıcıl konfranslar, forumlar və zirvə görüşləri Azərbaycanın beynəlxalq humanitar və intellektual mərkəz kimi imicini gücləndirir. Dünyanın müxtəlif ölkələrindən gələn diplomatlar, dövlət rəsmiləri və ictimai xadimlər paytaxtda fərqli mədəniyyətlərin birgəyaşayış modelini, daxili sabitliyi və yüksək inkişaf səviyyəsini müşahidə edirlər. Həmin proses beynəlxalq münasibətlər nəzəriyyəsində “diplomatik sosiallaşma” adlanır. Xarici nümayəndələrin respublika haqqında qazandıqları müsbət təəssüratlar gələcəkdə milli maraqların beynəlxalq platformalarda müdafiə olunmasında əvəzsiz rol oynayır.

Genişmiqyaslı beynəlxalq yığıncaqların təşkili həm də dövlətin institusional və təhlükəsizlik imkanlarının göstəricisidir. On minlərlə xarici qonağın, yüksək vəzifəli rəsmilərin və dövlət başçılarının təhlükəsizliyinin yüksək səviyyədə qorunması, logistik idarəetmənin qüsursuz qurulması dövlət aparatının səmərəli fəaliyyətini sübut edir. Müasir dünyada daxili xaos və sabitliyin pozulması riskləri ilə üzləşən çoxsaylı ölkələrlə müqayisədə Azərbaycandakı siyasi və ictimai sabitlik ölkənin üstünlüyüdür. Beynəlxalq təşkilatlar mötəbər konfransların məkanını seçərkən məhz daxili sabitliyi və təhlükəsizlik təminatlarını əsas götürürlər. Bakının seçilməsi dövlətin güclü idarəetmə institutlarına sahib olmasının beynəlxalq miqyasda qəbul edilməsidir. Siyasi sabitlik respublikanın uğurlu gələcəyinin və qlobal səhnədəki cəlbediciliyinin təməl sütunudur.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

# Tranzit ölkədən strateji mərkəzə

## *Coğrafi üstünlük, üstəgəl, qlobal nəqliyyat infrastrukturu*

**Beynəlxalq münasibətlər sistemində baş verən geosiyasi dəyişikliklər, ənənəvi tranzit yollarında yaranan risklər Avrasiya məkanında alternativ nəqliyyat dəhlizlərinə marağı artırıb. Yeni geoiqtisadi reallıqda Azərbaycanın rolu yüksəlib. Bir neçə il əvvəl əsasən enerji ixracatçısı kimi tanınan ölkəmiz hazırda Şərqlə Qərbi, Şimalla Cənubu birləşdirən logistika və nəqliyyat qovşağına çevrilir.**






Bu məsələ Bakıda keçirilən və İslam İnkişaf Bankının İllik Toplantıları çərçivəsində təşkil olunan Azərbaycan İnvestisiya Perspektivləri Forumunda diqqət mərkəzində oldu. Tədbirdə iqtisadiyyat naziri Mikayıl Cabbarov ölkənin investisiya cəlbediciliyinin üç əsas istiqamətini qeyd etdi: nəqliyyat bağlantıları, “yaşıl enerji” və rəqəmsal iqtisadiyyat. Bu istiqamətlərin hər biri əhəmiyyət daşısa da, nəqliyyat bağlantıları məsələsi artıq yalnız Azərbaycanın deyil, bütövlükdə, Avrasiya regionunun inkişaf gündəliyində xüsusi yer tutur. Çünki qlobal iqtisadiyyatın gələcək inkişafı logistika marşrutlarının effektivliyindən asılı olacaq.

Bu istiqamətdə Azərbaycanın geoiqtisadi çəkisinin artmasının səbəblərindən biri Orta Dəhlizin inkişafıdır. Çindən başlayaraq Avropaya uzanan bu marşrut artıq alternativ yol olmaqdan savayı qlobal ticarətin əsas istiqamətlərindən birinə çevrilir. Azərbaycan isə bu marşrutun mərkəzi halqasıdır. Təsadüfi deyil ki, Bakı yalnız öz infrastrukturunu yeniləməklə kifayətlənməyib, eyni zamanda, region ölkələri arasında koordinasiyanın gücləndirilməsində təşəbbüskar olub. Bunun bariz nümunələrindən biri Dünya Bankı Qrupuna daxil olan Beynəlxalq Yenidənqurma və İnkişaf Bankının Gürcüstanın nəqliyyat infrastrukturunun modernləşdirilməsinə maliyyə dəstəyi göstərməsidir.

Azərbaycanın logistika mərkəzi kimi mövqeyini yeni mərhələyə çıxara biləcək növbəti layihə Zəngəzur dəhlizidir. Əgər Orta Dəhliz Şərqdən Qərbə uzanan əsas magistraldırsa, Zəngəzur dəhlizi həmin magistralın strateji davamı və yeni qoludur. Bu dəhlizin açılması yalnız Azərbaycanla Naxçıvan arasında birbaşa əlaqəni təmin etməyəcək, eyni zamanda, Türkiyə, Mərkəzi Asiya və Avropa arasında daha qısa və səmərəli nəqliyyat marşrutu formalaşdıracaq.

Bu layihə Azərbaycanın regiondakı rolunu daha da gücləndirən amil kimi çıxış edir. Çünki formalaşan yeni logistika arxitekturasında marşrutlar müxtəlif istiqamətlərə şaxələnsə də, onların kəsişmə nöqtəsi və əsas koordinasiya mərkəzi funksiyasını Azərbaycan yerinə yetirir. Məhz bu baxımdan TRIPP layihəsi Azərbaycanın artıq formalaşmış nəqliyyat-logistika sistemini zəiflətmir, əksinə, onu daha da genişləndirərək Orta Dəhlizlə inteqrasiyanı gücləndirir, ölkəmiz yalnız iştirakçı deyil, əsas qovşaq və yönverici mərkəz kimi mövqeyini möhkəmləndirir. Çünki marşrutlar nə qədər şaxələnsə də, onların əsas qovşağı yenə də Azərbaycan olacaq. Ermənistan rəhbərliyi son dövrlər bu layihəyə münasibətdə daha praqmatik yanaşma nümayiş etdirir. İrəvan marşrutu fərqli adlarla təqdim etsə də, mahiyyət etibarilə regional kommunikasiyaların açılmasının iqtisadi faydalarını qəbul edir. Ermənistanın Baş naziri Nikol Paşinyan bir neçə dəfə çıxışlarında yeni kommunikasiya layihələrinin ölkəyə əlavə ticarət və tranzit imkanları qazandıracağını etiraf edib.

*

Türkiyə də layihənin ən fəal tərəfdarlarından biridir. Ankara Zəngəzur dəhlizini Türk dünyasının iqtisadi inteqrasiyasını sürətləndirəcək əsas vasitələrdən biri hesab edir. Türkiyənin siyasi dairələrində səslənən fikirlər göstərir ki, bu marşrut yalnız Azərbaycan və Türkiyə arasında əlaqələri gücləndirməyəcək, eyni zamanda, Ermənistanın regional iqtisadi layihələrə inteqrasiyasına şərait yaradacaq.

Mərkəzi Asiya ölkələri də bu layihənin reallaşmasında maraqlıdırlar. Azərbaycan Mərkəzi Asiyanın enerji və mineral ehtiyatlarla zəngin ölkələri üçün Qərbə çıxışın əsas təbii ixrac marşrutu rolunu oynayır. Xəzər dənizi vasitəsilə formalaşan bu bağlantı Azərbaycanı Şərq ilə Qərb arasında strateji nəqliyyat və logistika qovşağına çevirir. İqtisadi və nəqliyyat əlaqələrinin sürətli inkişafı bu regionun Azərbaycanın xarici iqtisadi siyasətində xüsusi yer tutduğunu göstərir. Enerji resursları və xammalla zəngin Mərkəzi Asiya ölkələrinin qlobal bazarlara çıxış ehtiyacı fonunda Azərbaycan etibarlı tranzit və inteqrasiya platformasıdır.

Bu proses yalnız yükdaşımalarla məhdudlaşmır, eyni zamanda, süni intellekt, data mərkəzləri və rəqəmsal bağlantılar kimi yeni iqtisadi sahələr üzrə regional əməkdaşlıq üçün geniş imkanlar yaradır. Deməli, Azərbaycan Şərqlə Qərb arasında təkcə logistika körpüsü deyil, həm də rəqəmsal və innovativ inteqrasiya mərkəzi kimi formalaşır.





**Politoloq Mübariz Göyüşlü** XQ-yə açıqlamasında bildirdi ki, Azərbaycanın həyata keçirdiyi siyasətin əsas mahiyyəti ölkənin Avrasiyanın nəqliyyat xəritəsində mərkəzi mövqeyə yüksəlməkdir: “Əgər əvvəllər Azərbaycanın əsas strateji üstünlüyü enerji resursları idisə, bu gün həmin üstünlüyə güclü nəqliyyat və logistika potensialı da əlavə olunub”. Onun sözlərinə görə, Orta Dəhlizin inkişafı, eləcə də Zəngəzur dəhlizi ilə bağlı perspektivlər Azərbaycanın geoiqtisadi çəkisini əhəmiyyətli dərəcədə gücləndirir. Politoloq əlavə etdi ki, “Azərbaycan Respublikasında logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi” çərçivəsində ölkə Şimal–Cənub dəhlizinin formalaşmasında da mühüm rol oynayır: “Hindistan, Pakistan, İran, Azərbaycan, Rusiya və Şimali Avropa ölkələrini birləşdirəcək bu marşrut Avrasiya məkanında yeni iqtisadi körpü funksiyasını yerinə yetirir”.

M.Göyüşov, həmçinin Ələt Beynəlxalq Dəniz Ticarət Limanı və onun nəzdində yaradılan Azad Ticarət Zonasının ölkənin logistika potensialında mühüm rol oynadığını qeyd etdi. Onun fikrincə, bu layihə Cənubi Qafqaz, Mərkəzi Asiya, İran, Rusiya və Türkiyəni əhatə edən geniş coğrafiyada ticarət və istehsal imkanlarını artırır, eyni zamanda, “Made in Azerbaijan” brendinin beynəlxalq bazarlarda mövqeyini möhkəmləndirir.

Politoloq sonda vurğuladı ki, bütün bu layihələr Azərbaycanın artıq təkcə tranzit ölkə deyil, Avrasiyanın əsas nəqliyyat qovşağına çevrildiyini göstərir: “Şimal–Cənub və Şərq–Qərb dəhlizlərinin kəsişməsində yerləşən Azərbaycan yüklərin, enerjinin və informasiya axınlarının təhlükəsiz və fasiləsiz hərəkətini təmin edən çoxşaxəli logistika mərkəzi kimi çıxış edir”.

Beləliklə, TBNM-dən Zəngəzur dəhlizinə, Şimal–Cənub marşrutundan Ələt Azad Ticarət Zonasına qədər bütün layihələr vahid strateji məqsədə – Azərbaycanın Avrasiyanın aparıcı logistika habına çevrilməsinə xidmət edir. Bu gün görünən reallıq ondan ibarətdir ki, Avrasiyanın yeni nəqliyyat arxitekturasında əsas marşrutlar Azərbaycandan keçir və ölkəmiz XXI əsrin formalaşan geoiqtisadi sisteminin mərkəzi aktorlarından birinə çevrilməkdədir.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Türkiyə, regional sülh naminə qarant və ...Azərbaycanın şərti

## *Yaxud Hakan Fidanın Moskva səfəri ilə bağlı bəzi qeydlər*



**Ankara-İrəvan münasibətləri ilə bağlı son zamanların siyasi diskursuna diqqət yetirsək, Türkiyənin xarici işlər nazirinin "Türkiyə" qəzetinə müsahibəsində dedikləri yenilik sayılmamalıdır. Hərçənd, bəzi məqamların nəzərə alınmasına ehtiyac var. İlk növbədə, onu vurğulamaq lazımdır ki, H.Fidanın dedikləri onun iyunun 16-17-də Rusiyaya səfərinin yekunlarının şərhidir. Səfər göstərdi ki, Ankaranın regionla bağlı prinsipial baxışında hansısa dəyişiklik yoxdur. Səfər, həmçinin bu baxışa uyğunlaşmaq zərurətini də ortaya qoydu.**

Onu da nəzərə alaq ki, Türkiyənin yanaşmasındakı sabit xətt Ermənistanda keçirilmiş parlament seçkilərindən sonra açıqlanır. O seçkilər ki, orada qazandığı qalibiyyət Baş nazir Nikol Paşinyan iqtidarının mühüm qərarların verilməsindəki legitimliyini gücləndirdi. O seçkilər ki, onu Rusiya, az qala, tanımamaq həddinə çatmışdı. Hesab edirik ki, H.Fidanın Moskvaya səfərindən sonra bu tendensiyada yumşalmalar qeydə alınacaq. Çünki səfər əsnasında Kremlin səsləndirdiyi mesajlarda Cənubi Qafqaz siyasi platforması, ümumən, region vahid orqanizm kimi vurğulanır. Bu vəziyyətin qarantı Ankaradır. Amma Türkiyənin şərti var və şərtin yerinə yetməsi Cənubi Qafqazın gələcəyinin real təminatıdır.

...Söhbət Azərbaycanın şərtindən gedir. O şərt ki, indiki məqamda onun dövriyyədə qalması Rusiya üçün sərfəlidir. Axı Kremlin öz oyun qaydaları var. Bu qaydalarda mühüm məqam Cənubi Qafqazın kənar qüvvələrin siyasi plasdarmına çevrilməsinə imkan verməməkdir. H.Fidanın Moskva səfərinin nəticələri Türkiyənin mövcud istiqamətdə də qarant olduğunu təsdiqləyir. Söhbət "3+3" regional məşvərət formatının ön plana çəkilməsindən gedir. Hazırda məhz bu platforma Rusiyanın regiondakı mövcudluğu baxımından ən etibarlı tutacaqdır. Hər halda, ölkənin başqa yolunun olmadığı da məlumdur...

Regionun inkişaf gündəliyi ötən il avqustun 8-də Vaşinqtonda Azərbaycan və Ermənistan liderlərinin ABŞ Prezidentinin şahidliyi ilə imzaladıqları Birgə Bəyannamə ilə müəyyənləşib. Yəni Bakı və İrəvan prosesə start verib. Məğzini sülhün təşkil etdiyi prosesə. Moskvanın isə Ermənistandakı parlament seçkiləri ilə bağlı tutduğu mövqe, daha doğrusu, oynadığı siyasi oyun antisülh motivli idi ki, bu, böyük ölçüdə avqustun 8-də müəyyənləşdirilmiş kursa zidd mahiyyət daşıdı. Amma Kremlin proqnozlaşdırdıqları həyata keçmədi.

Bununla belə, Rusiyanın regional düzəndə təmsilçilik ampluasının sıradan çıxdığını söyləmək olmaz. Həm də ona görə ki, Türkiyə onun mövcud düzəndəki təmsilçiliyinin tərəfdarıdır və H.Fidanın Moskvaya səfərinin məqsədinin məhz bu olduğu diqqətdən yayınmır. Çox güman, Ankara Kremli digər əlavə oyunlara əl atmamağa, vəziyyətlə barışmağa razı salıb. Əlbəttə, bu razılığın dividendləri də var. Bir şərtlə ki, Rusiya ənənəvi dominantlıq iddiasında olmasın.

Əslində, dominantlıq şanslarını itirmiş Rusiyaya rasional davranmaq daha sərfəlidir, nəinki Paşinyanın qələbəsini kiçildən məntiqə köklənmək. Başqa sözlə desək, Moskva region müstəvisində haqqında söz açdığımız tutacağı ilə kifayətlənməli, başqa tədbirlərdən daşınmalıdır. Çünki müvafiq potensial olmadan bu tədbirlər cılız siyasi oyun təsiri bağışlayır və Kremlin onsuz da bərbad günə düşmüş nüfuzunu bir qədər də zədələyir.

Ümumiləşdirmə aparsaq, deyə bilərik ki, hazırda regionun müəyyənləşdirilmiş axarı Ermənistandan asılıdır. Bunu dolayısıyla H.Fidan da vurğuladı. O bildirdi ki, Türkiyə hakimiyyəti zəruri şərtlər yarandığı təqdirdə, Ermənistanla münasibətlərin normallaşmasına hazırdır: "Nikol Paşinyan hökuməti (normallaşma məsələsində - red.) çox mühüm addımlar atıb. Prezidentimiz Rəcəb Tayyib Ərdoğanın iradəsi ilə birbaşa ticarətin və hava nəqliyyatı əlaqələrinin qurulması da daxil olmaqla, bir çox vacib addımlar atılıb. Yeni dövrdə daha nələrin edilməli olduğu da aydındır. Bunun üçün zəruri şərtlər yarandıqda biz normallaşmaya hazırıq".

İrəvan Bakının yekun sülh müqaviləsinin imzalanması üçün irəli sürdüyü şərti yerinə yetirməlidir. Söhbət Ermənistan konstitusiyasının ərazi iddiası məntiqindən xilasından gedir. Bunun üçün isə ölkədə referendum keçirilməli, hay əsas qanunu işğalçı mahiyyətli İstiqlaliyyət Bəyannaməsinə istinaddan qurtulmalıdır. Hesab edirik ki, H.Fidanın şərt məntiqi də bu məqamla bağlıdır.

Yeri gəlmişkən, Türkiyə XİN rəhbəri iyunun 8-də İstanbulda azərbaycanlı və gürcü həmkarı ilə görüşdən sonra da bildirmişdi ki, ölkəsi Ermənistanla dialoqu Azərbaycanla koordinasiya şəraitində davam etdirir və Bakı ilə İrəvan arasında sülh sazişinin gecikmədən imzalanmasını arzulayır. O, həmçinin Bakının legitim narahatlıqlarının nəzərə alınmasının vacibliyini vurğulamışdı.

Azərbaycanın narahatlığı həm də Türkiyənin narahatlığıdır. O anlamda ki, regional düzənin sabitliyi, sülhün davamlılığı və fundamental obraz qazanması üçün bütün ziddiyyətlər tarixin arxivinə göndərilməlidir. Ermənistan konstitusiyası ziddiyyət saçan sənəddir. Hay cəmiyyəti referendumla bu sənədin İstiqlaliyyət Bəyannaməsinə istinadla özünü göstərən qonşulara ərazi iddiası kazusunu kənara qoymalıdır. Kənara qoymalıdır ki, Ermənistan əməkdaşlıq yolunda inam və etimad qazansın.

N.Paşinyanın "Mülki müqavilə" partiyasının qələbəsinə baxmayaraq, Ermənistanda parlament seçkilərindən sonra formalaşmış siyasi ab-hava erməni iqtidarının referenduma getmək, ümumən, konstitusion islahatlar keçirmək imkanlarını məhdudlaşdırır. Rusiya istəyinə nail ola – Paşinyan iqtidarını seçki yolu ilə devirmək planını gerçəkləşdirə bilməsə də, ruspərəst müxalifətin parlamentdə əhəmiyyətli mandat sayı əldə etməsi erməni hakim komandasının böyük dəyişikliklər yolundakı leqal maneəsidir. Mövcud durumda Ermənistan cəbhəsində Qərbin və Rusiyanın üstünlüyü nisbidir. Deməli, tərəflərin ortaq məxrəcə gəlmələri, anlaşmaları mütləqdir. Bu anlaşmada onlardan heç birinin avantürist iddialarda olmamasına təminat lazımdır.

Ən böyük təminat erməni xalqının müstəqil iradəsidir ki, məhz bu iradə dünyaya bəyan edilməlidir. Bəyan edilməlidir ki, Cənubi Qafqazın qan-qadadan uzaq, əməkdaşlıq məkanı statusu formalaşsın. Heç bir siyasi məqsədləri hədəf seçməyən, sırf iqtisadi yüklü əməkdaşlıq məkanı statusu. Elə bir status ki, region xalqlarına rifah və əmin-amanlıq gətirsin.

Regionun rifaha və əmin-amanlığa əsaslanmış düzən bütövlükdə dünya üçün əhəmiyyətlidir. Yəni beynəlxalq birlik sülhün üzərində, bir növ, əsməlidir, bu, öz yerində. Amma Cənubi Qafqaz platformasında hansısa lokal siyasi məqsədlər gerçəkləşdirmək istəyənlərin tapılmayacağını düşünmək sadəlövhlük olardı. O cümlədən Rusiyanın gələcəkdə hərəkətə keçməyəcəyini, oyun qaydalarını pozmayacağını, sırf imperiya xislətindən irəli gələn davranışlara cəhd göstərməyəcəyini söyləmək yerinə düşmür. Lakin yuxarıda vurğuladığımız fundamentallıq düsturuna malik Azərbaycan–Ermənistan sülhü belə hallara imkan verməyəcək böyük immunitetdir. Deməli, immunitetin formalaşması prosesini təxirə salmaq olmaz. Və deməli, Rusiyanın Ermənistandakı əlaltılarına müvafiq göstəriş verməsi lazımdır. Göstəriş verməlidir ki, obrazlı desək, hərəkətdə olan sülh qatarının çarxına çomaq soxmağa cəhd göstərilməsin...

***Ə.RÜSTƏMOV***
***XQ***

# BMT-nin nüfuz böhranı

## *XXI əsrdə qlobal təhlükəsizlik sistemi niyə təsirsizdir?*

### II yazı

**BMT-nin fəaliyyətinə dair geniş yayılmış yanlış təsəvvürlərdən biri təşkilatın müstəqil şəkildə dövlətləri qərarlarını icra etməyə məcbur edə bilməməsi ilə bağlıdır. Əslində, BMT beynəlxalq hüququn əsas normativ platforması olsa da, onun səlahiyyətləri üzv ölkələrin ona verdiyi mandat və siyasi dəstəklə məhdudlaşır.**

Təşkilat beynəlxalq hüquq normalarının hazırlanması, humanitar yardımın koordinasiyası, münaqişələrin monitorinqi, vasitəçilik missiyalarının təşkili və sülh danışıqlarının dəstəklənməsi istiqamətində mühüm funksiyalar yerinə yetirir. Lakin bu fəaliyyətlər daha çox diplomatik və normativ xarakter daşıyır. BMT iqtisadi sanksiyaları və ya digər məhdudlaşdırıcı tədbirləri yalnız Təhlükəsizlik Şurasının qərarı əsasında tətbiq edə bilər. Daimi üzvlər arasında siyasi razılıq əldə edilmədikdə isə belə mexanizmlər ümumiyyətlə işə düşmür.

Bununla yanaşı, beynəlxalq hüququn icrası üçün ayrıca beynəlxalq icra hakimiyyəti mövcud deyil. Beynəlxalq Ədalət Məhkəməsinin qərarlarının icrası da müəyyən hallarda Təhlükəsizlik Şurasının dəstəyindən asılı olur. Eyni zamanda, Beynəlxalq Cinayət Məhkəməsinin qərarlarının həyata keçirilməsi də əsasən dövlətlərin əməkdaşlığına söykənir. Əgər dövlətlər əməkdaşlıqdan imtina edirsə, beynəlxalq institutların təsir imkanları xeyli dərəcədə azalır. Son illər beynəlxalq təşkilatın maliyyə asılılığı da ayrıca problem kimi qiymətləndirilir. BMT-nin humanitar proqramlarının əhəmiyyətli hissəsi könüllü ianələr hesabına maliyyələşdirilir. Donor dövlətlərin siyasi və iqtisadi prioritetlərində baş verən dəyişikliklər humanitar əməliyyatların miqyasına birbaşa təsir göstərir.

### Qlobal Cənubun narazılığı

Son onilliklərdə BMT-yə ünvanlanan tənqidlər yalnız təşkilatın effektivliyi ilə məhdudlaşmır. Getdikcə daha çox ölkə onun təmsilçilik və legitimlik baxımından müasir beynəlxalq münasibətlər sisteminə uyğun gəlmədiyini bildirir. Bu mövqe Azərbaycan tərəfindən də ardıcıl şəkildə müdafiə olunur. Prezident İlham Əliyev BMT Baş Assambleyasının 76-cı sessiyasında, həmçinin Qoşulmama Hərəkatına sədrlik dövründə çıxışlarında Təhlükəsizlik Şurasının islahatlara ehtiyacı olduğunu vurğulayaraq bildirmişdir ki, Şuranın tərkibi daha ədalətli, şəffaf və coğrafi baxımdan balanslaşdırılmış olmalıdır. Prezidentin fikrincə, inkişaf etməkdə olan ölkələrin, xüsusilə Qoşulmama Hərəkatının və Afrika qitəsinin qlobal qərarların qəbulunda



daha geniş təmsil olunması beynəlxalq idarəetmənin legitimliyini artıracaq. Oxşar mövqe İslam Əməkdaşlıq Təşkilatı (İƏT) tərəfindən də dəstəklənir. İƏT-in qəbul etdiyi bir sıra yekun bəyannamələrdə və sammit qərarlarında BMT Təhlükəsizlik Şurasının islahatlarının zəruriliyi vurğulanır, müsəlman dünyasının maraqlarının bu qurumda daha adekvat şəkildə təmsil edilməsinin vacibliyi qeyd edilir.

Hazırkı struktur İkinci Dünya müharibəsinin qalibləri arasında formalaşmış güc balansını əks etdirir. Həmin dövrdə beynəlxalq sistem ikiqütblü qarşıdurmanın başlanğıc mərhələsində idi, müstəmləkəçilik prosesi tam başa çatmamışdı və bu gün beynəlxalq siyasətdə mühüm rol oynayan onlarla dövlət o vaxt müstəqil deyildi. Buna baxmayaraq, Təhlükəsizlik Şurasının daimi üzvlərinin tərkibi son səksən il ərzində dəyişməyib.

Bu gün BMT üzvü olan 193 dövlətdən 54-ü Afrika qitəsini təmsil edir. Buna baxmayaraq, Afrikanın Təhlükəsizlik Şurasında nə daimi üzvü, nə də veto hüququ var. Təşkilatın arqumenti ondan ibarətdir ki, BMT sülhməramlı əməliyyatlarının əhəmiyyətli hissəsi Afrikada həyata keçirildiyi halda, qitə təhlükəsizlik məsələlərinin qəbulunda adekvat şəkildə təmsil olunmur.

Oxşar narazılıq Asiyanın aparıcı dövlətləri tərəfindən də ifadə olunur. Hindistan dünyanın ən böyük əhalisinə malik ölkəsidir, qlobal iqtisadiyyatın əsas aktorlarından biri hesab olunur və uzun illər BMT sülhməramlı əməliyyatlarına ən çox hərbi kontingent göndərən dövlətlər sırasında yer alıb. Buna baxmayaraq, o, Təhlükəsizlik Şurasının daimi üzvü deyil. Braziliya Latın Amerikasının ən böyük iqtisadiyyatı və regional liderlərindən biri, Almaniya və Yaponiya isə BMT büdcəsinin əsas maliyyə donorları olsalar da, onlar da qərarların qəbulunda daimi iştirak hüququndan məhrumdurlar.

Digər tərəfdən, islahatlarla bağlı vahid mövqenin olmaması prosesi daha da mürəkkəbləşdirir. Məsələn, İtaliya, Pakistan, Meksika, Argentina və Cənubi Koreya kimi dövlətlər yeni daimi üzvlərin əlavə edilməsinə skeptik yanaşır və bunun əvəzinə qeyri-daimi üzvlərin sayının artırılmasını təklif edirlər. Bu ziddiyyətlər səbəbindən Təhlükəsizlik Şurasının islahatı ilə bağlı müzakirələr artıq otuz ildən çoxdur davam etsə də, praktik nəticə əldə olunmayıb.

### BMT-nin, yoxsa beynəlxalq sistemin böhranı?

XXI əsrin ikinci onilliyindən etibarən beynəlxalq münasibətlər yeni mərhələyə daxil olub. Çin qlobal iqtisadi və hərbi güc kimi yüksəlir, Rusiya beynəlxalq təhlükəsizlik məsələlərində daha aktiv mövqe tutur, Hindistan, Türkiyə, Braziliya, Səudiyyə Ərəbistanı və digər regional güclər qlobal qərarların qəbulunda daha böyük rol tələb edirlər. Eyni zamanda, BRICS-in genişlənməsi, Şanxay Əməkdaşlıq Təşkilatının fəallaşması və müxtəlif regional inteqrasiya platformalarının güclənməsi beynəlxalq münasibətlər sisteminin getdikcə daha çoxqütblü xarakter aldığını göstərir.

Belə şəraitdə böyük dövlətlər arasında strateji rəqabət əməkdaşlıqdan üstün



mövqe tutur. ABŞ–Çin münasibətlərində texnoloji və iqtisadi qarşıdurma, NATO ilə Rusiya arasında təhlükəsizlik böhranı, Hind-Sakit okean regionunda artan geosiyasi gərginlik və Yaxın Şərqdə davam edən rəqabət qlobal konsensusun formalaşmasını daha da çətinləşdirir. Nəticədə BMT Təhlükəsizlik Şurası bir çox hallarda qlobal problemlərin həllini təmin edən platformadan daha çox, böyük dövlətlərin ziddiyyətlərinin əks olunduğu siyasi arenaya çevrilir. Bu reallıq beynəlxalq hüququn tətbiqinə də təsir göstərir. Hüquqi normalar universal xarakter daşısa da, onların icrası çox vaxt geosiyasi maraqların təsiri altında qalır. Oxşar hüquqi pozuntular müxtəlif regionlarda fərqli siyasi reaksiyalar doğurur ki, bu da beynəlxalq hüququn selektiv tətbiqi ilə bağlı müzakirələri gücləndirir. Beləliklə, problem təkcə BMT-nin institusional imkanlarında deyil, beynəlxalq sistemdə ortaq siyasi iradənin zəifləməsindədir.

Bu gün dünya əvvəlki kimi vahid siyasi mərkəz tərəfindən idarə olunmur. Əksinə, müxtəlif güc mərkəzlərinin paralel şəkildə fəaliyyət göstərdiyi, rəqabətin əməkdaşlıqdan daha çox ön plana çıxdığı mürəkkəb beynəlxalq mühit formalaşıb. Belə bir sistemdə hər hansı beynəlxalq təşkilatın, o cümlədən BMT-nin, böyük dövlətlərin iradəsindən kənar müstəqil qərarlar qəbul edərək onları icra etdirməsi praktik baxımdan mümkün görünmür. Məhz buna görə BMT-ni beynəlxalq sistemin böhranının səbəbi kimi deyil, daha çox həmin böhranın institusional təzahürü kimi qiymətləndirmək daha düzgün olar. Təşkilatın fəaliyyətində müşahidə olunan çətinliklər, əslində, qlobal siyasi münasibətlərdə mövcud parçalanmanın və etimad çatışmazlığının əksidir.

Bununla belə, BMT-nin mövcud problemləri təşkilatın əhəmiyyətini tamamilə aradan qaldırmır. Əksinə, müasir beynəlxalq münasibətlər göstərir ki, qlobal problemlərin – silahlı münaqişələrin, terrorizmin, iqlim dəyişikliklərinin, pandemiyaların, kütləvi miqrasiyanın və ərzaq təhlükəsizliyi kimi çağırışların – heç biri ayrı-ayrı dövlətlər tərəfindən təkbaşına həll edilə bilməz. Bu səbəbdən çoxtərəfli əməkdaşlıq mexanizmlərinə ehtiyac əvvəlkindən daha böyükdür.

Son olaraq qeyd edək ki, əməkdaşlığın effektiv olması üçün BMT-nin institusional və funksional transformasiyası qaçılmaz görünür. Təhlükəsizlik Şurasının təmsilçilik modelinin yenilənməsi, qərar qəbuletmə mexanizmlərinin daha çevik hala gətirilməsi, veto hüququnun tətbiqinə dair məhdudiyyətlərin müzakirəsi, erkən xəbərdarlıq və preventiv diplomatiya alətlərinin gücləndirilməsi, eləcə də beynəlxalq hüququn icra mexanizmlərinin təkmilləşdirilməsi gələcək islahatların əsas istiqamətləri kimi qiymətləndirilə bilər.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

*Bir millət – iki dövlət*

# Kahramanmaraşda “Azərbaycan” məhəlləsi – gücümüzə güc qatan qardaşlığın rəmzi

*1 il əvvəlin təntənəsi göstərdi ki, ölkələrimiz dar gündə olduğu kimi, şad gündə də bir yerdədir*





**2023-cü il fevralın 6-da Türkiyənin cənub-şərqində baş verən, “Əsrin fəlakəti” adlandırılan dəhşətli zəlzələ hamımızın xatirindədir. Azərbaycan dövləti və xalqı dar gündə qardaş ölkənin yanında oldu. Fəlakətin ilk günündən qardaş ölkəyə kömək üçün Prezident İlham Əliyevin tapşırığı ilə bütün imkanlar səfərbər edildi. Axtarış-xilasetmə işlərinə dövlət qurumları ilə yanaşı, qeyri-hökumət təşkilatları, eləcə də könüllülər yönəldildi.**

Paytaxt Bakı başda olmaqla, ölkənin bütün bölgələrində zəlzələdən zərər çəkənlərə göndərmək üçün zəruri əşya və avadanlıqların toplanması ümumxalq aksiyasına çevrildi. O günlər hər bir azərbaycanlının qəlbi Kahramanmaraşda, Hatayda, Diyarbəkirdə əzizlərini itirmiş, yaralanmış türkiyəli qardaş və bacıların yanına döyünürdü. Azərbaycandan təbii fəlakətin baş verdiyi zonaya mindən çox heyət, o cümlədən həkimlər göndərildi və onlar dərhal işə başladılar. Məhz bu heyətin səyi nəticəsində 53 insan dağıntılar altından sağ-salamat çıxarıldı, qurduğumuz iki səhra hospitalında 3200 insana həkimlərimiz tibbi yardım göstərdilər.

Qəfil baş vermiş təbii fəlakətdən əziyyət çəkən Türkiyəyə yardımımız bununla bitmədi. Dövlətimizin başçısının tapşırığına əsasən, Azərbaycanın qardaş ölkəyə uzunmüddətli dəstəyi üçün Kahramanmaraşda “Azərbaycan” məhəlləsinin inşasına start verildi. Bu, “bir millət, iki dövlət” fəlsəfəsinin dar gündə parlaq təcəssümü, can Azərbaycanın bağrından qopan qardaşlıq duyğularının ifadəsi idi. Qısa müddət ərzində aparılan inşaat işləri 2025-ci il iyununda başa çatdırıldı.

**ARAYIŞ:** *Tikinti işləri Azərbaycanın Mənzil İnşaatı Dövlət Agentliyi tərəfindən həyata keçirilib. Ərazisi 27,6 hektar olan məhəllədə 1194 mənzildən ibarət 68 yaşayış binası, Heydər Əliyev adına ibtidai məktəb, uşaq bağçası, mədəniyyət mərkəzi və digər sosial obyektlər inşa olunub. Həmçinin burada məskunlaşacaq ailələr üçün 1595 ticarət obyekti yaradılıb.*

2025-ci il iyunun 19-da Türkiyənin Kahramanmaraş şəhərində “Azərbaycan” məhəlləsinin açılış mərasimində iki lider, iki qardaş, iki səmini dost – Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan yanaşı durmuşdular.

Azərbaycan Prezidenti İlham Əliyev mərasim iştirakçıları tərəfindən coşqu ilə qarşılanan çıxışında iki liderin, iki xalqın, iki dövlətin dostluq və birliyinin əbədi sarsılmazlığından danışdı: “Azərbaycan hər zaman Türkiyənin yanında olub, Türkiyə də hər zaman Azərbaycanın yanında olub və bu gün “Azərbaycan” məhəlləsinin açılışında əziz qardaşımla birlikdə iştirakım bir daha bizim birliyimizin, dostluğumuzun təzahürüdür. Qarabağ məsələsində də biz əziz qardaşım, hörmətli Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğanla savaşın ilk günündən çiyin-çiyinə, bir yerdə idik. Savaşın ilk saatlarında Türkiyə Cümhurbaşqanının bizə göstərdiyi siyasi, mənəvi dəstək, Türkiyə xalqının bizimlə bərabər olması gücümüzə güc qatıb. “Azərbaycan” məhəlləsinin yaradılması da çox gözəl hadisədir. Bu gün Türkiyə–Azərbaycan qardaşlığı, birliyi nəinki bölgəmiz üçün, dünya miqyasında önəmli amildir, təhlükəsizlik, işbirliyi, inkişaf və qardaşlıq rəmzidir”.

***

Bəli, biz hilallı-ulduzlu bayrağı daim başımızdan uca tutan, istiqlalı üçün qurbanlar verən bir millətin, iki dövlətin övladları olduğumuzu o ağır günlərdə bütün dünyaya nümayiş etdirdik. Kahramanmaraşdakı “Azərbaycan” məhəlləsinin gələcək nəsillər tərəfindən Türkiyə ilə Azərbaycan arasında təmənnasız bağların, tale birliyinin bariz nümunələrindən biri kimi anılacağı şübhəsizdir.

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın açılış mərasimdəki çıxışı iki dövlət və xalq arasında qardaş köməyini, qədər birliyini və həmrəyliyini təcəssüm etdirirdi: “Bu çətin dövrdə ölkəmizin köməyinə ilk gələnlərdən biri Can Azərbaycandır. Fəlakət xəbərini alar-almaz “Səninləyəm, Türkiyəm!” deyərək qardaş köməyi başladan, avtomobilinin tavanına varını-yoxunu yığaraq millətimizə kömək etməyə çalışan”, duaları, dəstəkləri, səmimi göz yaşları ilə kədərimizi bölüşən Azərbaycan xalqının həmrəyliyini heç vaxt unuda bilmərik və unutmayacağıq. Xüsusilə, İlham qardaşımızın və hörmətli həyat yoldaşı Mehriban xanımın yardım səfərbərliyimizə verdiyi böyük töhfənin könlümüzdə daim ayrı bir yeri var. “Azərbaycan” məhəlləmiz bizim ən mötəbər layihələrimizdən biridir, qürur tablomuzdur. Zəlzələ nəticəsində dağılan bu məhəllə indi Azərbaycanın dəstəyi ilə yenidən canlanır. İlham qardaşımın da daim nəzarətdə saxladığı bu layihə burada məskunlaşacaq qardaşlarımıza etibarlı, firavan yuva, görənlərin həsəd aparacağı, özünə heyran qoyacağı bir əsər olacaq, İnşallah. Təkcə evləri ilə deyil, parkları, bağları, mədəniyyət mərkəzi, Heydər Əliyev adına orta məktəbi ilə bura Türkiyə yüzilliyinin qabaqcıl şəhərlərinə yaraşacaq bir yaşayış sahəsi olaraq dirçəldilir”.

3 il 4 ay bundan əvvəl qardaş Türkiyədə baş verən dəhşətli zəlzələ həm də birliyimiz və sədaqətimiz üçün bir sınaq oldu – desək, yəqin səhvə yol vermiş olmarıq. Təbii fəlakət ayaqlarımızın altındakı torpağı silkələsə də, dostluğumuzu, soydaşlığımızı sarsıda bilmədi. Əksinə, eyni soydan gələn bir millətin övladları, iki dövlətin vətəndaşları olaraq bu sınaqdan alnıaçıq, üzüağ çıxdıq. Həm də bütün dünyanın gözü qarşısında qarşılıqlığın, səmimiyyətin, sədaqətin sarsılmazlıq möhürünü vurmuş olduq. Kahramanmaraşdakı “Azərbaycan” məhəlləsində daş üstünə qoyulan hər daşda, vurulan hər mismarda Azərbaycan türkünün qürurlu alın təri, içdən gələn xeyir-duası var.

**TƏBİİ FƏKALƏTİN ACI STATİSTİKASI:** *2023-cü il fevralın 6-da mərkəzi Kahramanmaraş olmaqla Türkiyənin 11 əyalətində baş verən 7.7 və 7.6 bal gücündəki dağıdıcı zəlzələdə 53 min 537 nəfər həyatını itirib, 107 min 213 nəfər isə müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Onlardan 12 min 796-sı kahramanmaraşlıdır. Zəlzələ nəticəsində 38 min 901 bina dağılıb.*

Bu məqamda 5 il bundan öncə iki liderin, iki prezidentin Şuşa şəhərində imzaladıqları Şuşa Bəyannaməsini yada salmağımız tam yerinə düşər. Dost və qardaş “iki dövlət, bir millət”, arasındakı əlaqələri ən yüksək zirvəyə qaldıran həmin Bəyannamə belə heç vaxt çat verməyəcək münasibətləri rəsmən müttəfiqlik səviyyəsinə qaldırmış oldu. Bəli, biz dost, qardaş, eyni zamanda, müttəfiqik. Bunu isə qlobal çağırışlarla müşayiət olunan çağdaş dünyamızın pozulan düzəni tələb edirdi. Türkiyə və Azərbaycan bütün sahələrdə əl-ələ verərək, bütün çətinlikləri bərabər aşaraq, çiyin-çiyinə inamla və qətiyyətlə yalnız irəliyə doğru addımlayır. Bu gün belədir, sabah da belə olacaq.

Yazımızı bir il bundan əvvəl Kahramanmaraş şəhərində “Azərbaycan” məhəlləsinin açılış mərasimində Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın kahramanmaraşlı mərhum şair Abdülrahim Karakoçun Xocalı soyqırımından dərhal sonra qələmə aldığı duyğu dolu şeirindən misal gətirdiyi misralarla bitiririk:

***Bəxtinə ağlayan Azəri qızı,***
***Sən Qarabağ deyirsən, mən Qarayazı.***
***Boşluqda çırpınır Türkün avazı,***
***Sanma ki, dərdlərin azı bizdədir,***
***Sizdəki yaranın özü bizdədir.***

***XQ-nin Analitik Mərkəzi***

# Yaxın Şərq anlaşması və Cənubi Qafqaz

*“İslamabad memorandumu”nun regiona gözlənilən təsirinin 6 məqamı*

**ABŞ və İran arasında əldə olunduğu bildirilən və “İslamabad memorandumu” adlandırılan 14 bəndlik qarşılıqlı anlaşma sənədinin tam mətni yayılıb. CNN-nin tirajladığı bu mətnin etibarlılığına inanmaq olar. Hər halda, onu təkzib edən fikir yoxdur. Deməli, mövzu üzərində dayanıb müəyyən nəticələrə gəlmək mümkündür.**



Bəri başdan deyək ki, yazımız sözügedən memorandumun Cənubi Qafqaza mümkün təsirləri barədədir. Ümumən isə sənədin qlobal görüntüsünün olduğu qənaətindəyik. ABŞ və İran hərtərəfli anlaşmaya gəliblərsə, ölkələrin bütün istiqamətlərdəki münasibət rəvanlığına ümid bəsləməyə əsas var. Baxmayaraq ki, “İslamabad Memorandumu” hələ yekun saziş deyil və bu məqam sənədin özündə də vurğulanır.

Sənəddə, həmçinin yekun sazişin BMT Təhlükəsizlik Şurasının məcburi qüvvəyə malik qətnaməsi ilə təsdiqlənəcəyi əksini tapır ki, bu da son dərəcə vacib nüansdır. Görünür, Vaşinqton–Tehran anlaşma mühitinin fundamentallıq qazanması arzulanır. Halbuki, indiyədək belə niyyət qeydə alınmayıb. Tərəflər bir-birilərinə nifrət bəsləyəcək mövqe tutublar. Bütün bunlar öz yerində, keçək mətləbə.

**Birincisi,** ABŞ-İran anlaşmasının Azərbaycan üçün əhəmiyyəti bu ölkələrin Cənubi Qafqaz siyasi platformasında, loru dildə desək, bir-birilərinin ayaqlarını tapdalamamalarıdır. Söhbət regionumuzun böyük güclərin rəqabət meydanı olmaq riskindən uzaqlaşması perspektivindən gedir. Bəli, Vaşinqton və Tehran Cənubi Qafqaza fərqli baxışlarla yanaşıblar. Birinci, ümumən, Qərb son illər Ermənistanla əlaqələri genişləndirməyə və regionda Rusiyanın təsirini zəifləşdirməyə çalışıb. İkinci isə özünün təhlükəsizlik maraqları baxımından xarici hərbi təsirin artmamasını və nəqliyyat layihələrinin onun maraqlarına zidd formalaşmaması istəyini ön plana çəkib. Deməli, ABŞ və İran arasında anlaşma mühiti qərarlaşsa, tərəflər regionda bir-birilərinin fəaliyyətlərini neytrallaşdırmağa çalışmaq əvəzinə, daha ehtiyatlı davranmağa üstünlük verəcəklər. Əlbəttə, onların mövcud düzəndə əməkdaşlıq parametrlərinin dövriyyəyə girməsi də mümkündür.

Əməkdaşlıq üçün real əsas ötən il avqustun 8-də Vaşinqtonda Azərbaycan və Ermənistan liderlərinin imzaladıqları Birgə Bəyannamədir. O Bəyannamə ki, onun qayəsini regional sülh təşkil edir. Sülh üçün isə müştərək fəaliyyət lazımdır və bu məqam Bəyannamənin “Beynəlxalq Sülh və Rifah naminə Tramp yolu”, yaxud “Tramp marşrutu” və ya qısaca TRIPP müddəasında əksini tapıb. Ehtimal var ki, Vaşinqton-Tehran münasibətləri normallaşsa, Cənubi Qafqaz istiqamətindəki əməkdaşlıq da cəlbedici mahiyyət daşıyacaq.

**İkincisi,** bilavasitə Ermənistan üzərində dayanaq. ABŞ-la İran arasında yumşalma, ümumən, erməni amili üzərindən geosiyasi rəqabət intensivliyini minimallaşdıracaq. Nəzərə alaq ki, sözügedən rəqabətin azalması hazırda müşahidə edilməkdədir və durumun formalaşması Azərbaycanın adı ilə bağlıdır. Axı ölkəmizin 2020-ci ilin 44 günlük müharibədəki Zəfəri, eləcə də öz ərazi bütövlüyünü və suverenliyini tam bərpa etməsi regionda yeni reallıq formalaşdırıb. İranla ABŞ arasında rəqabət zəifləyirsə, deməli, bu reallığın mənfəətə köklənməsi asanlaşacaq.

Onu da ayrıca bildirək ki, Ermənistanın həm Qərb, həm də İran üçün strateji əhəmiyyəti bir sıra amillərlə xarakterizə edilir. İran Ermənistanı özünün şimala çıxış xəttinin vacib elementi sayır. ABŞ isə hazırda Ermənistanla siyasi və təhlükəsizlik sahəsindəki əlaqələri fəallaşdırıb. Vaşinqton–Tehran münasibətlərində yumşalma olarsa, İrəvanın özünün də böyük güclər arasında rəqabət obyektinə çevrilməsi tendensiyası zəifləyəcək. Vəziyyət Ermənistana həyata keçirməyə çalışdığı balanslı siyasəti üçün dividend qazandıracaq. Elə bir dividend ki, erməni amilini təhlükə kimi görmək meyillərini aradan qaldıracaq.

**Üçüncüsü,** ABŞ-İran anlaşması bilavasitə Azərbaycan–Ermənistan sülh prosesinə müsbət təsir göstərə bilər. Nəzərə alaq ki, Tehran dəfələrlə Bakı və İrəvan arasında barış sazişini dəstəklədiyini açıqlayıb. ABŞ da eyni mövqeni ifadə edib. Vaşinqton və Tehran arasında qarşıdurma azalarsa, iki mühüm xarici aktor eyni istiqamətdə hərəkət etmiş olacaq. Bu, kommunikasiyaların açılması ilə regional sabitliyin möhkəmləndirilməsi deməkdir.

**Dördüncü məqam.** Məlum olduğu kimi, TRIPP-in başlıca mahiyyəti Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında quru yolu əlaqəsinin təmin edilməsidir. İran uzun müddət “eksteritorial dəhliz” kimi təqdim olunan modelə etirazını bildirib. ABŞ isə kommunikasiyaların açılmasını ümumi planda dəstəkləyib. Ölkələr arasında anlaşma mühiti dərinləşsə, onların nəqliyyat layihələri üzrə daha praqmatik yanaşma ortaya qoymaları mümkündür. Bu, regiondakı tranzit marşrutlarının açılması və ən başlıcası, onların dayanıqlılığı üçün əlavə imkanlar yarada bilər. Durumun mənfəət perspektivini isə vurğuladıq. Nəzərə alaq ki, bu perspektiv region xalqlarının rifah içində yaşamaları deməkdir.

**Beşinci məqam.** Vaşinqton–Tehran anlaşması xüsusundakı mühüm cəhətlərdən biri də Türkiyənin regional rolunun genişlənməsi üçün daha əlverişli şəraitin yaranması ilə bağlıdır. Daha doğrusu, söhbət belə bir ehtimalın aktuallığından gedir. Hazırda Türkiyə həm Azərbaycanla strateji müttəfiqdir, həm də Ermənistanla normallaşma prosesini irəliyə aparır. İran və ABŞ arasında gərginliyin azalması Ankaranın mövcud istiqamətdəki təşəbbüslərini gücləndirməsi reallığı deməkdir. Bu halda Türkiyənin təşviq etdiyi regional əməkdaşlıq formatları, o cümlədən “3+3” regional məşvərət formatı daha rahat fəaliyyət göstərə bilər. O format ki, Türkiyənin xarici işlər naziri Hakan Fidanın iyunun 16-17-də Rusiyaya səfəri gedişində ciddi müzakirə predmetinə çevrildi və onun prioritetlik dərəcəsi açıq şəkildə diqqətə çatdırıldı.

Bəli, Bakı Ankara ilə birlikdə Cənubi Qafqazın sülh və əməkdaşlıq məkanı obrazında mühüm katalizator kimi çıxış edir. Bu, ölkəmizin strateji xəttindən qaynaqlanır. Azərbaycan Cənubi Qafqazı qlobal konfrontasiyalardan kənar, münaqişəsiz, dinclik və sabitlik məkanı kimi vurğulayır və bu zaman bütün maraqlı tərəflərin regionda bərabər, siyasi rəqabətə əsaslanmayan təmsilçiliyini əsas götürür.

**Altıncı məqam.** “İslamabad Memorandumu” və nəzərdə tutulan ABŞ–İran yekun sazişinin Cənubi Qafqaza təsirindən söz açarkən, Rusiya amilini də nəzərə almaq zərurəti yaranır. Qeyd edək ki, tərəflərin ortaq məxrəcə gəlmələrinin bu regionda yeni geosiyasi konfiqurasiya doğurması realdır. Ancaq İranın Qərblə münasibətlərini normallaşdırmağa başlaması, ABŞ-ın regionda İran amilini təhlükə deyil, dialoq tərəfdaşı kimi görməsi, ilk baxışdan, Rusiyanın yanaşması ilə tərs mütənasibdir. Hər halda, rus siyasi düşüncə sistemi ABŞ-İran gərginliyində maraqlı olmasa da, onların yaxınlaşmasının da tərəfdarı deyil. Bununla belə, hesab edirik ki, indi klassik təfəkkürdən uzaqlaşmanın, rasional düşüncə nümayişinin zamanıdır. Rusiya məhz ikincini işə salmağı bacarmalı, ilk növbədə, Cənubi Qafqazdakı yeni reallıqlar mühitində özünü tapmağı bacarmalıdır. Hər halda, Moskvanın TRIPP-dən mənfəət götürməsi perspektivi var. Əsas olan onun həmin perspektivdəki şərtlərlə razılaşması, əlavə iddialara düşməməsidir.

Sonda onu da bildirək ki, “İslamabad memorandumu”nun yaşadığımız coğrafiyaya təsirindən söz açarkən, ümumən, Cənubi Qafqaz üzrə hegemonluq səhifəsinin bağlanması üzərində də dayanmalıyıq. Bu məkan balans platformasına çevrilməlidir. Tarix göstərir ki, mövcud müstəvidə kimlərinsə təşəbbüsü ələ almaq istəkləri yekunda heç bir xeyir gətirməyib, əksinə, belə hallar Cənubi Qafqazın inkişafını ləngidib ki, nəticədə dünya da bölgənin potensialından faydalana bilməyib. Azərbaycanın 2020-ci ildən sonra irəli sürdüyü və Türkiyənin də aktiv şəkildə dəstəklədiyi kurs isə keçmişin acı təcrübəsini kənara qoymaq üzərindədir. Ümid edək ki, “İslamabad Memorandumu” xüsusunda ABŞ-İran anlaşması qarşılıqlı faydanı təbliğ edən sənəd kimi vurğuladığımız proseslərə yol açacaq, regionumuzla bağlı müsbət tendensiyalar üçün şərait və imkan yaradacaq.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Dəyişən dünya nizamı və ABŞ – İran razılaşması



**I MƏQALƏ**

**ABŞ-İran razılaşması**

İndi haqlı olaraq qlobal geosiyasətin gündəmində daha çox ABŞ-İran razılaşmasının konseptual təhlili ön sıraya çıxarılır. Bu məsələ iki ölkə münasibətlərinin siyasi-diplomatik münasibətlərinin hüdudlarından kənara çıxır və müasir siyasətin bir çox aspektlərinə təsir göstərir. Hətta bir sıra yanaşmalara görə, qlobal geosiyasətin yeni qüvvələr balansı üzrə nizamlanması istiqamətində həlledici rol oynaya bilər. Bu qənaət təsadüfi deyildir və heç bir halda Çin və Rusiya kimi böyük dövlətlərin geosiyasi statusunu arxa plana atmır.

İran məsələsi əsrlərdir davam edən və dünya siyasətinə spesifik təsir edən faktor kimi ciddi amil sayılır – burada dövlətin ənənəsi ilə real gücünün nisbəti əsas məqamdır. Yəni Almaniya, Fransa, Böyük Britaniya, Rusiya və Çin İrandan sosial-iqtisadi və ya hərbi aspektlərdə güclü ola bilərlər. Amma "İran dövlətçilik ənənəsindən" qaynaqlanan xüsusiyyətlər onu ABŞ, İsrail və Avropa üçün başqa məsələyə çevirmişdir.

Hələ XVII əsrdən Qərbin və Rusiyanın imperialist dairələrinin başlıca məqsədlərindən biri Osmanlı ilə yanaşı, Səfəvini də çökürtməkdən ibarət idi. Uzun tarixi savaşlardan sonra hər iki müsəlman imperiyasını dağıtdılar. Ancaq o imperiyaların şinelindən İran və Türkiyə kimi güclü dövlətlər çıxdı. Azərbaycanın taleyi fərqli oldu – bu, başqa mövzudur.

İranın da dövlət kimi taleyi XX əsrdə asan olmadı. Ancaq bu dövlət öz mövqeyi ilə seçildi. Burada din faktoru ilə yanaşı, dövlətçilik ənənəsi, Qərb və Rusiya ilə münasibətlərin xüsusi tarixçəsi ayrıca rol oynadı. Qısa desək, bütün bunlar və deyilməyən başqa məqamlar İran-Avropa, İran-Amerika və İran-Rusiya münasibətlərinə xüsusi dinamika və mürəkkəblik gətirdi. Onun fonunda İran Qərb üçün dövlət kimi dəyişməsi vacib olan hədəf halına gəldi.

ABŞ-İran münasibətlərinin ayrıca bir cəhətini İsrail faktoru təşkil edir. Bununla İran faktiki olaraq Amerika ilə münasibətlərini dini konteksti ciddi nəzərə almaqla İsrail, Avropa və Rusiya "üçbucağı"nda müəyyən etməli oldu. Burada ayrıca Yaxın Şərqin geosiyasi və siyasi-ideoloji özəlliklərini də nəzərə almaq lazımdır.

Vurğulanan şərtlər daxilində ABŞ-İran münasibətləri bir tərəfdən İsrail, digər tərəfdən isə Avropa və Rusiya ilə münasibətlər fonunda qarşıdurma müstəvisində yer aldı. Hazırda bu qarşıdurma çox kəskin mərhələdədir. Onun aradan qaldırılması bir neçə əsrdir ki, davam edən dağıdıcı geosiyasi trendin neytrallaşdırılması anlamına gələ bilər. Ona görə də dünya miqyasında ABŞ-İran razılaşmasına prinsipial geosiyasi dönüş məqamı kimi qiymət verənlər az deyildir.

Əlbəttə, həmin kontekstdə bu razılaşmanın həm regional, həm də qlobal miqyaslarda siyasi təsirləri maraqlıdır. Ona iki aspektdə yanaşmaq lazım gəlir.

Birincisi, əsrlərdir davam edən qarşıdurmanın cəmiyyətlərin şüuruna təsiri kontekstində şüurun militarizasiyası (hərbiləşdirilməsi) faktorunun sazişdən sonra aradan qaldırılması mümkünlüyü ilə bağlıdır.

İkincisi, regional və qlobal miqyasda özünü göstərən geosiyasi proseslər fonunda razılaşmanın qüvvələr balansına təsirinin müəyyən edilməsidir.

**Şüurun militarizasiyası**

"Militarizm" latınca "militaris"dəndir ki, mənası "hərbi" deməkdir. Müasir geosiyasi və siyasi təlimlərdə bu anlayış çox işlədilir və ona geniş funksional anlam verilir. Onların sırasında "şüurun militarizasiyası" (şüurun hərbiləşdirilməsi) xüsusi yer tutur. Qısaca ədəbiyyatda şüurun militarizasiyası ictimai şüura psixoloji, dəyər xarakterli və stereotip mahiyyətli məqamların yeridilməsini nəzərdə tutur. Onların hər biri daimi hərbi təhlükənin mövcudluğuna, hərbi gücün prioritetliyi və vətəndaş maraqlarının hərbi məqsədlərə çatılmasına tabe olmasına xidmət edir.

Deməli, ümumi halda şüurun militarizasiyası cəmiyyət üçün elə total psixoloji, sosial və ideoloji faktordur ki, hakimiyyət tərəfindən uzun müddət manipulyasiya (xüsusi məqsədlər üçün şüuru idarəetmə anlamında) olunur. Onun əlamətləri kimi, daim ölkəni mühasirəyə alınmış qala kimi, başqa ölkələri tam şər yuvası olaraq təqdim etmək (başqalarının "mütləq şər" obrazını yaratmaq) və güc tətbiqinə haqq qazandırmaq daha tez-tez özünü göstərir. Bu da insanların "bizimkilər həmişə haqlıdırlar" düşüncəsi donunda cəmiyyətdə təcavüzkarlıq və dözümsüzlüyü təkrar-təkrar körükləməyə meydan açır.

Terminoloji izaha dərindən baş vurmadan deyə bilərik ki, uzun müddət İran və Qərb cəmiyyətlərində məhz bu xətt üstünlük təşkil etmişdir. Hər iki tərəf insanların şüurunu rəqibin mütləq şər obrazını və bu prosesdə tam haqlı olduğu görüntüsü yaratmaq üstünlük təşkil etmişdir. Nəticədə, bu cəmiyyətlər bir-birini mütləq səviyyədə düşmən olaraq qəbul etmişlər.

Həmin xüsusiyyət İran və İsrail cəmiyyətlərində özünü daha çox göstərmişdir. Son müharibəni də İsrail "yəhudilərin ekzistensial varlığı" məsələsi kimi, İran isə "şeytanın tam məhv edilməsi müqəddəs işdir" tezisi fonunda aparmışlar. Buna görə də hər iki tərəf, üstəgəl ABŞ, Birləşmiş Ərəb Əmirlikləri, Səudiyyə Ərəbistanı və başqaları özlərini qalib elan etmişlər. Guya biri "şeytanı məhv etmiş", digəri isə kimlərinsə ekzistensial varlığına olan təhlükəni aradan qaldırmışdır.

Bu cür qarşıq və tam qondarma militarist siyasi, psixoloji və ideoloji təbliğat prosesi ABŞ-İran razılaşmasının həm statusu, həm də davamlılıq potensialı ilə proqnostik nəticələr çıxarmaq üçün baza rolunu oynayır. Öncə daha konkret sual qoymaq lazım gəlir. Yəni əldə olunan razılaşmanın cəmiyyətlərdə hökm sürən militarist şüuru, düşüncəni aradan qaldırmaq potensialına malikdirmi? Çünki əks halda, çox asan surətdə bir müddət sonra hansısa tərəf mövcud balansı pozacaq təxribat edə bilər və cəmiyyət də bunu qəhrəmanlıq nümunəsi kimi dəstəkləyər. Bu üsulun qalıcı sülhə aparmadığına kimsə şübhə etmir.

Aydındır ki, məsələnin bu cür qoyuluşunda razılaşma mətninin bəndlərinin formal fiksasiya rolunu oynadığı məqamı mövcuddur. Həmin fikrin fonunda yuxarıdakı suala cavab axtaraq.

**Çətinliklər**

ABŞ-də şüurun militarizasiyası mədəniyyət və media vasitəsilə geniş təbliğ olunur. Hollivud kinematoqrafı və videosənayesi (məsələn, Call of Duty) amerikan əsgərinin məğlubedilməz obrazını yaratmaqla məşğuldur. Təhsildə xüsusi proqramlarla ABŞ ordusuna loyallığı kiçik yaşlarından təbliğ edirlər. İdman, siyasət, hüquq-mühafizə orqanları və iqtisadiyyat da bu yanaşmaya tabedir.

Son zamanlar şüurun hərbiləşdirilməsinə yeni bir faktor daxil edilib. Bu, "Tramp sindromudur". Amerika prezidenti mütəmadi olaraq qaydasız döyüş səhnələrini seyr edir və bundan güc göstərişi düzəldir. Artıq hamı öyrəşmişdir ki, D.Tramp hər hansı ciddi hərbi zərbədən əvvəl və o baş verən zaman hansısa döyüş səhnəsini izləyib, ondan güc nümayişində istifadə edəcək.

İsrail və İranda da şüurun yüksək səviyyədə hərbiləşdirildiyi hər kəsə məlumdur. Biri din faktorundan istifadə edir, digəri qarşı tərəfin məhvedici antisivil obrazını təbliğ etmək əsasında, ümumiyyətlə, onu millətin varlığına təhlükə statusunda təqdim edir. Bu barədə geniş danışmağa ehtiyac görmürük.

Avropa və Rusiyada da bu problem ictimai şüurun əldənkirlərinə yeridilmişdir. Almaniyalı jurnalist Oliver Vaynlayn "Berliner Zeitung"da yazır ki, Avropada militarizasiya yeni zavodlarda mövcud deyildir – o, həm də insanların şüurlarında yer almışdır. Jurnalist metaforik (məcazi) qeyd edir ki, hərbi hazırlıq "səhər şoularında hava haqqında məlumat verilən kimi təqdim olunur". Avropalılar bunun fonunda diplomatiyaya "real olmayan folklor" kimi baxırlar. Nəticədə Avropa ictimai şüuru hərbi qarşıdurmanı "yeni norma" olaraq qəbul edir.

Rusiyalı senator Lyüdmila Narusova isə "Forbes"ə verdiyi müsahibədə rusiyalıların şüurunun militarizasiyası kontekstində "İosif Priqojin effektindən" bəhs etmişdir. İosif Priqojin "Vaqner"i yaradandır. Rusiya parlamentinin deputatı vurğulayır ki, "cəmiyyət hərbi taqım deyildir" və onu bu məntiqlə idarə etmək olmaz. Bu, cəmiyyətdə hətta adi sağlam düşüncəni məhv edir.

**Sazişin imkanları**

Əlbəttə, ABŞ-İran razılaşmasına aid olan sənəd əhəmiyyətlidir. Ən azından ona görə ki, uzun illər davam edən qarşıdurma fəlsəfəsindən konstruktiv əməkdaşlıq və pozitiv geosiyasi konfiqurasiya yaratmaq müstəvisinə keçid üçün şans yaranmışdır. Artıq bir çox ciddi geosiyasi məsələləri həll etməyin ilk siyasi-hüquqi bazası mövcuddur. Vaşinqton və Tehran İsrailin yeritdiyi xəttə baxmayaraq, bu prosesi inkişaf etdirsələr, bütövlükdə, geniş bir geosiyasi məkanda fərqli yenidən mə dinamikası, konfiqurasiya və qüvvələrin yeni balansı yarana bilər.

Burada realpolitika baxımından maraqlı və düşündürücü bir məqam vardır. Çünki uzun müddət sərt qarşıdurma şəraitində münasibətlərdə olmuş güclü tərəflərin qalıcı (yəni davamlı) konstruktiv əməkdaşlıq müstəvisinə praktiki keçidi hansı şərtlər daxilində baş verə bilər? İran ideologiyasından və dövlət kimi modelindən imtina edən deyildir. **Razılaşmada aşağıdakı bəndlərin olması da bu baxımdan heç nəyi dəyişmir. ABŞ da özünü "qəhrəman dövlət" sayır. Orada yazılmışdır:**

*"– İran və ABŞ, eləcə də davam edən müharibədəki müttəfiqləri bu anlaşma memorandumunun imzalanması ilə eyni vaxtda Livan da daxil olmaqla bütün cəbhələrdə hərbi əməliyyatların dərhal və daimi dayandırıldığını bəyan edir, bir-birinə qarşı heç bir düşmənçilik hərəkəti etməməyi, güc tətbiqi ilə hədələməməyi və ya istifadə etməməyi öhdələrinə götürürlər.*

*– İran və ABŞ bir-birinin suverenliyinə və ərazi bütövlüyünə hörmət etməyi, bir-birinin daxili işlərinə qarışmamağı öhdələrinə götürürlər.*

*– İran heç vaxt nüvə silahı hazırlamağa çalışmayacağını vurğulayır".*

Sənədin konkret bəndlərində məsələnin həlli açıq olduğunu ifadə edən şərtlər mövcuddur. Məsələn, orada "30 gün içində" və "60 gün müddətində" filan "addımlar atılmasa" kimi şərtlər yer almışdır. Bundan başqa, imzalanacaq sənədin BMT-də təsdiq olunması baş verməlidir.

**Razılaşma memorandumunda yazılmışdır:**

***"– Tərəflər razılaşmanın və gələcək öhdəliklərin icrasına nəzarət etmək üçün mexanizm yaratmaq barədə razılığa gəlirlər.***

***– Bu anlaşma memorandumunun imzalanmasından və fərdi müddəaların icrası üçün zəmanətlərin alınmasından sonra yekun razılaşma üzrə danışıqlar davam edəcək.***

***– Yekun razılaşma BMT Təhlükəsizlik Şurasının məcburi qətnaməsi ilə təsdiqlənməlidir".***

Son illərdə BMT-də imzalanan sənədlərə nə dərəcədə əməl edildiyini göstərən təcrübə toplanmışdır. Güclü tərəf lazım bildiyi halda BMT-nin təsdiq etdiyi sənədi arxivə ata bilir.

Deməli, sənədin məzmunu normal və praktiki əhəmiyyəti olandır. Lakin onun reallaşması mexanizmi dəqiq işlənməli və iki dövlət tərəfindən qəbul edilməlidir. Bəs bu aspektdə istiqamətverici təcrübə mövcuddurmu? Bu kontekstdə Türkiyənin xarici işlər naziri Hakan Fidanın Rusiya səfərindən sonra söylədiyi aşağıdakı fikirlər maraq yaradır:

"Region ölkələri olaraq aşağıdakıları qəbul etməliyik: rəqabət və dominantlığa can atmaq əvəzinə, əməkdaşlığa üstünlük verməliyik. Yaxın Şərqdəki son hadisələr kontekstində bu yanaşmanın təcrübən genişləndiyini görürük. Eyni baxış bucağı ilə iqtisadiyyatlarımızı gücləndirə və Cənubi Qafqazda və Mərkəzi Asiyada sabitliyi artıra bilərik. Dominantlığa can atmağı dayandırmalıyıq". Nazir xüsusi vurğulayıb ki, "3+3" formatı Qafqazda əməkdaşlığı asanlaşdıracaq.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Ermənistan Qərb ölkələri ilə birgə təlimlərə başladı

## *"Qartal tərəfdaşı 2026" hərbi hazırlıq, yoxsa siyasi mesajdır?*

**İyunun 17-dən Ermənistanda "Qartal tərəfdaşı 2026" hərbi təlimlərinə start verilib. ABŞ-ın Ermənistandakı səfirliyindən bildirilib ki, bu, artıq ənənəvi xarakter alan illik təlimdir və İrəvan–Vaşinqton uzunmüddətli müdafiə əməkdaşlığına, eləcə də beynəlxalq sülhməramlı missiyalara hazırlıq sahəsində birgə fəaliyyətə əsaslanır.**

Məlumata görə, iyunun 25-dək davam edəcək təlimlərin iştirakçı tərkibi genişləndirilib. Ermənistan silahlı qüvvələrinin sülhməramlı briqadası, ABŞ Ordusunun Avropa və Afrika komandanlığının quru qoşunları və Kanzas Milli Qvardiyasının hərbçiləri ilə yanaşı, Fransa və Yunanıstan silahlı qüvvələrinin nümayəndələri də təlimlərə qatılırlar. Səfirliyin açıqlamasında qeyd olunub ki, birgə çoxtərəfli təlimlər sayəsində "Eagle Partner 2026" iştirakçıların qarşılıqlı fəaliyyət qabiliyyətini artırır, qabaqcıl təcrübə mübadiləsinə şərait yaradır və sülhməramlı qüvvələrin hazırlıq səviyyəsini gücləndirir.

"Armenpress"in Ermənistan Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadən yaydığı məlumatda isə bildirilib ki, artıq ənənəvi xarakter almış bu hərbi təlimləri beynəlxalq sülhməramlı missiyalarda iştiraka hazırlıq çərçivəsində keçirilir. Nazirlik təlimlərə qatılan hərbi qulluqçuların say tərkibini də açıqlayıb. Məlum olub ki, təlimlərdə Ermənistan silahlı qüvvələrinin sülhməramlı briqadasının 250, ABŞ Ordusunun Avropa və Afrika komandanlığının quru qoşunları və Kanzas Milli Qvardiyasının 58, Fransa silahlı qüvvələrinin 24 və Yunanıstan silahlı qüvvələrinin 11 nəfər hərbi qulluqçusu iştirak edir.

Həmçinin bildirilib ki, təlimlər zamanı sülhməramlı tapşırıqların hazırlanması və icrası üzrə məşğələlər keçirilir. O da qeyd edilib ki, təlimin məqsədi beynəlxalq sülhməramlı əməliyyatlarda iştirak edən bölmələrin qarşılıqlı fəaliyyət qabiliyyətinin artırılması, idarəetmə və taktiki rabitə sahəsində qabaqcıl təcrübə mübadiləsinin həyata keçirilməsi, eləcə də Ermənistan silahlı qüvvələrinin sülhməramlı bölməsinin hazırlıq səviyyəsinin möhkəmləndirilməsidir. "Sülhməramlı missiyalara hazırlıq çərçivəsində beynəlxalq sülhməramlı əməliyyatlara cəlb olunmağa hazırlaşan bölmələr vaxtaşırı tərəfdaş ölkələrə keçirilən bu kimi birgə hərbi təlim və məşğələrə iştirak edirlər", – deyə Ermənistan MN bildirib.

Qeyd edək ki, budəfəki təlimlər sayca dördüncüdür. Ermənistan–ABŞ hərbi əməkdaşlığının yeni mərhələsi kimi qiymətləndirilən təlimlər ilk dəfə 2023-cü ilin sentyabrında keçirilib. O zaman Ermənistan hökuməti bildirmişdi ki, məqsəd BMT mandatı çərçivəsində həyata keçirilən sülhməramlı əməliyyatlara hazırlığı təkmilləşdirməkdir. ABŞ isə bunu Cənubi Qafqaz ölkəsi ilə hərbi əməkdaşlığı inkişaf etdirmək və Ermənistanın beynəlxalq təhlükəsizlik təşəbbüslərinə inteqrasiyasını gücləndirmək kimi təqdim etmişdi. Təlimlərdə əsasən kiçik bölmələr səviyyəsində taktiki tapşırıqlar, müdafiə və hücum əməliyyatlarının planlaşdırılması, fövqəladə hallarda təxliyyə və tibbi yardım prosedurları, həmçinin müasir rabitə sistemlərindən istifadə qaydaları öyrədilir. Ermənistan tərəfi bildirir ki, bu təlimlər üçüncü ölkələrə qarşı yönəlməyib və sırf sülhməramlı xarakter daşıyır.

*

Təlimlər ətrafında aparılan müzakirələr Cənubi Qafqazda təhlükəsizlik məsələlərinin həlli də diqqət mərkəzində qaldığını göstərir. Bununla yanaşı, son illərə müqayisədə regionun siyasi mənzərəsində ciddi dəyişikliklərin baş verdiyi də nəzərdən qaçmamalıdır. Əgər 2023-cü ildə keçirilən ilk təlimlər Azərbaycan–Ermənistan münasibətlərində gərginliyin davam etdiyi, tərəflər arasında tam etimadsızlıq mühitinin hökm sürdüyü bir dövrə təsadüf edirdisə, hazırkı vəziyyət xeyli fərqlidir. Bu gün regionda əsas gündəm mövzusu qarşıdurma deyil, sülhün möhkəmləndirilməsi və yeni əməkdaşlıq imkanlarının formalaşdırılmasıdır. Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşması istiqamətində əldə olunan nəticələr, sərhəd məsələləri üzrə aparılan danışıqlar və sülh prosesinin irəliləməsi əvvəlki dövrlərdə müşahidə olunan təhlükəsizlik narahatlıqlarının əhəmiyyətli hissəsini aradan qaldırıb. Məhz buna görə Ermənistanda keçirilən bu təlimlər Azərbaycanda əvvəlki illərdə olduğu kimi, ciddi narahatlıq və ya geniş müzakirələr doğurmur. Əlbəttə, hər hansı hərbi təlim region ölkələrinin diqqətində olur. Lakin təlimin mahiyyəti və iştirakçıların sayı nəzərə alındıqda onun daha çox sülhməramlı hazırlıq və hərbi peşəkarlığın artırılması məqsədi daşıdığı görünür.



Digər mühüm məqam son dövrlər Azərbaycan–ABŞ münasibətlərində müşahidə olunan müsbət dinamika ilə bağlıdır. Donald Trampın hakimiyyətə qayıdışından sonra Vaşinqtonun Bakı ilə münasibətlərində yeni səhifənin açıldığı müşahidə edilir. İki ölkə arasında siyasi dialoq intensivləşib, qarşılıqlı maraq doğuran məsələlər üzrə təmaslar artıb. Bu fonda ABŞ-ın Ermənistanla keçirdiyi hərbi təlimlər əvvəlki illərdə olduğu kimi geosiyasi rəqabətin elementi kimi qəbul edilmir. Əksinə, Vaşinqtonun regionun bütün əsas aktorları ilə işləməyə çalışdığı görünür.

Bununla belə, təlimlərin iştirakçı tərkibində Fransa və Yunanıstanın yer alması müəyyən suallar yaradır. Son illərdə hər iki ölkə Ermənistanla hərbi əlaqələri nəzərəçarpacaq dərəcədə genişləndirib. Xüsusilə Fransa müxtəlif səviyyələrdə Ermənistana siyasi və hərbi dəstək göstərən dövlət kimi çıxış edir. Parisin regionla bağlı bəzi mövqeləri isə Bakıda birmənalı qarşılanmır. Azərbaycan Fransanın Cənubi Qafqazda destruktiv rol oynadığını dəfələrlə bəyan edib. Rəsmi Bakı bildirib ki, Parisin İrəvana birtərəfli siyasi və hərbi dəstəyi regionda etimad mühitinin formalaşmasına xidmət etmir. Bu çərçivədə Fransa hərbçilərinin təlimlərdə iştirakı İrəvan–Paris müdafiə əməkdaşlığının praktiki davamı kimi qiymətləndirilir.

Yunanıstanda da son vaxtlar Ermənistanla müdafiə sahəsində əməkdaşlığı artıran ölkələr sırasındadır. Afina ilə İrəvan arasında imzalanan sənədlər, keçirilən görüşlər və müdafiə sahəsində qurulan əlaqələr bunun göstəricisidir. Hər iki ölkənin regiondakı proseslərə yanaşması bəzən yeni əməkdaşlıq mühitinin formalaşmasına deyil, köhnə qarşıdurma xəttinin saxlanmasına xidmət edən təsir bağışlayır. Məhz bu səbəbdən təlimlərin özündən daha çox Fransa və Yunanıstanın faktoruna diqqət yetirilir. Çünki Azərbaycan və Ermənistan arasında sülhün möhkəmlənməsinə ehtiyac duyulan bir vaxtda regiondan kənar bəzi oyunçuların birtərəfli siyasəti əlavə suallar yaradır. Cənubi Qafqazın gələcəyi hərbi bloklaşmalardan və geosiyasi rəqabətdən deyil, qarşılıqlı etimadın artırılmasından, kommunikasiyaların açılmasından və iqtisadi əməkdaşlığın genişlənməsindən keçir.

Hazırkı mərhələdə "Qartal tərəfdaşı 2026" təlimlərinə məhz bu kontekstdə baxmaq daha məqsədəuyğundur. Təlimlərin keçirilməsi regionda hərbi-siyasi vəziyyəti dəyişdirəcək hadisə kimi görünmür. Əsas məsələ Azərbaycan və Ermənistan arasında formalaşmaqda olan sülh mühitinin qorunmasıdır. Əgər bu proses davam edərsə, regionda keçirilən hərbi tədbirlər də əvvəlki illərdə olduğu kimi gərginlik mənbəyi deyil, adi beynəlxalq əməkdaşlıq fəaliyyəti kimi qəbul olunacaq. Bunun üçün isə həm region ölkələrinin, həm də regiondan kənar aktorların məsuliyyətli davranması və sülh gündəliyinə zidd addımlardan çəkinməsi vacib olaraq qalır.

***Səxavət HƏMİD***
***XQ***

# Azərbaycan İslam İnkişaf Bankı Qrupunda öncül mövqedədir




**Bugünlərdə Azərbaycan paytaxtı daha bir mühüm iqtisadi tədbirə ev sahibliyi edir. Məlum olduğu kimi, iyunun 16-dan etibarən Bakıda İslam İnkişaf Bankı (İİB) Qrupunun 51-ci illik toplantıları keçirilir. Hər şeydən əvvəl, qeyd etmək lazımdır ki, belə bir mötəbər toplantının təşkilinin ikinci dəfə məhz Azərbaycana həvalə olunması ölkəmizə olan inam və etimadın nəticəsidir.**

İyunun 18-də Bakıda İslam İnkişaf Bankı Qrupunun 2026-cı il üzrə illik toplantılarının açılış mərasimində çıxış edən Prezident İlham Əliyev Azərbaycanı illik toplantıya ev sahibliyi edən ölkə kimi seçilməsini ölkəmizlə üzv dövlətlər arasında güclü əlaqələrin göstəricisi kimi dəyərləndirib: “Bildiyiniz kimi, Azərbaycan ikinci dəfədir ki, illik toplantıya ev sahibliyi edir və bu, həmçinin sıx əlaqələrimizi, əməkdaşlıq səviyyəsini və birgə fəaliyyətin miqyasını aydın şəkildə göstərir. 2010-cu ili çox yaxşı xatırlayıram. O vaxt biz ilk dəfə toplantıya ev sahibliyi edən ölkə idik. Həmin illik toplantı Qrup ilə tərəfdaşlığımıza, eləcə də iqtisadiyyatı şaxələndirmək üçün Azərbaycanın həyata keçirdiyi islahatlara, enerji sektorundan asılılığı azaltmağa güclü təkan verdi. O vaxtdan etibarən Azərbaycanda və ətrafda çox dəyişikliklər baş verdi. Dəyişməyən yeganə məsələ Azərbaycanın sabit və uğurlu inkişafı oldu”.

Azərbaycanın Avrasiya ölkələrini birləşdirən, onlara lazımi enerjini təchiz edən irimiqyaslı enerji infrastrukturu layihələrini irəli sürən, maliyyələşdirən və icra edən qlobal sahənin mühüm iştirakçısına çevrildiyini diqqətə çatdıran dövlətimizin başçısı qeyd edib ki, ötən müddətdə müsbət sərmayə siyasəti müxtəlif sahələrə, o cümlədən enerji sahəsinə, Xəzər dənizini Qara dəniz və Aralıq dənizi ilə birləşdirən, Xəzərdə hasil olunan qazın Avropa bazarlarına çıxaran boru kəmərlərinin çəkilməsinə milyardlarla vəsaiti cəlb etməyə imkan yaradıb.

Açılış mərasimindəki çıxışında hazırda Azərbaycanın boru kəməri ilə qaz təchizatının coğrafiyası baxımından birinci yerdə olduğunu bir daha vurğulayan Prezident İlham Əliyev qeyd edib ki, bu gün 16 ölkəyə qaz nəql ediriksə, onların sayı ilbəil artır və artmaqda davam edəcək. Bununla yanaşı, neft təchizatının daha çox ölkələri əhatə etdiyin xatırladan dövlətimizin bunun hasilatçı, tranzit ölkələrə və istehlakçıların hamısına fayda gətirdiyini vurğulayıb.

Prezident ötən müddətdə Azərbaycanın açıq dənizə çıxışı olmayan ölkədən beynəlxalq nəqliyyat qovşağına çevrilməsi, güclü nəqliyyat infrastrukturunu qurmaq üçün bu coğrafiyadan bünövrə kimi istifadə edilməsi istiqamətində görülən işlərdən də bəhs edib. Qeyd olunub ki, bu gün Azərbaycandan keçən Şərq–Qərb və Şimal–Cənub dəhlizləri sayı artmaqda olan ölkələr üçün çox önəmli təchizat marşrutlarını təmin edir.

Dövlət başçısı Azərbaycandan keçən dəhlizlərin bir çox ölkələr üçün əlaqələndirilmiş və koordinasiya olunmuş nəqliyyat vətəri yaratdığını xatırladaraq deyib ki, dövlətimiz bu istiqamətdə daha çox işlərin görülmsəni hədəfləyir: “Mən yalnız gələcəyə dair bir neçə prioritet istiqaməti xüsusi vurğulamaq istəyirəm. Onlardan biri, qeyd etdiyim kimi, bağlantıdır. Biz Azərbaycanı daha da güclü nəqliyyat-logistika mərkəzinə çevirməyə davam etməliyik. Məqsədimiz Azərbaycan ərazisindən daşınan yüklərin həcmini iki dəfə artırmaqdır. Hazırda bu göstərici təxminən 14–15 milyon ton təşkil edir və biz bu rəqəmi ikiqat artırmağı hədəfləyirik. Əlbəttə, bunun hamısı yalnız bizdən asılı deyil. Bu, həm geosiyasi vəziyyətdən, həm də regiondakı ümumi şəraitdən asılı olacaq. Lakin bunlar bizim planlarımızdır”.

Ölkəmizin iqtisadi inkişafının müsbət və iqtisadiyyatımızın sabit olduğunu xatırladan dövlətimizin başçısı onu da bildirib ki, son 20 ildə dəyəri 350 milyard ABŞ dollarından çox olan birbaşa investisiyalar cəlb edilib ki, onların da yarısı xarici mənbələrin payına düşüb. Prezident İlham Əliyev çıxışında bu mühüm məqama toxunaraq deyib: “Bizim investisiya planlarımız davam edir, çünki bu gün investorlar sabit yerlərin axtarışındadır. Əfsuslar olsun ki, vaxt ötdükcə sabit yerlərin sayı artmır. Təəssüf ki, bu, günümüzün reallığıdır. Buna görə yaxşı investisiya mühiti, investisiyaların qorunması, qanunvericilik bazası və artıq həyata keçirilmiş layihələr bizə təkcə enerji sahəsinə yox, həm də qeyri-enerji sahəsinə investisiyaları cəlb etməyə imkan verir ki, bu da, yeri gəlmişkən, bizim prioritetlərimizdən biridir”.

Çıxışında ölkəmizin qeyri-neft və qaz sektorunun inkişafı, ümumi ixracda neft, qaz və qeyri-neft və qaz sektorunun balansının dəyişdirilməsi üçün islahatlar və investisiyalarla yanaşı, yeni bazarlara da böyük ehtiyacın duyulduğunu vurğulayan Prezident İlham Əliyev bazarlar uğrunda çox fəal mübarizə getdiyi indiki şəraitdə iqtisadiyyatın şaxələndirilməsinin davam etdiriləcəyini bildirib. Bununla yanaşı, dövlətimizin başçısı illik toplantılar çərçivəsində yeni infrastruktur layihələrinə təkan vermək məqsədilə imzalanacaq çoxsaylı müqavilələrin ölkəmizin qeyri-neft sektorunun dəyərinin artmasına gətirib çıxaracağına əminliyini ifadə edib.

Prezident İlham Əliyev Azərbaycanın ərzaq təhlükəsizliyi, kənd təsərrüfatının inkişafına dair bu yaxınlarda qəbul edilmiş dövlət proqramı çərçivəsində əsas istehlak məhsulları üzrə maksimum özünütəminetmə səviyyəsinə nail olmaqla bağlı qarşıda duran vəzifələrdən, eləcə də ölkəmizin zəngin bərpaolunan enerji potensialının hərəkətə gətirilməsi ilə bağlı planlarından da ətraflı bəhs edib.

Qeyd edək ki, İslam İnkişaf Bankı Qrupunun illik toplantıları üzv ölkələr arasında iqtisadi əməkdaşlığın genişləndirilməsi, investisiya imkanlarının təşviqi və dayanıqlı inkişafın təmin edilməsi üçün qlobal əhəmiyyətə malikdir. Təkcə onu qeyd etmək kifayətdir ki, bu mühüm iqtisadi platforma 4,7 milyard dollardan artıq müqavilə və sazişlərin imzalanmasına, eləcə də Azərbaycanın strateji iqtisadi layihələrinin beynəlxalq arenada dəstəklənməsinə zəmin yaradır.

Bütövlükdə, İslam İnkişaf Bankı Qrupunun Bakı toplantılarında yaşıl iqtisadiyyata keçid çərçivəsində bərpaolunan enerji layihələri, iqlim maliyyələşdirilməsi və regional enerji dəhlizləri əsas müzakirə mövzuları olub. Toplantılar çərçivəsində təşkil edilən xüsusi panellərdə də Azərbaycanın yaşıl keçid strategiyası, irimiqyaslı günəş və külək enerjisi layihələrinin genişləndirilməsi, eləcə də bu sahəyə xarici investorların və İslam maliyyə institutlarının cəlb edilməsi imkanları ilə bağlı geniş fikir mübadiləsi aparılıb.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

### *Ekspert rəyi*



**Ruslan ATAKİŞİYEV,**
**iqtisadçı-ekspert**

İslam İnkişaf Bankı Qrupunun illik toplantıları hər il üzv ölkələrin birində keçirilir. Bankın 57 üzvü var və əvvəlki illərdə bu toplantılar müxtəlif müsəlman ölkələrinin paytaxtlarında təşkil olunub.

İslam İnkişaf Bankı Qrupu təkcə bankdan ibarət deyil. Qrupun tərkibinə İslam İnkişaf Bankı ilə yanaşı, Özəl Sektorun İnkişafı üzrə İslam Korporasiyası, Beynəlxalq İslam Ticarət və Maliyyə Korporasiyası, eləcə də digər qurumlar daxildir. Bu il keçirilən toplantıya 57-yə yaxın ölkədən nümayəndələr və qonaqlar qatılıb.

İllik toplantıların əsas məqsədlərindən biri il ərzində razılaşdırılmış layihələrin yekunlaşdırılması, yeni sazişlərin imzalanması və növbəti dövr üzrə fəaliyyət istiqamətlərinin müəyyən edilməsidir. Tədbir çərçivəsində çoxsaylı panel müzakirələri və tematik sessiyalar keçirilir. Bu sessiyalarda halal iqtisadiyyat, İslam maliyyəsi, qlobal iqtisadi çağırışlar, rəqəmsallaşma, iqlim dəyişiklikləri və digər aktual məsələlər ətrafında fikir mübadiləsi aparılır.

Azərbaycanın İslam İnkişaf Bankı ilə əməkdaşlığı müxtəlif sahələri əhatə edir. Xüsusilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçirilən infrastruktur layihələrinin maliyyələşdirilməsi istiqamətində 400 milyon dollardan çox vəsaitin ayrılması nəzərdə tutulur. Bank uzun illərdir ki, ölkəmizdə infrastruktur layihələrinin maliyyələşdirilməsində fəal iştirak edir.

Bununla yanaşı, İslam maliyyəsi alətlərinin Azərbaycanda tətbiqinin genişləndirilməsi məqsədilə bir sıra yerli banklarla əməkdaşlıq həyata keçirilir. ABB, Turan Bank və ASB Bank da daxil olmaqla bir neçə maliyyə institutu İslam İnkişaf Bankı Qrupunun müxtəlif maliyyə alətlərindən yararlanıb. Ümumilkdə isə, indiyədək Azərbaycanda həyata keçirilən layihələrə ayrılan vəsaitlərin ümumi həcmi milyard dollarla ölçülür və bu əməkdaşlıq ölkəmizin iqtisadi inkişafına mühüm töhfə verir.

# Asiya İnfrastruktur İnvestisiya Bankı heyəti ölkəmizdə

**Azərbaycan Dəmir Yolları QSC-də Asiya İnfrastruktur İnvestisiya Bankının (AİİB) nümayəndə heyəti ilə görüş keçirilib. Görüşdə Azərbaycanın nəqliyyat infrastrukturunun inkişafı, regional bağlantının gücləndirilməsi və əməkdaşlığın inkişaf istiqamətləri müzakirə olunub.**



ADY sədri Rövşən Rüstəmov AİİB-in Azərbaycanda nəqliyyat infrastrukturu və regional bağlantı sahəsində fəal tərəfdaşlığının ölkənin tranzit potensialının gücləndirilməsinə mühüm töhfə verdiyini vurğulayıb və bunu yüksək qiymətləndirib.

Qeyd olunub ki, Azərbaycanın dayanıqlı şəhər mobilliyi və sərnişindaşıma xidmətlərinin inkişafı ADY-nin strategiyasının əsas komponentlərindən biridir. 2025-ci ildə ADY-nin rayonlararası və Abşeron dairəvi dəmir yolu marşrutları vasitəsilə 10 milyondan çox sərnişin daşınıb ki, bu da etibarlı və dayanıqlı ictimai nəqliyyata artan tələbatın göstəricisidir.

Görüşdə nəqliyyat infrastrukturunun inkişafı, regional bağlantının genişləndirilməsi və dayanıqlı logistika həllərinin təşviqi istiqamətində əməkdaşlığın davam etdirilməsinin vacibliyi vurğulanıb. ADY və AİİB arasında gələcək əməkdaşlıq istiqamətləri ətrafında geniş fikir mübadiləsi aparılıb.

***XQ***

*Prezident fərman verib*

# İxracda qeyri-neft-qaz sektorunun payı daha da artacaq

**Azərbaycan iqtisadiyyatının dayanıqlı inkişafının təmin edilməsi məqsədilə son illərdə qeyri-neft sektorunun genişləndirilməsi dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilib. İqtisadiyyatın şaxələndirilməsi, neft gəlirlərindən asılılığın azaldılması və yeni inkişaf mənbələrinin formalaşdırılması istiqamətində həyata keçirilən islahatlar qeyri-neft sektorunun inkişafına təkan verib.**



Son illərdə qəbul edilmiş dövlət proqramları, institusional islahatlar və sahibkarlığın təşviqi mexanizmləri qeyri-neft sahələrinin inkişafı üçün əlverişli şərait yaradıb. Vergi və gömrük sistemində aparılan təkmilləşdirmələr, investisiya mühitinin yaxşılaşdırılması və biznes fəaliyyətinin stimullaşdırılması özəl sektorun fəallığının artmasına müsbət təsir göstərib.

Qeyri-neft sektorunun əsas istiqamətlərindən biri kənd təsərrüfatıdır. Azərbaycanın əlverişli iqlim şəraiti və zəngin torpaq ehtiyatları aqrar sahənin inkişafı üçün geniş imkanlar yaradır. Dövlət tərəfindən fermerlərə göstərilən maliyyə dəstəyi, subsidiyalar və müasir texnologiyaların tətbiqi kənd təsərrüfatı məhsullarının istehsalının artmasına şərait yaradıb. Eyni zamanda, emal sənayesinin inkişafı kənd təsərrüfatı məhsullarının əlavə dəyərinin artırılmasına imkan verir.

Turizm sektoru da qeyri-neft iqtisadiyyatının mühüm sahələrindən biridir. Azərbaycanın zəngin tarixi-mədəni irsi, əlverişli coğrafi mövqeyi və müasir turizm infrastrukturu ölkəyə gələn turistlərin sayının artmasına səbəb olub. Turizm sahəsinin inkişafı xidmət sektorunun genişlənməsinə, yeni iş yerlərinin yaradılmasına və regionların sosial-iqtisadi inkişafına mühüm töhfə verir.

Nəqliyyat-logistika imkanlarının genişləndirilməsi də qeyri-neft sektorunun inkişafında mühüm rol oynayır. Azərbaycanın Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşməsi ölkəni regionun mühüm tranzit mərkəzlərindən birinə çevirib. Müasir liman, dəmir yolu və avtomobil infrastrukturu ölkənin tranzit potensialının daha da artırılmasına xidmət edir.

Sənaye parklarının və sənaye məhəllələrinin yaradılması, rəqəmsallaşma prosesinin sürətləndirilməsi, innovativ texnologiyaların tətbiqi və kiçik və orta sahibkarlığa göstərilən dəstək də qeyri-neft sektorunun inkişafına mühüm töhfə verir. Xüsusilə yüksək texnologiyalar, informasiya-kommunikasiya texnologiyaları və “yaşıl enerji” sahələri gələcək inkişafın perspektiv istiqamətləri hesab olunur.

Qeyri-neft məhsullarının ixracının təşviqi istiqamətində həyata keçirilən tədbirlər də xüsusi əhəmiyyət daşıyır. Yerli istehsalçıların xarici bazarlara çıxış imkanlarının genişləndirilməsi, ixrac missiyalarının təşkili, “Made in Azerbaijan” brendinin təşviqi və ixrac mexanizmlərinin təkmilləşdirilməsi ölkənin ixrac potensialının artırılmasına xidmət edir.

Bu ilin yanvar-may aylarında Azərbaycanın qeyri-neft-qaz sektoru üzrə ixracının dəyəri ötən ilin eyni dövrü ilə müqayisədə 3,65 dəfə artaraq 5,1 milyard ABŞ dolları təşkil edib. Bu barədə Dövlət Gömrük Komitəsi məlumat yayıb. Bildirilib ki, kəskin artım Azərbaycan Dövlət Neft Fonduna məxsus qeyri-monetar qızılın satışa çıxarılması ilə bağlıdır.

Qeyri-neft sektorunun inkişafı istiqamətində həyata keçirilən tədbirlər sırasında qeyri-neft məhsullarının ixracının dəstəklənməsi xüsusi yer tutur. Bu məqsədlə mühüm addımlar atılır, fərman və sərəncamlar imzalanır, dövlət proqramları qəbul edilir. Prezident İlham Əliyevin iyunun 16-da imzaladığı “Qeyri-neft-qaz malları üzrə ixracın dəstəklənməsi ilə bağlı əlavə tədbirlər haqqında” Fərmanı da məhz bu istiqamətdə atılan növbəti addımdır. Sənədə əsasən, Azərbaycanda istehsal olunan qeyri-neft-qaz məhsullarının ixracının təşviqi məqsədilə mikro, kiçik və orta sahibkarlıq subyektlərinə ixrac rəsmiləşdirilməsi xərcləri üzrə kompensasiya dəstəyi göstəriləcək. Dəstək ixracatçıların müraciəti əsasında hər rübün yekununda Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən ödəniləcək.



**İqtisadçı-ekspert Eldəniz Əmirov** bildirdi ki, Fərmana əsasən, Azərbaycan mənşəli qeyri-neft məhsullarını ixrac edən mikro, kiçik və orta sahibkarlar ixrac zamanı ödədikləri gömrük rəsmiləşdirilməsi yığımlarının bir hissəsini dövlət hesabına geri ala biləcəklər:

– Lakin fərman hələ konkret məhsulları, ölkələri və kompensasiya məbləğlərini müəyyən etmir. Bunun üçün müvafiq qurumlara 3 ay müddətində mühüm tapşırıqlar verilib. Yəni növbəti mərhələdə hansı qeyri-neft məhsullarının dəstək alacağı, hansı ölkələrə ixrac zamanı kompensasiya veriləcəyi, bir bəyannamə üzrə maksimum dəstək məbləğinin nə qədər olacağı, müraciət və ödəniş mexanizminin necə işləyəcəyi müəyyən ediləcək. Başqa sözlə, bu fərman ixracın dəstəklənməsi üçün yeni maliyyə mexanizminin hüquqi əsasını yaradır. Bu addım qeyri-neft ixracının artırılması, yerli xarici bazarlarda rəqabət qabiliyyətinin gücləndirilməsi və ixracatçıların xərclərinin azaldılması baxımından əhəmiyyətli qərar kimi qiymətləndirilə bilər. Düşünürəm ki, fərmandan irəli gələn mexanizm hazırlanarkən 5 məsələyə xüsusi diqqət yetirilməsi ümumi işin xeyrinə olardı.

Birincisi, dəstək bütün qeyri-neft məhsullarına avtomatik şəkildə tətbiq edilməməlidir. Məhsullar seçilərkən onların strateji əhəmiyyəti, daxili tələbatın ödənilməsindəki rolu və ixrac potensialı nəzərə alınmalıdır. Əgər hər hansı məhsulun daxili bazarda istifadəsi və ölkə iqtisadiyyatına və Azərbaycan istehlakçısına verdiyi fayda onun ixracından əldə olunan faydadan daha yüksəkdirsə, həmin məhsulun ixracı təşviq edilməməlidir. Dəstək əsasən ölkəyə əlavə gəlir gətirən və ixracı milli maraqlara uyğun olan məhsullara yönəldilməlidir.

İkincisi, ixrac ölkələri və ya ölkə qrupları müəyyən edilərkən daha uzunmüddətli perspektivdən yanaşmaq məqsədəuyğun olar. Hüquqi bazanın tez-tez dəyişdirilməsi praktik olmadığı üçün potensial ixrac bazaları mümkün qədər geniş nəzərə alınmalıdır. Nəticədə, dəstək yalnız faktiki ixrac həyata keçirildikdə veriləcəyindən, geniş yanaşma gələcək imkanların qarşısını almadan çevikliyi təmin edə bilər.

Üçüncüsü, dövlət vəsaitinin necə bölüşdürüləcəyi aydın və şəffaf meyarlarla müəyyən edilməlidir ki, sahibkarlar hansı şərtlərlə dəstək ala biləcəklərini əvvəlcədən bilsinlər.

Dördüncüsü, müraciət prosesi mümkün qədər sadə olmalıdır. Kiçik və orta sahibkarlar əlavə bürokratik maneələrlə qarşılaşmamalıdırlar.

Nəhayət, beşincisi, bu dəstəyin necə real nəticə verib-vermədiyini ölçmək üçün konkret göstəricilər müəyyən edilməli və proqram mütəmadi olaraq qiymətləndirilməlidir. Yəni dövlət vəsaiti ayrılırsa, bunun ixracın artmasına, yeni bazarların qazanılmasına və sahibkarların xərclərinin azalmasına nə dərəcədə təsir etdiyi də izlənilməlidir. Düşünürəm ki, bu məqamlar nəzərə alınarsa, yeni mexanizm həm sahibkarlar, həm də ölkənin qeyri-neft ixracının inkişafı baxımından daha faydalı ola bilər.

***Musa BAĞIRLI***
***XQ***

# Azərbaycan iqtisadiyyatında rəqəmsal keçidin hədəfləri

**XXI əsrin iqtisadi reallıqları göstərir ki, müasir dövrdə dövlətlərin və şirkətlərin inkişaf səviyyəsi rəqabət üstünlüyü ilə yanaşı, həm də təbii sərvətlər, maliyyə resursları, eləcə də ənənəvi istehsal amilləri ilə müəyyən edilir. Bu zaman rəqəmsal texnologiyaların tətbiq edilməsi, böyük məlumat bazalarının idarə olunması və süni intellekt imkanlarından səmərəli yararlanılması əsas məsələlər sırasında önə keçir. Belə bir şəraitdə Azərbaycanda da qlobal çağırışlar vaxtında dəyərləndirilərək iqtisadiyyatın rəqəmsal keçidinə dövlət siyasətinin də üstün istiqamətlərindən biri kimi yanaşılır.**

İqtisadiyyat naziri Mikayıl Cabbarovun bu günlərdə ölkə mediasına verdiyi müsahibədə səsləndirdiyi fikirlər də respublikada həyata keçirilən rəqəmsal inkişaf strategiyasının mahiyyəti və perspektivləri barədə aydın təsəvvür yaradır. Nazir rəqəmsallaşmanın təkcə iqtisadiyyatın ayrıca bir sahəsi deyil, eyni zamanda, bütün iqtisadi fəaliyyət növlərinin ayrılmaz tərkib hissəsi kimi diqqət çəkdiyini vurğulayaraq, rəqəmsal savadlılıq və rəqəmsal həllərdən istifadə bacarığının bu gün müəssisələrin, sahibkarların və bütövlükdə iqtisadi aktorların fəaliyyətinin fundamental elementi olduğunu qeyd edir.



Dünya iqtisadiyyatında son onilliklər ərzində baş verən dəyişikliklərə əsasən, rəqəmsallaşma artıq seçim deyil, zərurətdir. Enerji, nəqliyyat, sənaye, maliyyə, kənd təsərrüfatı və xidmət sektorlarında fəaliyyət göstərən aparıcı şirkətlərin uğurlarının əsas səbəblərindən biri də məhz rəqəmsal texnologiyaların və süni intellekt sahələrinin inkişafına geniş investisiya yatırılması ilə bağlıdır.

Bu gün dünyanın ən böyük korporasiyalarında istehsal proseslərinin uğurla həyata keçirilməsi, xərclərin azaldılması, müştəri xidmətlərinin təkmilləşdirilməsi və bazar tendensiyalarının proqnozlaşdırılması üçün süni intellekt həllərindən geniş istifadə edilir. Rəqəmsal texnologiyalar vasitəsilə müəssisələrdə daha az resurs sərf etməklə daha yüksək məhsuldarlıq əldə olunur.

Azərbaycan da bu qlobal transformasiyanın fəal iştirakçısı kimi çıxış edir. Bu baxımdan son illərdə ölkədə elektron hökumət xidmətlərinin genişləndirilməsi, biznes proseslərinin rəqəmsallaşdırılması, elektron ticarətin inkişafına önəm verilməsi və innovasiya ekosisteminin gücləndirilməsi istiqamətində atılan mühüm addımlar xüsusilə diqqət çəkir. Mövcud sahədə – rəqəmsal iqtisadiyyat quruculuğunda növbəti mühüm addımlardan biri olan və 2025-ci ilin dekabrında qəbul olunan Rəqəmsal İqtisadiyyatın İnkişafına Dəstək Proqramı böyük əhəmiyyət kəsb edir.

Bu proqram təkcə texnologiyaların tətbiqini deyil, bütövlükdə, iqtisadi modelin transformasiyasını hədəfləyir. Proqram çərçivəsində 2026-cı ildə müəyyənləşdirilən 15 müəssisə üçün rəqəmsal transformasiya yol xəritələrinin hazırlanması və tətbiqi nəzərdə tutulur. Bu təşəbbüsün gerçəkləşdirilməsi ilə rəqəmsal həllərin iqtisadi səmərəsinin diqqətə çatdırılması, başqa sözlə, praktik nümunələrlə nümayişi planlaşdırılır. Müəssisələrdə tətbiq ediləcək innovativ texnologiyalar vasitəsilə istehsal həcminin artırılması və gəlirlərin yüksəldilməsi, əməliyyat xərclərinin azaldılması gözlənilir.

## İqtisadiyyatın çağdaş dili – rəqəmsallaşma

Digər dövlətlərdə olduğu kimi, Azərbaycanda da süni intellekt texnologiyalarının tətbiqi ilə ölkəmizin iqtisadi-sosial inkişafında və qlobal rəqabət mühitində mühüm uğurlar əldə edilir. Buna isə mövcud sahədə sistemli yanaşmanın diqqətdə saxlanılması ilə nail olunur. Süni intellektin genişlənməsi ilə dövlət idarəçiliyi, təhsil, səhiyyə, müdafiə, təhlükəsizlik və digər sahələrdə sürətli inkişafa yol açılır, eyni zamanda, bununla bağlı müəyyən yaranacaq təhdidlərin qarşısı alınır.

Bu məsələdə "Azərbaycan Respublikasının 2025-2028-ci illər üçün süni intellekt Strategiyası" mühüm rol oynayır. Bu sənəd sözügedən sahədə yol xəritəsi olaraq, ilk növbədə, ölkədə süni intellekt üzrə mövcud vəziyyətin təhlilini diqqətdə saxlayır, daha sonra isə əldə edilən nəticələrə və qlobal trendlərə əsaslanaraq müəyyənləşdirilən prioritet istiqamətlər çərçivəsində strateji məqsədləri hədəfləyir.

Strategiyada süni intellekt ekosisteminin formalaşmasını və inkişafını gerçəkləşdirmək üçün dövlət- özəl sektor əməkdaşlığının möhkəmləndirilməsi, elmi tədqiqatların gücləndirilməsi, startap və innovasiya mühitinin dəstəklənməsi kimi məsələlərə xüsusi diqqət yetirilir. 2025–2028-ci illər ərzində həyata keçiriləcək tədbirlər çərçivəsində ilkin mərhələdə süni intellekt üzrə idarəetmənin təkmilləşdirilməsi, süni intellekt siyasətinin formalaşdırılması və bu sahədə məsul dövlət qurumlarının müəyyənləşdirilməsi nəzərdə tutulur.

Bu məqsədlə süni intellektdən etik dəyərlər çərçivəsində və məsuliyyətlə istifadəni reallaşdırmaq məqsədilə normativ hüquqi bazanın hazırlanacağı, insan hüquqlarının və məlumatların məxfiliyinin diqqətdə saxlanılacağı önə çəkilir. Eyni zamanda, süni intellektin səmərəli inkişafı məqsədilə yüksək səviyyəli hesablama infrastrukturunun qurulması və süni intellekt modellərinin sürətlə işləməsi üçün bulud əsaslı resursların artırılması, eləcə də süni intellekt sahəsində ixtisaslaşmış mütəxəssislərin hazırlanması planlaşdırılır.

Onu da qeyd edək ki, son illərdə uğurla həyata keçirilən mühüm layihələr sayəsində Böyük Britaniyada yerləşən və süni intellekt strategiyaları üzrə ixtisaslaşan beynəlxalq təhlil və məsləhət şirkətinin – "Oksford Düşüncə Mərkəzi"nin son hesabatına əsasən, Azərbaycan "Hökumətin süni intellektə hazırlıq indeksi" üzrə 2024-cü illə müqayisədə ötən il 42 pillə irəliləyərək 195 ölkə arasında 69-cu sırada yer alıb. Bu uğur "Azərbaycan Respublikasının 2025-2028-ci illər üçün süni intellekt Strategiyası"nda müəyyənləşdirilən tapşırıqların, eləcə də "Azərbaycan Respublikasında rəqəmsal iqtisadiyyatın inkişafına dair 2026–2029-cu illər üçün Strategiya"da nəzərdə tutulan data əsaslı məqsədlərin gerçəkləşdirilməsi, habelə rəqəmsal infrastrukturun gücləndirilməsi və sektorlar üzrə transformasiya hədəflərinə nail olunması nəticəsində əldə edilib.

Müasir rəqəmsal iqtisadiyyatın əsas komponentləri sırasında hazırda süni intellekt texnologiyaları mühüm yer alıb. Dünyada süni intellektin tətbiqi artıq istehsal, logistika, maliyyə, səhiyyə, təhsil sahələrinin və dövlət idarəçiliyinin ayrılmaz hissəsinə çevrilib. Azərbaycanda da bu istiqamətdə önəmli layihələrin həyata keçirilməsinə başlanılıb. Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə yaradılan Rəqəmsal İnkişaf Şurasının səmərəli fəaliyyəti ilə respublikada rəqəmsal transformasiya prosesi sürətləndirilib və strateji prioritetlər müəyyənləşdirilib.

Şuranın fəaliyyətində xüsusi yer tutan istiqamətlərdən biri də data mərkəzlərinin yaradılması və inkişafıdır. Məlumdur ki, süni intellekt sistemlərinin səmərəli fəaliyyəti böyük həcmdə məlumatların emalını tələb edir. Bu isə güclü hesablama imkanlarına malik data mərkəzlərinin mövcudluğunun zəruriliyindən xəbər verir.

İqtisadiyyat Nazirliyinin məlumatına əsasən, yaxın aylarda dünyanın aparıcı texnologiya şirkətləri ilə əməkdaşlıq çərçivəsində Azərbaycanda yeni data mərkəzlərinin yaradılması ilə bağlı mühüm layihələrin elan olunması gözlənilir. Bu layihələr ölkəmizin regionun rəqəmsal texnologiyalar mərkəzlərindən birinə çevrilməsi baxımından yüksək dəyərləndirilir.

## Superkompüter hansı imkanlar yaradır?

Rəqəmsal inkişafın vacib istiqamətlərindən biri də yüksək məhsuldarlıqlı hesablama sistemlərinin yaradılmasıdır. Bu gün İqtisadiyyat Nazirliyinin istifadəsindəki superkompüterin fəaliyyətinə olan yüksək tələbat respublikada süni intellekt və geniş məlumatların emalı ilə bağlı marağın sürətlə artdığını nümayiş etdirir.

Əlamətdar haldır ki, superkompüter resurslarına tələbat artıq mövcud texniki imkanları üstələyir. Bu isə bir tərəfdən iqtisadiyyatın müxtəlif sahələrində rəqəmsal transformasiyanın dərinləşdiyini, digər tərəfdən isə yeni investisiyaların zəruriliyini göstərir. Bu texnologiyalar, eyni zamanda, iqtisadi modelləşdirmə, vergi və gömrük təhlilləri, səhiyyədə diaqnostika, təhsil sistemində araşdırmalar, elmi tədqiqatlar və dövlət idarəçiliyində qərar qəbuletmə proseslərinin keyfiyyətini əhəmiyyətli dərəcədə artırır.

Rəqəmsal transformasiya texnoloji yanaşma olmaqla bərabər, həm də insan kapitalı məsələsidir. Ən müasir texnologiyaların tətbiqi üçün yüksək ixtisaslı kadr potensialı tələb olunur. Bu səbəbdən də universitetlərin, elmi-tədqiqat institutlarının və biznes sektorunun birgə əməkdaşlığı xüsusi əhəmiyyət kəsb edir. Süni intellekt mühəndislərinin, data analitiklərinin, proqram təminatı mütəxəssislərinin və kibertəhlükəsizlik ekspertlərinin hazırlanması ölkənin strateji prioritetləri sırasında yer alır.

Eyni zamanda beynəlxalq universitetlərlə əməkdaşlığın genişləndirilməsi Azərbaycan gənclərinin qabaqcıl bilik və texnologiyalara çıxış imkanlarını artırır. Bu əməkdaşlıq ölkədə innovasiya ekosisteminin formalaşmasına və yeni texnologiyaların daha sürətlə mənimsənilməsinə xidmət edir.

Rəqəmsal transformasiyanın mühüm nəticələrindən biri də iqtisadiyyatın şəffaflığının artırılmasıdır. Bu baxımdan son illərdə respublikada kölgə iqtisadiyyatının azaldılması istiqamətində həyata keçirilən layihələr öz müsbət nəticələri ilə xüsusi diqqət çəkir. Belə bir prosesdə rəqəmsal texnologiyalar əsas rol oynayır. Elektron vergi sistemi, elektron qaimə-fakturalar, elektron imza, rəqəmsal analitika və məlumat bazalarının inteqrasiyası vergi inzibatçılığının keyfiyyətinə əhəmiyyətli dərəcədə müsbət təsir göstərir.

Müasir elektron vasitələrin köməyi ilə pozuntuların erkən aşkarlanmasına, risklərin qiymətləndirilməsinə və qanunsuz fəaliyyətlərin qarşısının alınmasına nail olunur. Məlumatların qısa müddətli təhlili nəticəsində isə dövlət orqanlarında daha operativ və dəqiq qərarlar qəbul edilir. Bu istiqamətdə əldə olunan uğurlu nəticələrin ən obyektiv göstəricisi vergi və gömrük daxilolmalarında müşahidə olunur. Fiskal gəlirlərin yüksəlməsi ilə iqtisadi fəaliyyətin daha şəffaf müstəviyə keçidi təsdiqlənir.

***Vaqif BAYRAMOV***
***XQ***

### Ekspert rəyi



**Samir HEYDƏROV,**
**iqtisadçı-ekspert**

Kölgə iqtisadiyyatı ilə mübarizənin ən mühüm nəticələrindən biri də əmək münasibətlərinin leqallaşdırılması olub. Belə ki, 2019-2025-ci illərdə qeyri-neft-qaz və qeyri-dövlət sektorunda fiziki şəxslərin gəlir vergisindən azad edilməsi mexanizmi əmək bazarının şəffaflaşmasına ciddi töhfə verib. Bu siyasət nəticəsində 7 il ərzində, təxminən, yarım milyon yeni daimi əmək müqaviləsi rəsmiləşdirilib.

Bu göstərici bir neçə mühüm nəticəni ortaya qoyur. Bu, ilk növbədə, vətəndaşların sosial müdafiə hüquqlarının genişlənməsini göstərir. Rəsmi əmək müqavilələri sosial sığorta sisteminə qoşulmağı, gələcək pensiya və digər sosial təminatları gerçəkləşdirir. Digər tərəfdən, əmək bazarının şəffaflaşması dövlət büdcəsinə daxilolmaları artırır, sosial fondların maliyyə dayanıqlılığını gücləndirir və iqtisadi statistik məlumatların dəqiqliyini diqqətə çatdırır.

Azərbaycanın rəqəmsal transformasiya sahəsində əldə etdiyi uğurların ən mühüm nümunələri sırasında "ASAN xidmət", DOST mərkəzləri və "myGov" platforması xüsusi yer tutur. Bu sistemlər dövlət-vətəndaş münasibətlərinin tamamilə yeni müstəviyə çıxarılmasında özünü qabarıq büruzə verir. Minlərlə xidmətin elektron formada təqdim olunması həm vaxt itkisini minimuma endirir, həm də korrupsiya risklərinin əhəmiyyətli dərəcədə azalmasına təsir göstərir. Hazırda həmin rəqəmsal xidmətlər vətəndaş məmnunluğunu gerçəkləşdirməklə yanaşı, iqtisadi münasibətlərin şəffaflığını artırır, məlumat mübadiləsini sürətləndirir və "kölgə" əməliyyatlarının qarşısını almaqla mühüm idarəetmə vasitələri kimi diqqət çəkir.

# Xanabad – yenə olub abad

## Xocalının bu tarixi kəndində həyat yenidən canlanır

**Xocalı rayonunun Xanabad kəndinə gedirik. Xocalı şəhərindən şərqdə, Əsgəran qalasının yaxınlığında yerləşən, füsunkar təbiətə malik bu qədim yaşayış məntəqəsinə uzanan yollarla qürur və həyəcansız irəliləmək mümkün deyil. İndi bu yollar bizi həyatın yenidən qayıtdığı azad ata-baba yurdlarımıza aparır. Həsrətin və acıların bitdiyi daha bir ünvana bax, beləcə, bir vaxtlar əlçatmaz görünən ən böyük arzuların, xəyalların gerçəkləşdiyi reallığın bəxş etdiyi xoş hisslərlə yollanırıq.**



### Qədim yurd yeri

Adından da göründüyü kimi, "Xanabad" oykonimi XVIII əsr, xanlıqlar dövrü ilə əlaqələndirilir. Azərbaycanın Yevlax rayonunda da bu adda kənd, Şəki ərazisində yüksəklik, Özbəkistanın Əndican vilayətində isə şəhər mövcuddur. Ancaq 1990-cı ildə kənd ərazisində, Xanabad–Pirlər yolu üzərində aparılan tikinti işləri zamanı aşkarlanmış qəbir Xanabadda insan yaşayışının tarixinin çox qədim olduğunu sübut edib. Həmin vaxt Xankəndi Dövlət Muzeyinin əməkdaşları baxış keçirərkən qəbirdə insan cəsədindən əlavə xəncər, nizə ucları, şarabənzər saxsı küp, suda üzən quş təsvirli qab, əqiq daşından düzəldilmiş muncuqlu boyunbağı, habelə üstü naxışlarla bəzədilmiş qab aşkarlanıb və bu tapıntıların eramızdan əvvəl XII-XI əsrlərə aid olduğu müəyyən edilib.

Xanabad dəfələrlə erməni təcavüzkarlarının qanlı cinayətlərinin şahidi olub. Hətta ötən əsrin əvvəllərində kənd ərazisində erməni yaraqlıları ilə Azərbaycan Xalq Cümhuriyyətinin ordusu arasında toqquşmalar baş verib. 1992-ci ildən 2020-ci ilə kimi Ermənistan silahlı qüvvələrinin işğalı altında qalan Xanabad 44 günlük Vətən müharibəsinin nəticələrinə əsasən imzalanmış 10 noyabr 2020-ci il tarixli Üçtərəfli bəyanata uyğun olaraq Rusiya sülhməramlı qüvvələrinin nəzarətinə keçib. Rəşadətli ordumuzun 2023-cü ilin 19-20 sentyabr tarixlərində Qarabağda erməni separatçılarına qarşı lokal xarakterli antiterror əməliyyatlarından sonra azadlığına qovuşan kənddə bərpa-quruculuq işlərinə start verilib və həyat yenidən canlanmağa başlayıb.

### Doğma ocaqlarda yaşanan sevinc

Xanabadda ilk köç sevinci bu il fevralın 19-da yaşanıb. Həmin gün Böyük Qayıdış çərçivəsində 39 ailənin məcburi köçkünlük həyatı sona çatıb, 154 nəfərin Vətənə qovuşmaq arzusu reallığa çevrilib. Azərbaycan Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva köçdən cəmi bir neçə gün sonra, fevralın 25-də Xanabada səfər edərək görülmüş işlərlə tanış olublar, kəndə köçmüş Əmrah Sahiblinin evinə baş çəkiblər.

Qeyd edək ki, işğaldan əvvəl Xanabadda orta məktəb, mədəniyyət evi, kitabxana və tibb məntəqəsi fəaliyyət göstərib. Burada IX əsrə aid "Aslan qalası" və XIII əsrə aid kilsə kimi ölkə əhəmiyyətli memarlıq abidələri mövcuddur. Kənddəki ümumilikdə 276 evdən 161-i yaşayış üçün qismən yararlıdır. Onların böyük əksəriyyəti təmir olunub, qalan evlər isə ilin sonunadək istismara hazır olacaq.

İşğaldan azad olunmuş əksər yaşayış məntəqələrində olduğu kimi, Xanabadda da "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" çərçivəsində çoxsaylı sosial layihələr icra olunub. Belə ki, kəndin mövcud 3 transformator məntəqəsi, elektrik və qaz xətləri bərpa edilib. Eyni zamanda, yeni elektrik, qaz və optik xətlər çəkilib, subartezian quyularında və su anbarında təmir işləri aparılıb, 2 yeni su anbarının qurulması davam etdirilir. Kəndin davamlı su təminatı üçün Əsgəran qəsəbəsinin ərazisində nasos stansiyası inşa edilib, kənddaxili yollar bərpa olunub.

İndi kənd öz qonaqlarını girişindəki "Xanabad" kompozisiyası ilə qarşılayır. Sakinlərin rahat istirahəti üçün şəraitin yaradılması da diqqətə alınaraq Xanabad gölünün sahilində park salınıb, estakada inşa edilib və Dövlət Bayrağı ucaldılıb. Bir sözlə, yenidən əzəli sakinlərinə qovuşmuş Xanabadın hər küçəsində, hər evində yeniliyin təzahürlərinin şahidi olmaq, canlanmanı və inkişafı müşahidə etmək mümkündür.

### Zəfər himninin Qayıdış nəqəratı

...İllər sonra geriyə, doğma ata-baba yurdlarına qayıtmış insanların yaşadıqları sevinc və qürur üzlərindən oxunur. Xanabadda da hər kəs bəxtəvərliklə gülümsəyir, tanıdı-tanımadı, gələn qonağa mehribanlıqla "xoş gəldin" deyir, evinə dəvət edir. Sözsüz, onların qayğıları yox deyil. Ancaq Vətən həsrətinin bitməsi, Qarabağın təmiz havasını udmaq, saf suyundan içmək, təbiətin gözəlliklərinə göz dolusu baxa bilmək, ən əsası isə məcburi köçkün adının üzərlərindən götürülməsi bu torpaqların əzəli sahiblərinə bütün qayğılarını unutdurur. Qonağı olduğumuz, yeni Xanabadın ilk sakinlərindən Məmmədovlar ailəsinin timsalında bütün bunlara bir daha əmin olduq. Ailənin Bakıdan qonaqları vardı, ancaq ataların deyimi bu dəfə Xanabadda özünü doğrultmadı: qonaqlar da yeni qonağın gəlişinə sevindilər, elə ev sahibləri də...

Çayın sahilində, gözəl mənzərəli yerdə təmirli evlə təmin edilmiş ailənin başçısı Mətləb Məmmədov həyətdəki ağaclardan, gül-çiçəklərdən yaratdığı ecazkar guşədən başlayıb, hər günlərinin daha unudulmaz keçməsinə qədər hər şeydən həvəslə bəhs etdi. Bildirdi ki, 28 yaşı olanda doğma Qarabağdan didərgin düşüb. Uzun illər məcburi köçkün kimi Gəncə ətrafında məskunlaşıblar. Azərbaycanın hər qarışı onlar üçün əziz olsa da, illər boyu yalnız geriyə, doğulub-böyüdüyü torpaqlara qayıtmaq amalı ilə yaşayıblar:

– İndi burada necə yaşadığımızı soruşursunuz? Əla! Ən böyük arzumuz reallığa çevrilib. Ailəmlə, oğlumla, nəvələrimlə birlikdə Vətənimizə qovuşmuşuq. Dövlətimiz burada bizim üçün hər şərait yaradıb. Dördotaqlı ev verib, işığımız, qazımız, suyumuz, internetimiz çəkilib, istilik sistemi quraşdırılıb. Hər şey əladır. Ancaq bütün bunların heç biri olmasaydı belə, yenə özümüzü xoşbəxt sayardıq ki, yenidən Vətəndəyik! Mən xalqımıza bu qüruru, bu sevinci bəxş etdiyi üçün möhtərəm Prezidentimiz, müzəffər Ali Baş Komandanımız İlham Əliyevə təşəkkür etmək istəyirəm. Allah onu qorusun!



M.Məmmədovun həyat yoldaşı Aidə xanım ürək sözlərini oxucularımızla bölüşərək dedi ki, yaşadıqlarımız sanki şirin bir yuxudur:

– Bu, elə bir duyğudur ki, yaşamayan bilməz. İnanın, elə bil 34 il əvvələ, 24 yaşıma qayıtmışam. İndi Vətənsiz ötən illərimin əvəzini çıxmağa çalışıram. Dərədən axan çayın şırıltısı, quşların səsi, güllərin ətri, bir sözlə, gördüyümüz hər şey məni uşaqlığıma, gəncliyimə qaytarır. Hərdən itirdiklərimizi xatırlayıb kövrəlirəm, ancaq tez də düşünürəm ki, bu gün şəhidlərimizin, bu yerlərin həsrəti ilə dünyasını dəyişmiş əzizlərimizin ruhları şaddır. Allah onların hər birinə rəhmət eləsin! Allaha şükürlər olsun, bundan sonra övladlarımla birgə öz ev-eşiyimizdə rahat, firavan yaşayacağıq, məcburi köçkünlük bitdi!

Ailənin oğlu, hələ dünyadan bixəbər çağında, cəmi 2 yaşı olanda didərginlik həyatı başlamış Şəhriyar da 3 övladı ilə birlikdə doğma yurda dönməyin xoş təəssüratlarını paylaşdı. Özü də şairanə bir dillə:

– Xanabad gölündən mənbə götürən çayın səsi gecə-gündüz evimizdə eşidilir. Elə bil çay, sadəcə, çağlamır, Zəfər nəğməsi oxuyur. Nələr hiss etdiyimə gəlincə,

***Müqəddəsdir hər qayası, hər daşı,***
***Oyanıbdır duyğuların yaddaşı.***
***İllər boyu axıtdığım göz yaşın***
***Çəmənlə, çiçəklə silmək də varmış,***
***Qismətdə Vətəni görmək də varmış!***

Prezidentimizi Allah qorusun! Onun sayəsində xalqımız elə birlik nümayiş etdirdi ki, tarixdə olmayıb. Bu birliyimizin hesabına düşmən üzərində layiqli Qələbə qazandıq, Azərbaycan torpaqlarını işğaldan azad etdi.

Allah bütün keçmiş məcburi köçkünlərə bizim keçirdiyimiz bu hissləri yaşamağı qismət eləsin! Allah xalqımıza bir daha müharibə, acı günlər yaşatmasın!

... Xanabaddan xoş əhvali-ruhiyyə ilə ayrıldıq. Getdik, gəzdik, gördük, sakinlərlə söhbətdən sonra fəxrlə şahidi olduq ki, Xanabad da olub abad, yaşayacaq xoşbəxt, azad!

***Mahir RƏSULOĞLU,***
***XQ-nin Qarabağ müxbiri***

**Xocalı**

# Ombudsmanların Beynəlxalq Bakı Sammiti

## *Süni intellekt dövrünün çağırışları gündəmə gətirilib*









**“Süni intellekt dövründə insan hüquqları: İmkanlar, risklər və məsuliyyətlər” mövzusunda Ombudsmanların Beynəlxalq Bakı Sammitinin açılış mərasimi keçirilib.**

Əvvəlcə Azərbaycan Prezidenti İlham Əliyevin Ombudsmanların Beynəlxalq Bakı Sammiti iştirakçılarına ünvanladığı müraciət ədliyyə naziri Fərid Əhmədov tərəfindən səsləndirilib.

Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman)




Səbinə Əliyeva bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə qəbul olunan dövlət proqramları və strateji sənədlər ölkəmizdə süni intellekt texnologiyalarının təhlükəsiz, etik, şəffaf və insan hüquqlarına əsaslanan prinsiplər çərçivəsində tətbiqini təşviq edir. Həmçinin rəqəmsal iqtisadiyyatın inkişafına, dövlət xidmətlərinin səmərəliliyinin artırılmasına, rəqəmsal bərabərliyin və inklüzivliyin gücləndirilməsinə xidmət edir.

Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev müasir dövrdə rəqəmsal texnologiyalar və süni intellekt sistemlərinin sürətli inkişafının ictimai münasibətlərin mahiyyətinə əhəmiyyətli təsir göstərdiyinə diqqət çəkib.

Milli Məclis sədrinin müavini Musa Qasımlı Azərbaycanda insan hüquqlarının qorunması istiqamətində qanunvericilik bazasının davamlı olaraq təkmilləşdirildiyini vurğulayıb. O qeyd edib ki, Azərbaycanda ölüm cəzası ümummilli lider Heydər Əliyevin müraciəti ilə 1998-ci ildə Milli Məclisin qəbul etdiyi qanun əsasında tamamilə ləğv edilib..

İslam Əməkdaşlıq Təşkilatının Müstəqil Daimi İnsan Hüquqları Komissiyasının icraçı direktoru Hadi Bin Əli Əl-Yami bildirib ki, süni intellekt insan ünsiyyətini və həmrəyliyi gücləndirən bir vasitə olmalı, xalqlar və mədəniyyətlər arasında körpü rolunu oynamalıdır. O, cəmiyyətlərin təməlini təşkil edən insani münasibətləri əvəz etməməlidir.

Milli İnsan Hüquqları İnstitutlarının Qlobal Alyansının sədri Amina Buayaş Sammitin açılış mərasiminə göndərdiyi videomüraciətdə qeyd edib ki, bütün dünyada texnoloji innovasiyalar vətəndaşların informasiyaya çıxışını, öz hüquqlarından istifadə üsullarını, ictimai müzakirələrdə iştirakını, ünsiyyət formasını və gündəlik fəaliyyətini köklü şəkildə dəyişdirir.
















*

**Sammit çərçivəsində “Rəqəmsal məkanda hüquqların qorunması: Məlumatların mühafizəsi, məxfilik və dezinformasiyaya qarşı mübarizə” mövzulu sessiya keçirilib.**

Zambiyanın İnsan Hüquqları Komissiyasının sədri Pamela Tovela Sambonun moderatorluğu ilə keçirilən sessiyada rəqəmsal məkanda insan hüquqlarının qorunması, şəxsi məlumatların mühafizəsi, məxfilik hüququnun təmin edilməsi, dezinformasiyanın yaratdığı çağırışlar və bu sahədə ombudsman institutlarının rolu müzakirə olunub.

Sessiyada Rumıniyanın ombudsmanı Renate Veber, Serbiya Respublikasının Vətəndaşların Müdafiəçisi Zoran Paşaliç, BMT və insan hüquqları mexanizmləri üzrə ekspert Afərin Şahidzadə, Şimali Kipr Türk Respublikasının Ombudsmanı İlkan Varol və Ankara Medipol Universitetinin Kommunikasiya fakültəsinin dekanı Ergin Ergül çıxış edərək mövzu ilə bağlı fikirlərini bölüşüblər.

*

**Beynəlxalq tədbir çərçivəsində “Rəqəmsal savadlılıq və insan hüquqlarının qorunması” mövzulu sessiya da təşkil olunub.**

Sessiyada rəqəmsallaşmanın insan hüquqlarına təsiri, rəqəmsal mühitdə hüquq və azadlıqların müdafiəsi, bu sahədə beynəlxalq təcrübə və ombudsman təsisatların üzərinə düşən vəzifələr ətrafında fikir mübadiləsi aparılıb.

Sessiyada Türkmənistan ombudsmanı Yazdursun Qurbannazarova, Bosniya və Herseqovinanın ombudsmanı Nevenko Vranyeş, Özbəkistan Respublikası Ali Məclisinin insan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) müavini Bekzod Nərimanov, Tacikistan ombudsmanının müavini, uşaq hüquqları üzrə ombudsman Niqora Muqimi, Misirin İnsan Hüquqları üzrə Milli Şurasının üzvü Mahi Abdellatif çıxış edərək mövzu ilə bağlı fikirlərini bölüşüblər.

*

**Sammit çərçivəsində “Süni intellekt dövründə insan hüquqları: İmkanlar, risklər və məsuliyyətlər” mövzulu plenar sessiya keçirilib.**

Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyevanın moderatorluğu ilə keçirilən plenar sessiyada süni intellektin insan hüquqlarına təsiri, yaratdığı imkanlar və risklər, eləcə də bu sahədə dövlətlərin və beynəlxalq institutların məsuliyyəti müzakirə olunub.

**Pakistanın federal ombudsmanı Navid Kamran Baloş** bildirib ki, bu gün süni intellekt dövlət idarəçiliyindən təhsil, səhiyyə, ədliyyə, kommunal və digər ictimai xidmətlərə qədər bir çox sahədə qərarların qəbuluna, xidmətlərin göstərilməsinə və vətəndaşlarla dövlət arasında kommunikasiyaya mühüm təsir göstərir. Türkiyənin baş ombudsmanı Mehmet Akarca XXI əsrin texnologiya və bilik əsri kimi xarakterizə olunduğunu diqqətə çatdırıb. O vurğulayıb ki, dövrün ən sürətlə inkişaf edən və yayılan texnologiyalarından biri süni intellektdir. Bununla yanaşı, AI insan hüquqları baxımından bir sıra ciddi risk və təhdidlər də yaradır.

Milli Məclisin İnsan hüquqları komitəsinin sədri, deputat Zahid Oruc bildirib ki, süni intellektin insan hüquqlarına təsiri dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilib. Bosniya və Herseqovinanın ombudsmanı Yasminka Cumhur isə qeyd edib ki, süni intellektin tətbiqi nəticəsində iş yerlərinin itiriləcəyi ilə bağlı narahatlıqlar tez-tez səsləndirilir. Eyni zamanda, texnologiyanın həddindən artıq və düşünülməmiş tətbiqi sistemsiz yanaşmalara səbəb ola bilər.

*

**Sammit çərçivəsində “Süni intellektin əmək bazarına və məşğulluğa təsiri” mövzusunda sessiya təşkil olunub.**

Sessiyada Türkiyənin İnsan Hüquqları və Bərabərlik Qurumunun sədri Vasip Şahin, Macarıstanın Fundamental hüquqlar üzrə müvəkkili İmre Juhasz, Monteneqronun İnsan Hüquqları və Azadlıqlarının Müdafiəçisi (Ombudsman) Sinişa Bjekoviç, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzinin icraçı direktoru Fariz Cəfərov, eləcə də Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriyasının İdarə Heyəti sədrinin müavini Elçin Süleymanov çıxış ediblər.

Müzakirələr zamanı süni intellektin əmək bazarına təsiri, yeni məşğulluq imkanlarının yaranması, əmək münasibətlərində rəqəmsal transformasiya və işçi hüquqlarının qorunması məsələləri diqqət mərkəzində olub.

İştirakçılar vurğulayıblar ki, süni intellekt əmək təhlükəsizliyinin gücləndirilməsinə də töhfə verə bilər. Xüsusilə təhlükəli iş şəraitində risklərin vaxtında müəyyən olunması və qarşısının alınması üçün bu texnologiyaların tətbiqi mühüm əhəmiyyət daşıyır.

*

**Sammit çərçivəsində “Süni intellekt sistemlərində şəffaflıq, ədalət və bərabərlik” mövzusunda sessiya keçirilib.**

Müzakirələrdə Rusiya Federasiyasının insan hüquqları üzrə müvəkkili Yana Lantratova (videoformatda), AMEA-nın vitse-prezidenti, akademik Rasim Əliquliyev, Keniyanın İnzibati Ədliyyə Komissiyasının sədri Çarlez Dulo, Azərbaycanın Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Rəqəmsal İnkişaf və İnnovasiya şöbəsinin müdiri Rəşad Xalıqov və Ukrayna ombudsmanının müavini Mixailo Spasov iştirak ediblər.

Çıxışlarda vurğulanıb ki, süni intellekt texnologiyalarının sürətli inkişafı və avtomatlaşdırılmış qərarvermə sistemlərinin geniş tətbiqi həm yeni imkanlar, həm də ciddi çağırışlar yaradır. Qeyd olunub ki, süni intellekt dövlət idarəçiliyinin səmərəliliyinin artırılmasına, vətəndaşların əsas xidmətlərə çıxışının yaxşılaşdırılmasına və sosial-iqtisadi hüquqların inkişafına mühüm töhfə verə bilər.

*

**Ombudsmanların Beynəlxalq Bakı Sammitinin yekununda Süni intellekt və insan hüquqları üzrə Bakı Bəyannaməsi qəbul edilib.**

Bəyannamədə süni intellekt texnologiyalarının hazırlanması və tətbiqi zamanı insan hüquq və azadlıqlarının, eləcə də insan ləyaqətinin qorunmasının əsas prioritet olduğu vurğulanıb.

Sənəddə üzv dövlətlərə insan hüquqlarına əsaslanan, təhlükəsiz, şəffaf və hesabatlı süni intellekt idarəetmə mexanizmlərinin inkişafı, məlumatların qorunması, alqoritmik qərəzliliyin qarşısının alınması və səmərəli hüquqi nəzarətin təmin edilməsi tövsiyə olunur.

*

Sammit çərçivəsində Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva və Monteneqronun İnsan Hüquqları və Azadlıqlarının müdafiəçisi Sinişa Byekoviç arasında Anlaşma Memorandumu imzalanıb.

*XQ*

*Təqvim yada salır*

# Milli tarixçiliyimizi zənginləşdirən alim

**Onunla tanışlığımız və əməkdaşlığımız Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının Ekspert Şurasındakı birgə fəaliyyətimiz dövründən başlayıb. Tarix elminin müxtəlif istiqamətləri üzrə təqdim olunan dissertasiyaların müzakirəsi, təhlili, elmi yeniliklərin qiymətləndirilməsi və ekspertizası zamanı onun necə obyektiv və prinsipial elm adamı olduğunun dəfələrlə şahidi olmuşam.**



Təqdim olunan dissertasiya işlərinə dair rəyləri, müzakirələrin gedişindən irəli gələn çıxış və replikaları onun təkcə öz ixtisas sahəsi deyil, ümumilikdə, tarix elminin müxtəlif istiqamətləri üzrə geniş biliyə malik olduğundan xəbər verirdi. O, arxeoloji və etnoqrafik tədqiqatlardan tutmuş beynəlxalq münasibətlərə, regionşünaslıqdan mədəniyyət tarixinə qədər fərqli mövzularda aparılan müzakirələrdə zəngin biliyi və analitik yanaşması ilə seçilirdi. Elmi məsələlərə münasibətdə onun tələbkarlığı və gənc tədqiqatçılara qayğıkeş münasibəti xüsusilə diqqət çəkirdi.

Söhbət bu günlərdə ömrünün 60-cı ili tamam olan, Bakı Slavyan Universitetinin professoru, sosial elmlər və regionşünaslıq fakültəsinin dekanı Habil Məmmədovdan gedir.

Sonralar ölkəmizdə və xaricdə keçirilən müxtəlif elmi konfrans və simpoziumlarda, akademik tədbirlərdə iştirakı, məruzə və çıxışları onunla bağlı qənaətimi daha da möhkəmləndirdi. Professor Habil Məmmədovun keçdiyi həyat və elm yolu Azərbaycan ziyalısının ən yaxşı keyfiyyətlərini özündə birləşdirir. O, uzun illər ərzində sanballı elmi əsərlər yaratmış, həm də davamlı olaraq tarix, beynəlxalq münasibətlər, regionşünaslıq, politologiya və digər ixtisaslar üzrə kadr hazırlığı ilə məşğul olmuşdur. Yüzlərlə tələbənin, gənc tədqiqatçının formalaşmasına öz töhfəsini vermiş, Azərbaycan tarixşünaslığının, etnoqrafiyasının və slavyanşünaslığın inkişafında mühüm xidmətlər göstərmişdir. Onun haqqında yazarkən, ilk növbədə, elmə sədaqəti, peşəsinə bağlılığı və vətəndaş mövqeyi göz önünə gəlir.

Ali məktəbi bitirərək gələcək taleyini elmə bağlamaq həvəsi onda hələ BDU-nun tarix fakültəsində oxuyarkən yaranmışdı. Tarix fakültəsində onunla birlikdə təhsil alan tələbə yoldaşlarının əksəriyyəti gələcəkdə yüksək çinli partiya funksioneri olmaq barədə xülyalarla yaşayarkən Habil özünü məhz elm sahəsində sınamaq arzusunda idi. Bu seçim, hər şeydən öncə, sevimli müəllimi, tanınmış tarixçi alim, professor Tofiq Vəliyevə olan hüsn-rəğbətindən qaynaqlanırdı. Görünür, Tofiq müəllim də bunu sezmişdi. Odur ki, ona diplom işi üçün kifayət qədər ciddi və aktual mövzu vermişdi: "Türkmənçay sülhü və çarizmin ermənilərin köçürülməsi siyasəti". Maraqlıdır ki, çox-çox sonralar Prezident yanında AAK-ın sədri akademik A.Mirzəcanzadə Habil Məmmədovun şəxsi işi ilə tanış olarkən demişdi ki, ay oğul, sənin diplom işin elə namizədlik disserasiyasına bərabərdir.

Habil Məmmədov elmə ilkin olaraq etnoqraf kimi gəlib. 1991-1994-cü illərdə BDU-nun aspirantı olarkən elmi rəhbəri, görkəmli etnoqraf alim, professor Arif Mustafayevin tövsiyəsi əsasında Muğanın maddi mədəniyyətini araşdırıb. Etnoqraf kimi yaradıcılığının ilk böyük uğuru isə 1996-cı ildə müdafiə etdiyi "Muğanın maddi mədəniyyəti" mövzusunda namizədlik dissertasiyası olmuşdur. O zaman bu tədqiqat əsəri Azərbaycan etnoqrafiya elmi üçün mühüm hadisə idi.

Alimin 2001-ci ildə namizədlik dissertasiyası əsasında nəşr olunan "Muğanın maddi mədəniyyəti" monoqrafiyası bölgənin təsərrüfat həyatı, yaşayış məskənləri, xalq memarlığı, sənətkarlıq ənənələri, məişət mədəniyyəti və etnik xüsusiyyətlərinin öyrənilməsinə həsr olunmuş ilk fundamental araşdırmalardan biri hesab olunur. Bu əsəri ilə müəllif bölgədə mövcud olan maddi mədəniyyət nümunələrini yalnız təsvir etməklə kifayətlənməmiş, onların formalaşma prosesini, tarixi inkişaf dinamikasını və Azərbaycan xalqının ümumi etnomədəni sistemdə tutduğu yeri də müəyyənləşdirmişdir. Bu baxımdan monoqrafiya bu gün də etnoqrafiya və xüsusilə, Muğan tarixi-etnoqrafik regionunun araşdırılması istiqamətində mühüm elmi mənbə hesab olunur.

Professor Habil Məmmədovun elmi fəaliyyətinin ikinci mühüm istiqaməti Azərbaycanın Şərqi Avropa ölkələri ilə mədəni əlaqələrinin araşdırılmasıdır. 2013-cü ildə müdafiə etdiyi "Azərbaycan Respublikası ilə Şərqi Avropa ölkələri arasında mədəni əlaqələr (1991–2008-ci illər)" mövzusunda doktorluq dissertasiyası bu sahədə ilk sistemli və kompleks araşdırmalardan biridir.

Müəllifin doktorluq dissertasiyası əsasında hazırlanmış "Azərbaycan–Şərqi Avropa: mədəniyyətlərarası əməkdaşlığın tarixi" monoqrafiyasında Azərbaycanın Polşa, Ukrayna, Bolqarıstan, Rumıniya, Macarıstan, Çexiya və digər Şərqi Avropa ölkələri ilə əlaqələrinin müxtəlif istiqamətləri geniş şəkildə təhlil edilmişdir.

Professor Habil Məmmədovun Azərbaycan elmində mühüm xidmətlərindən biri slavyanşünaslıq istiqamətində yaratdığı elmi irsdir. Onun müəllifi olduğu "Bolqarıstan tarixi" (2009), "Ukraynanın müasir tarixi" (2009), "Polşanın müasir tarixi" (2017), "Slavyan ölkələri tarixi" (2020) kimi dərslik və dərs vəsaitləri Azərbaycan dilində bu sahədə hazırlanmış ilk fundamental tədris ədəbiyyatları sırasında öncül yer alır. Xüsusilə "Slavyan ölkələri tarixi" dərs vəsaiti Rusiya, Ukrayna, Belarus, Polşa, Çexiya, Slovakiya, Bolqarıstan, Serbiya və digər slavyan xalqlarının etnik, siyasi və mədəni inkişaf tarixini sistemli şəkildə təqdim edən ilk geniş həcmli nəşrdir.

O, 30 ildən artıqdır ki, Bakı Slavyan Universitetində çalışır. 2017–2024-cü illərdə beynəlxalq münasibətlər kafedrasına, 2024–2025-ci illərdə isə ictimai elmlər kafedrasına rəhbərlik etmişdir. Hazırda isə dekan vəzifəsində çalışır.

Professor H.Məmmədov 8 doktorant və dissertantın elmi rəhbəridir. Onlardan 1 nəfəri müdafiə etmiş, 5 nəfəri müdafiə mərhələsində, 2 nəfəri isə elmi işlərini tamamlayaraq müzakirə prosesindədir. Tarixçi alimin məqalələri Azərbaycanla yanaşı, Rusiya, Ukrayna, Polşa, Qazaxıstan, Bolqarıstan, Türkiyə və digər ölkələrin elmi nəşrlərində də dərc olunmuşdur. Onun əsərləri beynəlxalq elmi ictimaiyyət tərəfindən maraqla qarşılanır.

Bir sözlə, Habil Məmmədov müasir Azərbaycan elminin məhsuldar nümayəndələrindən biridir. Onun fəaliyyəti elmi araşdırma, pedaqoji xidmət, elmi təşkilatçılıq və beynəlxalq əməkdaşlıq kimi istiqamətləri özündə birləşdirir. Muğanın maddi mədəniyyətindən başlayaraq Şərqi Avropa ilə mədəni əlaqələrə, slavyan xalqlarının tarixindən geosiyasi proseslərə və slavyanların etnogenezində türklərin roluna qədər uzanan geniş tədqiqat spektri onun elmi-pedaqoji fəaliyyətinin miqyasını aydın şəkildə nümayiş etdirir.

Professor Habil Məmmədovu ömrünün 7-ci onilliyinə qədəm qoyması münasibətilə ürəkdən təbrik edir, ona möhkəm cansağlığı və Azərbaycan elminin inkişafı naminə daha böyük uğurlar arzulayıram.

***Qafar CƏBİYEV,***
***tarix elmləri doktoru,***
***professor,***
***Əməkdar jurnalist***

*Kitab rəfi*

## Multikultural dəyərlər haqqında araşdırma

**Azərbaycan Yazıçılar Birliyində "Zərif qadınlar" Ədəbi Məclisinin sədri Xatirə Fərəclinin Azərbaycan və ingilis dillərində nəşr olunan "Multikulturalizm: nəzəriyyə, beynəlxalq təcrübə, Azərbaycan modeli" kitabı işıq üzü görüb.**




Mədəniyyət Nazirliyinin maliyyə dəstəyi ilə çap edilmiş kitabda multikulturalizmin nəzəri əsasları, müxtəlif ölkələrin bu sahədəki təcrübələri, eləcə də Azərbaycanın dünyaya nümunə göstərilən multikultural dəyərlər sistemi geniş təhlil olunur. Müəllifin uzunmüddətli araşdırmalarının nəticəsi olan bu nəşrdə ölkəmiz tarixən müxtəlif xalqların, dinlərin və mədəniyyətlərin dinc və qarşılıqlı hörmət şəraitində birgə yaşadığı məkan kimi təqdim edilir, bu zəngin irs elmi əsaslarla araşdırılır. Araşdırma nəşri geniş oxucu auditoriyası üçün faydalı vəsaitdir.

## "İlahi pıçıltılar"




**Bu adda yenicə çapdan çıxmış kitab tanınmış şair Avdı Qoşqarın oxucularla 10-cu görüşüdür. Şeirlərindəki dərin ictimai-fəlsəfi məna müəllifin həyata, sənətə baxışından su içir.**

İnsan və zaman, vətənpərvərlik duyğuları, sevgi motivləri Avdı Qoşqarın daha çox üz tutduğu mövzulardır. Onun qələmə aldığı bədii nümunələrdə duyğu və düşüncə təbəddülatları özünün gözəl poetik ifadəsini tapıb.

*Getmək istədiyim yurd var, şəhər var,*
*Sinəmi göynədən dərd var, qəhər var,*
*Minmək istədiyim at var, yəhər var –*
*Təbrizdə, Dərbənddə, Qarayazıda...*

Şair öz istedadı sayəsində görünməzliklər içində "görünəni" canlandıra, oxucunu fəlsəfi düşüncələrə dalmağa vadar edə bilir. Onun şeirlərində bu məqamlar hər an diridir, durudur, yaddaqalandır.

## "Dirçələn xarıbülbül"

**Gənc şair-publisist Sevindik Nəsiboğlunun Birinci Qarabağ müharibəsində, atəşkəs dövründə və 44 günlük Vətən müharibəsində canlarını fəda etmiş şəhidlərimizə həsr etdiyi 708 səhifədən ibarət kitabı belə adlanır.**

Müəllif sayca 9-cu kitabının hər səhifəsində şəhidlərimizin həyat yolunu, qəhrəmanlığını və Vətən sevgisini oxuculara çatdırmağa çalışıb. Publisistik esse və şeirlərdən ibarət yeni kitabı Vətən müharibəsi şəhidlərinin həyat yolu və döyüş xronikasını ehtiva edir. Vətən uğrunda canını fəda etmiş qəhrəman oğulların taleyini əbədiləşdirən yazılar canlılığı və dil şirinliyi ilə diqqəti cəlb edir.

Kitabda, ümumilikdə, 48 şəhidimiz haqqında məqalə və şeir, 200 Vətən qurbanı barədə müəllifin vaxtilə hazırladığı Vikipediya səhifələri, şəhidlərə həsr olunmuş kitablardan bəhs edən məqalələr, onların doğum və anım günlərinə həsr olunmuş 20-dən çox məqalə yer alıb.




***Ə.ƏLİYEV***
***XQ***

*Yeni nəşrlər*

# Demokratik mətbuat tariximizə töhfə

**Jurnalist Bəkir Nərimanoğlunun ötən əsrin sonlarında dövlət müstəqilliyimiz uğrunda xalq hərəkatının və I Qarabağ müharibəsinin başlandığı dövrə aid olan mətbu orqanlar haqqında "Azərbaycan mətbuatı müstəqillik yollarında (1988–1991)" adlı kitabı işıq üzü görüb.**

Yeni topluda həmin illərdə buraxılmağa başlamış "Azərbaycan", "Qarabağ", "Aydınlıq", "Səs", "Azadlıq", "Səhər", "Həyat", "Ayna", "Vətən səsi" və s. qəzetlər, "Gənclik", "Xəzər" jurnalları, "Turan", "AssA-İradə" kimi xəbər agentlikləri barədə biblioqrafik, tarixi və təhlili məlumatlar yer alıb.

Qeyd edək ki, buna qədər də sözügedən dövrə aid bəzi araşdırma nəşrləri olub. Məsələn, tanınmış mətbuat tədqiqatçısı, mərhum professor Şirməmməd Hüseynovun 1988–1993-cü illərdə mətbuatda dərc olunan, xüsusən milli istiqlal yoluna və mətbuat tarixinə işıq salan "Müstəqilliyin çətin yolu... Biz hara gedirik?" məqalələr toplusu, Bayram Hüseynzadənin keçid dövrü mediasının strukturuna aid "Azərbaycan Respublikasında demokratik mətbuatın formalaşması (1991–2005)" elmi əsəri, Qahirə Hüseynovanın "Azərbaycanın müstəqilliyi uğrunda mübarizə dövründə Naxçıvan Muxtar Respublikasında demokratik mətbuatın təşəkkülü və inkişafı (1988–1993)" adlı dissertasiya işi və sair. Həmçinin mərhum Nəsiman Yaqublu "Azərbaycan mətbuatı: Gizli nəşrlər" kitabını yazaraq ərsəyə gətirib. Faiq Hüsiyevin "Xarici ölkələrdə Azərbaycan mətbuatı: 1990–2005-ci illər" kitabı da bu sıradandır.

Bəkir Nərimanoğlu isə kitabında milli müstəqilliyin hədəfləndiyi xalq hərəkatı dövründə yeni yaranan, adı dəyişən, eləcə də qısa bir müddətdə buraxılan mətbu orqanlar barədə konkret faktlardan ibarət materiallarını və məqalələrini ipə-sapa düzüb. Müəllif araşdırmalarında elmi-nəzəri ümumiləşdirmələrə, fərdi təhlil, bioqrafik təqdimat, faktoloji məlumat tələblərinə xüsusi önəm verib.

Kitabın ilk bölümündə "yenidənqurma"nın təsiri və sovet hakimiyyətinin iflası ilə bağlı yaranan şəraitdə təsis edilmiş dövri-ədəbi mətbuat nümunələrindən bəhs olunur. "Azərbaycan"ın dönüşü", "Həyat", "Məmməd əminin "Gənclik"i, "Mətbuatın "Ayna"sı", Azərbaycan xalqına bəxş olunan ilk "Azadlıq", "Qaranlıqdan "Aydınlıq"a, "Qərbi azərbaycanlıların "Vətən səsi", "Hüquqşünasların "Ədalət"i" və başqa kütləvi informasiya vasitələrindən söhbət açılır.

"Adı dəyişənlər" bölümündə "Xalq qəzeti" ("Kommunist"), "Şərq qapısı" ("Sovet Naxçıvanı"), "Bərəkət" ("Sovet kəndi"), "Savalan" ("Azərbaycan pioneri"), "Ədəbiyyat" ("Ədəbiyyat və incəsənət"), "İki sahil" ("Zavod həyatı") barədə müfəssəl məlumatlar verilir.

"Qısa-qısa" adlanan 3-cü bölüm isə o dövrdə müəyyən müddət buraxılmış mətbu orqanları əhatə edir. Burada "Yol", Yeni fikir", "Mədəniyyət", "Sirlər xəzinəsi", "Şəfqət", "Dalğa", "Açıq söz", ümumiyyətlə, 17 adda qəzetdən bəhs olunur.

Bəkir Nərimanoğlu "Müəllifdən" adlı Ön sözündə xatırladır ki, həmin dövrdə Azərbaycanda əsl qəzet bumu yaşanıb. Bir çox dövlət təşkilatları və ictimai qurumların yeni nəşrləri fəaliyyətə başlayıb.




Kitabda, əsasən, dövlət qeydiyyatından keçərək çap olunan media orqanları haqqında məlumatlar verilib. Həmçinin qeyd edilib ki, "Samizdat" (senzurasız, özbaşına) nəşrlərlə bağlı ayrıca kitab da çapa hazırlanır. Məqalələr yazılarkən arxivlərdən istifadə edilib, nəşrlərin qurucuları və əməkdaşlarından müsahibələr alınıb.

Məsələn, "Kommunist"dən "Xalq"a" adlanan məqalədə göstərilir ki, sözügedən qəzet "Kommunist" adı ilə son dəfə 24 avqust 1991-ci ildə dərc olunub. 27 avqust 1991-ci ildən "Xalq qəzeti" adı ilə fəaliyyətini davam etdirir. Hələ bundan xeyli əvvəl – 20 yanvar hadisələri ilə bağlı qəzetin kollektivi "Kommunist" adından imtina etmişdi. Hətta redaksiya binasının girişindəki lövhələr çıxarılmış, damdakı "Kommunist" yazılmış və şəhərin yuxarı məhəllələrindən aydın görünən 10 metrlik nəhəng reklam birdəfəlik söndürülmüşdü. Lakin Mərkəzi Komitədən olan "ixtiyar sahibləri" adın dəyişdirilməsinə təxminən ilyarım icazə verməmişdilər. Yalnız, məlum QKÇP-nin süqutundan sonra bu, mümkün oldu və mərhum baş redaktor Tofiq Rüstəmovun təklifi ilə gündəlik nəşr "Xalq qəzeti" adı ilə buraxılmağa başladı... Bütün bunlar barədə müəllifə müsahibəsində 1988-ci ildən qəzetdə çalışan, hazırda baş redaktor müavini olan Əməkdar jurnalist Tahir Aydınoğlu ətraflı və səlis məlumat verib.

Nəhayət, qeyd edək ki, Bəkir Nərimanoğlunun Azərbaycan mətbuatşünaslığına sanballı töhfə olan kitabında ayrı-ayrı kütləvi çap nümunələrinin müfəssəl tədqiqi, elmi-kütləvi dövriyyəyə daxil edilməsi bu yeni nəşri tarix, filologiya, mətbuat, ümumilikdə, humanitar sahədə çalışan və təhsil alanlar üçün dəyərli vəsait kimi ortaya qoyur.

***Ə.DOSTƏLİ***
***XQ***

*Dünyaya hökm etmiş coğrafiyanın gələcəyinə doğru*

# Türk Dövlətləri Birliyi tarixi zərurətin gerçəkləşməsidir

**Milli Məclisin deputatı, fəlsəfə doktoru Cavanşir Feyziyevin yenidən işlənmiş və təkmilləşdirilmiş "Türk Dövlətləri Birliyi: Qlobal inteqrasiyasının türk modeli" kitabı "Şərq-Qərb" mətbəəsində nəşr olunub. Bu fundamental əsərin ilk variantı ölkəmizlə yanaşı, türk dövlətlərində də tərcümə edilib yayılıb, strateji mərkəzlərdə geniş və nüfuzlu müzakirələr doğurub.**

Söylənən mülahizə və təklifləri və ümumtürk birliyi ideyasının inkişafındakı yeni meyil və uğurları nəzərə alan müəllif geosiyasi tədqiqatın mükəmməl nəşrini ərsəyə gətirib. Türk Dövlətləri Təşkilatının bütün yönlərdə fəaliyyətini genişləndirməsini və möhkəmlənməsini, dünya birliyində güclü və nüfuzlu regional mərkəzə çevrilməsini hədəfə alan bu fundamental kitabı 6 fəsildən ibarətdir: Tarixdən doğan gələcək (I), Ümumtürk mədəniyyəti fərqli sivilizasiya nümunəsi kimi (II), Avrasiyanın inkişaf perspektivləri və türk dövlətləri (III), Beynəlxalq siyasət və beynəlxalq hüquqda birlik yaratmanın əhəmiyyəti (IV), Sarsılmaz təməllər üzərində (V), Türk dövlətləri birliyinin strategiyası (VI).



Akademik Yaqub Mahmudovun kitaba yazdığı ön sözdə müəllifin xoş məramı, politoloji araşdırmanın çağdaş tarixi zərurəti yüksək səviyyədə cavablandırması yüksək dəyərləndirilir, nəşrin ictimai-siyasi, və elmi-nəzəri önəmi şərh olunub: "Türk dünyasının problemlərinə həsr olunmuş çoxsaylı əsərlərin əhəmiyyətini qeyd etməklə yanaşı, mən böyük məmnuniyyətlə ön söz yazdığım bu kitabın müstəsna dəyərini onda görürəm ki, burada Türk Dövlətləri Birliyi ideyası ilk dəfə olaraq, sistemli şəkildə, konseptual bir model kimi, geniş və dərin təhlillər əsasında irəli sürülür".

Kitabın bütün fəsillərində müəllifin söz açdığı mətləblər oxucunun zəkasına işıq saçır və bu çağdaş gerçəkliyə "səyahətnamə" oxuculara təsirli detallarla, maraqlı epizodlarla, təşviqedici fakt və rəqəmlərlə təlqin edilir, inandırıcılıqla diqqətə çatdırılır.

Cahanşümul qələbələr və ardıcıl acı məğlubiyyətlər, yüksəlişlər və müvəqqəti enişlərlə müşayiət olunmuş nəhəng etnik təşəkkültapma dövrləri; yerlə-yeksan olma təhlükələri; geniş coğrafiyada hökm sürmüş imperiyaların daxili parçalamaları, xarici müdaxilələr nəticəsində süquta uğraması; öz varlığını qoruması və bütövləşməyə can atması – bütün bunlar türkün yalnız tarixi deyil, həm də alın yazısıdır. Müəlif göstərir ki, bu yazı türkə anladır: ya amansız mübarizə və müdafiə aparıb yaşamalı, ya da iri güclərin qabağında təslim olub, kölə ömrünü sürməlidir.

Qabaqcıl ölkələrə inteqrasiya olunmaq başqa, varlığını, mədəniyyətini diktə etmək ayrı, yabançı xalqların içində tədricən ərimək, yox olmaq başqa. Bu mənada Cavanşir Feyziyev məşhur fatehlərin, imperatorların, şahənşahların, ağıllı siyasət yürüdən dövlət başçılarının, ideoloqların tarixdə müəyyənedici rolunu da qədərincə açıb göstərir. Qədimdən üzü bəri – ulu Atilladan, Bilgə Xaqandan, Məhmət Fatehdən tutmuş çağdaş türk dövlətlərinin liderlərinəcən (Mustafa Kamal Atatürk, Heydər Əliyev, İlham Əliyev, Nursultan Nazarbalayev və başqaları) yeni mərhələlərin lider şəxsiyyətlərinin tarixi gedişə göstərdikləri mütərəqqi təsir əsərə qürurverici ruh gətirir.

Gərək elə diplomatik, siyasi, hüquqi dəst-xətt yeridəsən ki, həm qlobal dünyada hərtərəfli nüfuz qazanasan, qəbul olunasan, həm də əski türk dövlətçilik ənənələrini qoruyub saxlayasan, məhz dünya düzənində sözün yeriyə. Bu mənada taleyüklü məsələlərə bu cür ətraflı yanaşma metodu, daha doğrusu, belə sistemli baxış bucağı filosof alim Cavanşir Feyziyevin mövzunun həllində nə qədər səriştəli mövqe tutduğunu, tarixi prosesləri necə incəliklə araşdırdığını, hansı hisslərlə yaşadığını göz önünə gətirir.

Müəllif haqlı olaraq, ilk fəslin (Tarixdən doğan gələcək) birinci mövzusunu "Türk dövlətçiliyinin genezisi: tarixi-siyasi münasibətlərin dinamikası" adlandırıb. Əlbəttə, tarixi inkişaf milli köklərə bağlıdır və genetik kodlar bu istiqamətdə etibarlı mənbə və məxəzdir. İlkinliyə varmadan, başlanğıcı araşdırmadan, ümumiyyətlə, heç nə haqda mühakimə yürütmək doğru deyil.

Cavanşir Feyziyev də çəkinmədən, cəsarətlə ən qədim qaynaqlara baş vurur və yekun qənaətini bölüşür: Altay dağlarından tutmuş Yenisey çayı boyunca yaradılmış türk imperiyalarının, xanlıqların, dövlətlərin adlarını öyünclə çəkməklə Böyük Hun imperiyası, Şərqi Hun imperiyası, Ağ hun imperiyası, Sak imperiyası, Göytürk imperiyası, Avar imperiyası, Xəzər imperiyası, Uyğur imperiyası, Qaraxanlılar dövləti və s. barədə çağdaş təsəvvür formalaşdırır. Sıralamada, Qəznəvilər, Böyük Səlcuq, Atabəylər dövlətlərinin, Osmanlı və Moğol imperiyalarının, Dehli Türk sultanlığının, Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin, Səfəvilər imperiyasının, o cümlədən bir sıra Azərbaycan xanlıqlarının adlarıda iftixarla qeyd edilir. Araşdırmaçı İtilətrafı (Volqa çayı) xanlıqlar barədə, Sibirdə yaradılmış dövlətlər haqda da söz açmağı yaddan çıxarmır.

Şübhəsiz, Azərbaycan türklərinin yaşadıqları ərazilər də tez-tez xatırlanır. Çünki istər müstəqil Azərbaycan, istərsə də İranda, İraqda, Şərqi Anadoluda, Dağıstanda, Gürcüstanda məskunlaşmış azərbancanlıların vətənləri vaxtilə eyni ərazi vahidi sayılmışdır. Bütün bu məmləkətləri qədim xəritəmizin çərçivələrinə sığışdırsaq, həqiqətən, böyük bir imperiyanın mövcudluğunu təsəvvür etmək olar. Azərbaycanın tarixi gerçəkliyi kitabdan qırmızı xətt kimi keçir.

Kitabı vərəqlədikcə, müəllifin zəngin fakt və hadisələri sevgi və yaradıcı surətdə işləməsinə, həssaslıqla araşdırılmasına, hər tarixi detal və epizoda fəlsəfi münasibət bəsləməsinə, dərin məntiqinə heyran olmamaq mümkün deyil. "Qaynaqlar" adlanan mündəricatda təkcə 315 müəllifin əsərindən, məqaləsindən, kitabından sitat gətirildiyi qeyd edilib. Gərək ensklopedik məlumata malik olasan ki, bu qədər qaynağa, məxəzə baş vurasan, istədiyin rəqəmi və ya tarixi faktı əldə edəsən, köçürəsən, yaddaşda saxlayasan.

Arxivlərin tozunu uda-uda yalnız ürəyində millət sevgisi daşıyanlar belə məsuliyyətli və böyük zəhmət tələb edən işə girişir. Akademik Yaqub Mahmudovun da etiraf etdiyi kimi, bu kitab Türk dünyası barədə ilk hərtərəfli, çoxşaxəli, sanballı əsərdir, fakt bolluğuna və əhatə dairəsinə görə misilsiz nümunədir.

Məlumdur ki, türk qövmü Şərqdən Qərbə, Cənuba at sürmüş, qılınc oynatmış, intibahlar, sivilizasiyalar yaşamış, ümumtürk mədəniyyətini formalaşdırmışdır. Müəllif monoqrafiyasının ikinci fəslində (Ümumtürk mədəniyyəti fərqli sivilizasiya nümunəsi kimi) türklərin epos-dastan yaradıcılığını da araşdırır, "Oğuz Kağan", "Kitabi-Dədə Qorqud", "Manas", "Əmsavi-turki", "Koroğlu" kimi tarixi incilərdən söz açır, oğuznamələrin türk yazılı dilinin inkişafında rolundan bəhs edir.

Alim Mahmud Kaşqarlının, Yusif Balasanqulunun, Əhməd Yəsəvinin, hikmət xəzinəsindən də misallar gətirir. O qeyd edir ki, "Orxon-Yenisey" abidələri türkün ən qədim daş yaddaşına çevrilmiş, ilk türkcə (yəni göytürkcə) yazı mədəniyyətinin mükəmməlliyini sübut etmiş, qədim hegemon Göytürk imperiyasının əzəmət və qüdrətini ortaya qoymuş misilsiz qaynaqlardır. Cavanşir Feyziyev məşhur Danimarka hərbçi-alim (XIX əsrin ikinci yarısı) Vilhelm Tomsenin danılmaz tezislərini əsas gətirərək, Orxon abidələrindən 680-745-ci illər arasında möhtəşəmliyini Türk dünyasının siyasi-mədəni keçmişini tarixə həkk etmiş "qızıl keçmiş" kimi danışır: "Bunlar tarixi sənədlər külliyatıdır".

Son min ildə isə din və dil birliyi (xristian və şaman olan türklər də var) müxtəlif xalqlara bölünmüş türkləri vahid islam bayrağı altında birləşdirmişdir. Eyni zamanda, Böyük İpək yolu fəaliyyətə başlamazdan xeyli əvvəl Avrasiya kommunukasiya sisteminin ilk təməlləri (e.ə. IV-III minillikdə) qoyulmuş, Pamir dağlarının ətəklərinə qədər uzanan yollar mövcud olmuşdur.

Müəllif zəmanəmizdə türk milli mədəniyyətlərinin, türk sivilizasiyasının dünyaya bəxş etdiyi siyasət, elm, sənət və ədəbiyyat xadimlərinin qısa siyahısını da təqdim edir: Mustafa Kamal Atatürk, Heydər Əliyev, Türqut Ozal, Nursultan Nazarbayev, Həsən Özbəkistan, İlham Əliyev, Lütvi Zadə, Tofiq Fikrət, Namiq Kamal, Rəşad Nuri Güntəkin, Əziz Nesin, Qafur Qulam, Musa Cəlil, Çingiz Aytmatov, Qara Qarayev, Bəxtiyar Vahabzadə, Oljas Süleymenov, Muxtar Şaxanov, Oraz Yağmur və başqaları.




Kitabın üçüncü bölümü əsrlər boyu min bir oddan-alovdan, qan-qadadan, təbii fəlakətlərdən çıxmış, imperiyalar daxilində əriməmiş, hazırda müstəqilliyinə qovuşmuş türk dövlətlərinə həsr edilib. Hər cür təhlükəni silib-süpürən, həmişə "imzası imzalar içində olan" Türkiyə bu gün də Türk dünyasının güvənc yeridir.

Avrasiya məkanında ikinci müstəqil ölkə Azərbaycan Respublikası – hamımızın səcdəgahı Vətənimizdir. Kitabda vurğulandığı kimi, tarix boyunca qovğa, qara bulud bu məmləkətin başı üstündən əskilməmişdir. Müstəqilliyini 1918-ci ildə qazanmış bu gənc dövləti rus-sovet irticası 1920-ci il aprelində işğal etmişdir. Tarixin hökmü ilə müstəqilliyimiz 1991-ci ildə yenidən bərpa olunub.

Ötən 35 ildə Azərbaycan Qafqazın qüdrəli dövlətinə çevrilib. Ulu öndər Heydər Əliyevin özülünü qoyduğu və hazırda Prezident İlham Əliyevin uğurla davam etdirdiyi siyasi xətt Azərbaycanı hərtərəfli yüksəlişə doğru aparır. 44 günlük müharibə göstərdi ki, ölkəmizin zəfəri təsadüfi xarakter daşımayıb, dövlətimiz güclüdür və sarsılmazdır. Bütün bunlar kitabda Azərbaycan gerçəkliyi kimi əksini tapıb.

Digər 4 türk dövləti Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Türkmənistan respublikalarıdır. Şimali Kipr Türk Respublikası da bu sıraya qoşulub. Cavanşir Feyziyev keçmiş SSRİ dağılandan sonra bu milli məmləkətlərin suverenlik qazandığını, müstəqilliyə qovuşduğunu və dəqiq sərhədlərini müəyyənləşdirdiyini qlobal dünyamızda hadisə sayır, geniş regionumuza rəng qatdığını xatırladır.

İndi bu birlikdə heç bir ölkə üstün və asılı deyil, böyük xalq, kiçik xalq məfhumu yoxdur. Müəllif qeyd edir ki, XXI əsrin ilk yarısının ortasıdır: millətlər, xalqlar ayılıb, fil qulağında yatanı yoxdur. Qərb Türk dünyası ilə ehtiyatlı və mədəni davranmağa məcburdur. Bunu ayrı-ayrı dünya liderləri yox, tarix diqtə edir, cənablar!

Əlbəttə, qonşuluğunda Rusiya Federasiyası və ya İran İslam Respublikası kimi fərqli idarəçilik sisteminə malik ölkələr varsa, qarşılıqlı əlaqələr daha geniş aspektdə tənzimlənməli, faydalanmalı, görüb-götürməlisən. Bu baxımdan Çin Xalq Respublikası da istisna deyil. Türk Dövlətləri Birliyi ölkələri həmin böyük dövlətlərin əraziləri ilə qonşudur, quru və ya su sərhədləri mövcuddur. Müəllif bütün bunları zəruri məsələ kimi şərh etməyi də unutmur.

"Türk Dövlətləri Birliyinin ərsəyə gəlməsi – "Beynəlxalq siyasət və hüquqda birlik yaratmanın əhəmiyyəti" (IV fəsil) çağdaş dövrümüzün öncül problemidir. Qütbləşən dünyada bu birliyin əleyhdarları da var, rəğbət bəsləməyənləri də. Bunu geosiyasi mühit, dərinləşən münasibətlərin sabit qalmayan, dəyişən ögey-doğmalığın, yəni imperiya siyasətinin doğurduğu qısqanclıq adlandırmaq olar. Buna baxmayaraq, Türk həmrəyliyi, türk birliyi güclənir, irəli gedir. Çağdaş gerçəkliyə cavab olaraq, gərək beynəlxalq aləmdə təklənməyəsən, təcrid olunmayasan.

Kitabda bəyan edilir ki, indiki əzəmətli Türkiyə, qüdrətli Azərbaycan birliyi bütün türkdilli və türksoylu ölkələrə sağlam örnəkdir. Türk xalqlarının yaxınlaşmasında, dünya gündəmində bir araya gəlməsində, isti münasibətlərin inteqrasiyasında əsasən iki dünyəvi dövlətin - Türkiyənin və Azərbaycanın rolu misilsizdir. Bu örnək töhfə, xidmət könüllülük prinsipinə söykənir, necə deyərlər, "sarsılmaz təməllər üzərində" (V fəsil) bərqərardır.

Cavanşir Feyziyev haqlı olaraq Türkiyə və Azərbaycanı "dünya türkçülüyünün cazibə mərkəzi" adlandırır: Türkiyə və Azərbaycan arasındakı bağlılıq o qədər dərin təməllərə əsaslanır ki, onların vətəndaşlarının bir-birinin ərazisində və ya digər statusda yaşamasına rəsmi diaspor prinsiplərilə yanaşmaq heç mümkün deyil. Çünki hər iki ölkədə türklər və azərbaycanlılar bir-birinin evində yaşayan qardaşlar kimi öz münasibətlərini qurublar".

Bu kitabın bir önəmli məziyyəti də ondadır ki, bəzi xəyallar quran imperiyapərəst ideoloqlara, millətləri bir-birinin üstünə qaldıran siyasətbazlara burada tutarlı cavablar var.

Sonda qeyd edək ki, Milli Məclisin deputatı, fəlsəfə doktoru, yurdsevəvər ziyalı, ümumtürk sevdalısı Cavanşir Feyziyevin "Türk Dövlətləri Birliyi: qlobal inteqrasiyanın türk modeli" kitabı türk superetnosunun son 3 min illik tarixi haqqında əhatəli, bitkin və çağdaş ictimai-siyasi və elmi-nəzəri tələbatı mükəmməl cavablandıran əsər kimi həm qədim dövrümüzə, həm bu günümüzə parlaq güzgü tutur, ümumtürk birliyinin yolunu işıqlandırır.

İnanırıq ki, bu qiymətli tədqiqatın əvvəlki kitabı kimi, yeni təkmil nəşri də ölkəmizdə və türk dövlətlərində daha böyük maraq doğuracaq, çap edilib yayılacaq.

***Ağacəfər HƏSƏNLİ,***
***şair-publisist***

# "Şeirimizdə və yazılı abidələrimizdə insan haqları"





**Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində İnsan Hüquqları üzrə Dövlət Proqramı çərçivəsində "Şeirimizdə və yazılı abidələrimizdə insan haqları" mövzusunda elmi sessiya keçirilib.**

18 İyun Milli İnsan Hüquqları Gününə həsr olunmuş mərasimi giriş sözü ilə Ədəbiyyat Muzeyinin direktoru akademik Rafael Hüseynov açıb. O, müasir müstəqil Azərbaycan Respublikasında ilk dəfə 1998-ci il iyunun 18-də ulu öndər Heydər Əliyev tərəfindən "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı"nın təsdiq edildiyini və insan hüquqlarının təmin olunmasının dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyənləşdirildiyini bildirib. Qeyd edib ki, Prezident İlham Əliyevin 2007-ci il 18 iyun tarixli Sərəncamı ilə məhz həmin tarixi gün – iyunun 18-i Azərbaycanda İnsan Hüquqları Günü elan edilib.

Akademik Rafael Hüseynov vurğulayıb ki, bu gün Azərbaycan insan hüquqlarının müdafiəsi sahəsində müasir qanunvericilik bazasına, fəaliyyət göstərən institusional mexanizmlərə və beynəlxalq əməkdaşlıq təcrübəsinə malikdir.

Ədəbiyyatın hər zaman insan hüquqlarının müdafiəçisi kimi çıxış etdiyini deyən akademik Rafael Hüseynov dünya ədəbiyyatı tarixində ilk qaynaq olaraq "Kitabi-Dədə Qorqud" dastanlarında qadın hüquqlarının əsas xüsusiyyətlərinin yer aldığını bildirib. O, həmin xəttin milli ədəbiyyatımızda davam etdiyini, dahi Azərbaycan şairi Nizami Gəncəvinin "Xəmsə"sində insan hüquqları, azadlıq, ədalət və bərabərliyin mərkəzi yer tutduğunu söyləyib.

"XII yüzilliyin digər şairlərinin əsərlərində də insan hüquqları və azadlıqları ilə bağlı məsələlər əsas mövzulardan olub və cəmiyyətin maariflənməsinə böyük təsir göstərib", – deyə bildirən direktor vurğulayıb ki, Nizaminin böyük müasiri olmuş Məhsəti Gəncəvinin əsərlərində insan hüquqları ideyaları əsasən humanizm, qadın azadlığı, sosial ədalət və şəxsiyyətin azadlığı prinsipləri üzərində qurulub.

Onun sözlərinə görə, XIV əsrdə İmadəddin Nəsimi hürufizm fəlsəfəsinə və sufizmə əsaslanaraq, insanı ilahi gözəlliyin və kamilliyin mərkəzi hesab edib. O, insanı ən ali varlıq kimi ucaldıb, bütün insanların bərabərliyini, şəxsi ləyaqətini və azadlığını müdafiə edib.

Akademik Rafael Hüseynov qeyd edib ki, XV-XVI əsrlərdə Şah İsmayıl Xətai, Məhəmməd Füzuli, Məhəmməd Əmani, Şah Qasım Ənvar və digər böyük şairlərin əsərlərində də insan hüquqları vacib amil kimi tərənnüm edilir. Bundan başqa dahi Azərbaycan mütəfəkkiri Nəsirəddin Tusinin XIII əsrdə qələmə aldığı "Əxlaqi-Nasiri" əsərində insan hüquqları humanizm, ədalət və bərabərlik prinsiplərinə əsaslanır.

Elmi sessiyada muzeyin Virtual təqdimatlar, məktəblilərlə və ictimaiyyətlə iş şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru Nəzmiyyə Yigitoğlu, muzeyin Doktorantura, elmi inkişaf və süni intellekt inteqrasiyası şöbəsinin müdiri Cəmilə Dəmirova, həmin şöbənin elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Rəhilə Sadıqova çıxış edərək ayrı-ayrı əsərlərdə insan hüquqlarına aid zəngin nümunələrin olduğunu diqqətə çatdırıblar.

***Qabil ƏLİYEV***
***XQ***

# Naxçıvanda "Qərbi Azərbaycana qayıdış" III konqres-festivalı



**Dünən Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi, Naxçıvan Dövlət Universiteti və Qərbi Azərbaycan İcmasının birgə təşkilatçılığı ilə "Qərbi Azərbaycana qayıdış" III konqres-festivalı öz işinə başlayıb.**

Ordubad şəhərində "Qərbi Azərbaycana qayıdış" mövzusunda ikigünlük festival-konqresinin rəsmi açılış mərasimi keçirilib. Naxçıvan Dövlət Universitetinin təqdimatında Qərbi Azərbaycanın tarixi və mədəni irsinə həsr olunmuş bədii kompozisiya və I və II "Qərbi Azərbaycana qayıdış" konqres-festivallarını əks etdirən videoçarx nümayiş olunub.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov Qərbi Azərbaycan mövzusunun Azərbaycan xalqının tarixi yaddaşı, milli kimliyi və mənəvi irsi ilə ayrılmaz şəkildə bağlı olduğunu bildirib.

Vurğulayıb ki, bu məsələyə dövlət səviyyəsində daim böyük diqqət göstərən Ümummilli lider Qərbi Azərbaycandan deportasiya olunmuş soydaşlarımızın taleyini hər zaman diqqətdə saxlayıb, onların hüquqlarının müdafiəsini mühüm vəzifələrdən biri kimi müəyyən edib. Bu gün həmin siyasi kurs uğurla davam etdirilir. Yeni reallıqlar şəraitində Prezident İlham Əliyev Qərbi Azərbaycan məsələsini milli gündəliyin mühüm istiqamətlərindən biri kimi müəyyən edib.

Səlahiyyətli nümayəndə "Qərbi Azərbaycana qayıdış" III konqres-festivalının tariximizin öyrənilməsi, milli-mənəvi dəyərlərimizin qorunması, elmi əməkdaşlığın genişləndirilməsi və gənc nəslin tarixi yaddaşının gücləndirilməsi baxımından uğurlu nəticələrlə yadda qalacağına əminliyini bildirib, konqres-festivalın işinə müvəffəqiyyətlər diləyib.

Elm və təhsil naziri Emin Əmrullayev, Milli Məclis sədrinin müavini Ziyafət Əsgərov, Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev, AMEA prezidenti, akademik İsa Həbibbəyli, Qərbi Azərbaycan İcması İdarə Heyətinin sədri Əziz Ələkbərli, Qərbi Azərbaycan İcması İdarə Heyətinin üzvü Mahirə Hüseynova festival-konqresin maariflənmə və yaddaşı təzələmək baxımından yüksək önəm daşıdığını söyləyiblər.

Türkiyənin İğdır Universitetinin rektoru Ekrem Gürel qeyd edib ki, Qərbi Azərbaycana qayıdış missiyası yalnız coğrafi bir həsrətin və ya keçmişə dönüş istəyinin ifadəsi deyil, ədalətin, tarixi həqiqətlərin və nəsillər boyu yaşadılmış mədəni irsin öz haqqına qovuşdurulması mübarizəsidir.

Sonra Prezident Kitabxanasının "Qərbi Azərbaycan" layihəsinin təqdimatı izlənilib. Mərasim bədii hissə ilə davam edib. Qərbi Azərbaycana həsr olunmuş sərgilərə baxış olub.

Konqres-festival 8 panel müzakirələrlə davam edib.

***T.RÜSTƏMLİ***
***XQ***

*Düzü-düz, əyrini-əyri...*

# Müəllimlər üçün “vahid forma”, yoxsa “nümunəvi geyim”?

**Cəmiyyəti yaxından maraqlandıran qanun layihələri mediada şərh olunarkən bəzən tələsik yazılmış başlıqlar və qeyri-dəqiq ifadələr ictimaiyyətdə tamamilə yanlış təsəvvür yaradır. Son günlər "Ümumi təhsil haqqında" qanuna təklif edilən yeni dəyişikliklərdə geniş auditoriyada belə çaşqınlıq yaradıb.**

Bəzi media qurumlarında müəllimlər üçün "vahid geyim forması"nın eyni model və rəngdə olacağı barədə əsassız xəbərlər yayıldı. Bu isə pedaqoji kollektivlərdə müzakirələrə yol açdı. Amma rəsmi sənədin mahiyyətinə diqqət yetirdikdə tamam fərqli mənzərə görünür.

Müəllim hər zaman cəmiyyətdə intizam, səliqə və ədəb-ərkan nümunəsi olub. Bu baxımdan, məktəb mühitində diqqəti yayındırmayan, peşəkar iş mühitini qoruyan geyim standartlarının olması vacibdir. Eyni zamanda, sinif otaqlarında sosial bərabərliyin qorunması, geyimlə fərqlənmə meyillərinin qarşısının alınması həm müəllimlər arasında səmimi mühit yaradır, həm də uşaqların fikrini elmi biliklərə yönəldir.

**Milli Məclisin deputatı Ceyhun Məmmədov bildirdi ki, məsələnin ilkin ictimai müzakirəsi zamanı qanunun mətni ilə bağlı müəyyən fərqli fikirlər, hüquqi qeyri-müəyyənlikdən doğan çaşqınlıqlar müşahidə olunur:**



– Normativ-hüquqi aktların hazırlanması və qəbulu baxımından heç bir narahatlığa hüquqi əsas yoxdur. Yaranan yanlış rəy ondan ibarətdir ki, yeni tənzimləmə bütün təhsilverənlər üçün vahid uniforlaşdırılmış geyim formasının məcburi tətbiqini nəzərdə tutur. Bu yanaşma tamamilə əsassızdır.

"Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa təklif edilən dəyişikliklərin təhlili göstərir ki, qanunun 4-cü maddəsində "vahid geyim forması" (müəyyən bir materialdan və rəngdən ibarət geyim) anlayışı deyil, "geyim ilə bağlı tələblər" norması təsbit olunur.

"Tələb" anlayışı xarici görkəmin ümumi çərçivələrini və meyarlarını cızır. Qanunun 12.13-cü maddəsinə əlavə edilməsi nəzərdə tutulan yeni müddəa ümumi təhsil müəssisələrində təhsilverənlərin xarici görkəminin hüquqi statusunu möhkəmləndirir və bu spesifik tələblərin müəyyən edilməsi səlahiyyətini qanunvericiliyə uyğun olaraq müvafiq icra hakimiyyəti orqanının müəyyənləşdirdiyi quruma həvalə edir. Bu isə o deməkdir ki, geyim normaları xüsusi əsasnamə və ya qaydalar vasitəsilə çevik şəkildə idarə olunacaq.

Bu tənzimləmə mexanizmi müəllimlərin fərdi azadlıqlarını məhdudlaşdırmır, təhsil müəssisələrində korporativ mədəniyyəti, peşəkar iş mühitini təmin edən hüquqi standartdır. Pedaqoqun xarici görkəmi onun cəmiyyətdəki hüquqi və mənəvi statusuna, o cümlədən müəllim nüfuzunun qorunması prinsiplərinə tam mütənasib olmalıdır. Hüquqi tənzimləmənin ali məqsədlərindən biri də təhsil ocaqlarında sosial bərabərlik prinsipini bərqərar etməkdir.

Təhsil müəssisələrində bahalı və lüks brend geyimlərin istifadəsi həm kollektivdə, həm də şagird-müəllim münasibətlərində sosial təbəqələşmə yaradır. Eyni zamanda, şagirdlərin diqqətini tədris prosesindən yayındıran qeyri-adekvat, təhsil mühitinə uyğun gəlməyən geyim üslublarının məhdudlaşdırılması, keyfiyyətli təhsil hüququnun təmin olunması öhdəliyindən irəli gəlir. Bakı və regionlar üzrə indiyə qədər 10-dan artıq məktəb öz qərarları ilə müəllimlərin vahid formaya keçidini tətbiq edib.

Bu cür hüquqi məhdudiyyətlər və standartlar lokal xarakter daşımır və beynəlxalq hüquqi təcrübəyə tam uyğundur. Dünyanın bir çox qabaqcıl və inkişaf etmiş təhsil sisteminə malik dövlətlərin də, məsələn, Malayziya, Yaponiya, Koreya, Birləşmiş Ərəb Əmirlikləri və Qətər kimi ölkələrin qanunvericiliyində təhsilverənlərin korporativ geyim etikası normalarla çox ciddi şəkildə nizamlanır. Buna görə də qanuna edilən bu mütərəqqi dəyişiklik təhsilin müasirləşməsinə və institutlaşmasına yönəlmiş legitim addım kimi qəbul edilməlidir.

**Təhsil eskperti Elmin Nurinin sözlərinə görə, təhsilverənlərin geyim mədəniyyəti müzakirə obyekti deyil:**



– Şagird müəllimi nizam-intizamlı, səliqəli görəndə qayda-qanun anlayışını məcburiyyət kimi deyil, həyatın tərkib hissəsi kimi qəbul edir.

Mütərəqqi təhsil sisteminə malik olan Yaponiya və Cənubi Koreyada kişi müəllimlər, adətən, tünd rəngli kostyumlarla, qadınlar isə klassik geyimlərlə dərsə gəlirlər.

Körfəz ölkələrində, xüsusən Birləşmiş Ərəb Əmirlikləri və Qətərdə məsələyə həm milli kimliyin qorunması, həm də peşəkar status baxımından yanaşılır. Yerli müəllimlər dövlət məktəblərində milli geyimdə dərs keçirlər ki, bu da qanunvericiliklə dəstəklənir və təhsil mühitində milli dəyərlərin tərbiyə qorunmasında mühüm rol oynayır. Əcnəbi müəllimlər üçün isə dərsin ciddiyyətinə xələl gətirməyən, çiyin və diz hissələrini qapayan rəsmi-işgüzar üslub ciddi tələb kimi qarşıya qoyulur.

Mətbuatda yaranan müvəqqəti anlaşılmazlıqlar qanunun ali məqsədini kölgədə qoya bilməz. Çünki müəllim nüfuzunun uca tutulduğu, təhsil mühitinin ciddiyyətlə qorunduğu cəmiyyətimizdə gələcək etibarlı əllərdədir.

***Fidan ƏLİYEVA***
***XQ***

# ADNSU dünya reytinqində 180 pillə irəliləyib







**Azərbaycan Dövlət Neft və Sənaye Universiteti beynəlxalq ali təhsil məkanında yeni uğura imza atıb. Universitet 2027-ci il üzrə dünya universitetlər reytinqinin nəticələrinə əsasən, 711–720-ci yer aralığında qərarlaşıb və bu göstərici ali təhsil ocağının indiyədək əldə etdiyi ən yüksək nəticədir.**

Universitet həm də “Məzunların məşğulluq nəticələri” göstəricisi üzrə də mövqeyini yaxşılaşdıraraq 391-ci yerdən 368-ci yerə irəliləyib. Tədris mühitinin keyfiyyətini əks etdirən “Müəllim-tələbə nisbəti” göstəricisi üzrə isə ali məktəb 208-ci yerdən 172-ci yerə çatıb.

ADNSU-nun rektoru dosent Rüfət Əzizov bildirib ki, bu nəticə universitetin tələbələri, müəllimləri, tədqiqatçıları, əməkdaşları, məzunları və sənaye tərəfdaşlarının birgə əməyinin nəticəsidir: “Bu nailiyyət məzunların məşğulluğu, təhsilin keyfiyyəti və beynəlmiləlləşmə istiqamətlərində əldə etdiyimiz irəliləyişlərin beynəlxalq səviyyədə təsdiqidir. Reytinqlər bizim üçün son məqsəd deyil, lakin universitetin qlobal rəqabət qabiliyyətinin və transformasiya prosesinin mühüm göstəricisidir. Bu nəticə bizi daha güclü tədqiqat universitetinə çevrilmək yolunda yeni hədəflərə ruhlandırır”.

***XQ***

# “Onların Mehdisi, bizim Mixaylo”

## *Sloveniyalılar əfsanəvi azərbaycanlı partizanı unutmurlar*

**Lyublyana şəhərində Sloveniyanın aparıcı telekanallarından olan “RTV Sloveniya” Azərbaycan xalqının igid oğlu, əfsanəvi partizan Mehdi Hüseynzadəyə (Mixaylo) həsr etdiyi sənədli filmin təqdimatını keçirib.**

“Onların Mehdisi, bizim Mixaylo” adlı sənədli filmi İkinci Dünya müharibəsi illərində Sloveniya xalqı ilə çiyin-çiyinə döyüşərək böyük qəhrəmanlıq göstərmiş Mixaylonun qəhrəmanlığını, azərbaycanlı partizanlarla slovenlərin faşizmə qarşı birgə mübarizəsini əks etdirir.

Sənədli ekran əsərinin ərsəyə gəlməsinə ölkəmizin Mədəniyyət Nazirliyi, Kino Agentliyi, "Azərbaycanfilm" Kinostudiyası, iqamətgahı Vyana olmaqla Sloveniyadakı səfirliyimiz, Vyanadakı Azərbaycan Mədəniyyət Mərkəzi, Milli Azərbaycan Ədəbiyyatı Muzeyi, Azərbaycan Televiziyası, eyni zamanda, Sloveniya Azərbaycan Dostluq Cəmiyyəti, Nova Qoritsa şəhər meriyası və Şempas yerli icması dəstək göstərib.



Səfir Rövşən Sadıqbəyli filmin təqdimatının Azərbaycan və Sloveniya arasında diplomatik əlaqələrin qurulmasının 30 illiyinin qeyd olunduğu 2026-cı ildə keçirilməsinin əlamətdarlığını qeyd edib.

Kino Agentliyinin baş direktoru R.Əzizov layihəni iki ölkə arasında mədəniyyət sahəsində əlaqələrin daha da inkişafına kino istehsalının verdiyi töhfə kimi dəyərləndirib.

***XQ***

*İnsan və kainat*

# Marsa səyahət realdır, yoxsa xəyal?

**Mars son illərdə yalnız astronomların deyil, siyasətçilərin, investorların və milyonlarla insanın diqqət mərkəzinə çevrilib. Bir tərəfdən, kosmik texnologiyalardakı sürətli inkişaf insanın "Qırmızı planet"ə ayaq basacağı günü yaxınlaşdırır. Digər tərəfdən, alimlər Marsın insan həyatı üçün son dərəcə sərt mühit olduğunu və orada uzunmüddətli yaşamağın hələ də həllini gözləyən çoxsaylı problemlərlə müşayiət olunduğunu bildirirlər.**



NASA və Avropa Kosmik Agentliyinin (ESA) hesabatlarına görə, Marsa uçuşun ən ciddi problemlərindən biri kosmik radiasiyadır. Yer kürəsi insanları Günəşdən və dərin kosmosdan gələn yüksək enerjili hissəciklərdən maqnit sahəsi vasitəsilə qoruyur. Marsda isə belə təbii müdafiə sistemi yoxdur. Bu səbəbdən uzunmüddətli uçuş və yaşayış zamanı radiasiyanın insan sağlamlığına təsiri əsas risk faktorlarından hesab edilir.

Mövzu ilə bağlı **NASA-nın kosmik uçuş sistemləri üzrə aparıcı elektrik mühəndisi Atilla Əsgərovun** fikrincə, yaxın onilliklərdə Marsda genişmiqyaslı məskunlaşma real görünmür:



– Marsa insan göndərmək texniki baxımdan mümkündür və bunun yaxın gələcəkdə baş verməsi ehtimalı böyükdür. Lakin orada təhlükəsiz və davamlı həyat qurmaq tamamilə başqa məsələdir. Radiasiya, enerji təminatı, suyun əldə olunması, qida istehsalı və texniki sistemlərin fasiləsiz işləməsi kimi problemlər hələ tam həll edilməyib. Texnologiyalar riskləri azalda bilər, amma onları tam aradan qaldırmaq mümkün deyil.

Mühəndisin sözlərinə görə, Mars missiyalarında əsas maneə raket texnologiyaları deyil:

– Bu gün Marsa çatacaq kosmik gəmiləri hazırlamaq mümkündür. Əsas problem planetdə uzunmüddətli yaşayış üçün etibarlı infrastrukturun qurulmasıdır. İnsanları ora aparmaqdan daha çətin məsələ onların orada yaşamasını təmin etməkdir.

Mars layihələrinə skeptik yanaşanlar hesab edirlər ki, "Qırmızı planet" ətrafında formalaşdırılan böyük ictimai maraq, müəyyən mənada, kommersiya məqsədlərinə də xidmət edir. Son illərdə kosmik şirkətlər tərəfindən hazırlanmış texnologiyalar təkcə gələcək Mars missiyalarında deyil, Yer kürəsində də tətbiq olunur. Suyun təkrar emalı sistemləri, yüksək effektiv günəş panelləri və yeni materiallar buna nümunədir.

Atilla Əsgərov da məsələyə iki aspektdən yanaşır:

– İnsanlığın gələcəyini düşünəndə başqa planetlərdə yaşayış imkanlarının araşdırılması məntiqlidir. Lakin Marsın yaxın gələcəkdə bəşəriyyətin "B planı" kimi təqdim olunması müəyyən qədər şişirdilmiş görünür. Hazırda Yer üzündəki problemləri həll etmək Marsda yeni həyat qurmaqdan daha asan və daha ucuzdur. Buna baxmayaraq, belə layihələr elmi inkişafı sürətləndirir və yeni texnologiyaların yaranmasına təkan verir.

**Elm və Təhsil Nazirliyinin N.Tusi adına Şamaxı Astrofizika Rəsədxanasının əməkdaşı, Beynəlxalq Astronomiya İttifaqının üzvü, fizika-riyaziyyat elmləri doktoru, professor Əyyub Quliyev** isə Mars proqramlarının yalnız texnoloji və ya kommersiya layihəsi kimi qiymətləndirilməsinin doğru olmadığını düşünür:



– İnsan həmişə yaşadığı sərhədləri aşmağa çalışıb. Coğrafi kəşflər dövründə okeanlar necə öyrənilirdisə, bu gün də kosmos öyrənilir. Mars missiyaları təkcə bir planetə uçuş deyil, insan sivilizasiyasının inkişaf mərhələsidir. Kainatın öyrənilməsi bəşəriyyət üçün strateji elmi zərurətdir. Professorun fikrincə, Mars layihələrinin arxasında böyük maliyyə maraqları olsa da, onların əsas məqsədi elmi tərəqqidir:

– Bu gün bir çox fundamental elmi layihələrin maliyyələşdirilməsi üçün özəl kapitalın dəstəyinə ehtiyac yaranır. İlon Mask kimi investorların bu sahəyə marağı da məhz bununla bağlıdır. Lakin bunu yalnız reklam kampaniyası kimi təqdim etmək düzgün olmazdı. Kosmik tədqiqatlar gələcək texnologiyaların formalaşmasında mühüm rol oynayır.

Alim Mars missiyalarında psixoloji amillərin də ciddi rol oynadığını vurğulayır:

– Radiasiya vacib problemdir, amma yeganə problem deyil. İnsanların aylarla tam təcrid olunmuş mühitdə yaşaması, qrupdaxili münasibətlər, emosional gərginlik və tibbi risklər də nəzərə alınmalıdır. Mars missiyası insan psixologiyasının sərhədlərini yoxlayan ən mürəkkəb layihələrdən biri olacaq.

NASA-nın son illərdə açıqladığı araşdırmalar da göstərir ki, Ay proqramları Marsa gedən yolun əsas mərhələsi hesab olunur. Məhz buna görə hazırda əsas diqqət "Artemis" proqramına yönəldilib. Ayda yaradılacaq yaşayış modulları, enerji sistemləri və yerli resurslardan istifadə texnologiyaları gələcək Mars ekspedisiyalarının sınaq meydanı olacaq.

Atilla Əsgərov da bu yanaşmanı bölüşür:

– Yaxın onilliklərdə ən real hədəf Aydır. Ora daha yaxındır, fövqəladə hallarda geri qayıtmaq mümkündür və əldə olunacaq təcrübə Mars missiyaları üçün əvəzsizdir. Düşünürəm ki, yaxın gələcəkdə əsas maliyyə və texnoloji resurslar Ay proqramlarına yönələcək.

Maraqlıdır ki, Azərbaycan da kosmik tədqiqatlar sahəsində müəyyən potensiala malikdir. Professor Əyyub Quliyevin sözlərinə görə, ölkəmizdə formalaşmış elmi məktəblər gələcək beynəlxalq layihələrdə iştirak edə bilər:

– Azərbaycanın kosmik tədqiqatlar sahəsində zəngin ənənələri mövcuddur. Şamaxı Astrofizika Rəsədxanası, digər elmi institutlar və "Azərkosmos" kimi qurumlar gələcək beynəlxalq layihələrə töhfə vermək imkanına malikdirlər.

Beləliklə, mütəxəssislərin fikirləri göstərir ki, Marsa uçuş artıq fantastika deyil. Lakin Marsda yaşamaq hələ də elmin və texnologiyanın qarşısında duran ən mürəkkəb problemlərdən biridir. Bəşəriyyətin yaxın gələcəkdə əsas kosmik laboratoriyası Ay olacaq. Mars isə hələlik həm böyük elmi məqsəd, həm də insan təxəyyülünü hərəkətə gətirən ən cəlbedici hədəf olaraq qalır.

***Elenora HƏSƏNOVA***
***XQ***

*Dünya Çempionatı – 2026*

# Qrup mərhələsində 2-ci tura start verilib









**DÇ–2026-da 17 və 18 iyun tarixlərində K və L qruplarında qrup mərhələsinin ilk oyunları keçirilib və ümumilikdə 13 qol vurulub.**

K qrupu çərçivəsində baş tutan Portuqaliya – Konqo Demokratik Respublikası qarşılaşması ABŞ-ın Hyuston şəhərində (Texas ştatı) yerləşən “Hyuston stadionu”nda keçirilib. 68 min 777 azarkeşin izlədiyi Portuqaliya – Konqo qarşılaşması 1–1 hesabı ilə başa çatıb. Oyunun 6-cı dəqiqəsində Portuqaliya millisinin gənc yarımmüdafiəçisi Joao Neves Pedro Netonun ötürməsindən sonra baş zərbəsi ilə hesabı açıb.

45+5-ci dəqiqə Konqonun hücumçusu Yoane Vissa Artur Masuakunun asmasını başla tora göndərərək hesabı bərabərləşdirib. Bu qol, Konqonun dünya çempionatları tarixində vurduğu ilk qol kimi tarixə düşüb. Hər iki komanda turnirə bir xalla başlayıb.

Günün ən məhsuldar və dramatik qarşılaşması L qrupunda İngiltərə – Xorvatiya oyunu olub. ABŞ-ın Arlinqton şəhərində “Dallas stadionu”nda keçirilən görüşdə İngiltərə komandasının heyətində Harri Keyn dubl edib (12-ci dəqiqədə penaltidən və 42-ci dəqiqədə), digər qolları isə 47-ci dəqiqədə Cud Bellingem və 85-ci dəqiqədə Markus Reşford vurub. Xorvatiya heyətində isə Martin Baturina (36) və Petar Musa (45+5) fərqləniblər–4:2

L qrupunun digər oyununda Qana millisi Panama üzərində minimal hesabla qələbə qazanaraq vacib 3 xal əldə edib –1:0. Kanadanın Toronto şəhərində, turnir zamanı rəsmi olaraq “Toronto stadionu”nda baş tutan görüşdə matçın taleyini həll edən yeganə qolu 90+5-ci dəqiqədə Qana millisinin yarımmüdafiəçisi Kaleb Yirenki vurub.

K qrupunda keçirilən Özbəkistan – Kolumbiya matçı 1:3 hesabı ilə başa çatıb. Mexiko şəhərində baş tutan oyunda Cənubi Amerika təmsilçisinin qollarını Daniel Munoz (40), Luis Diaz (65) və Caminton Kampaz (90+9) vurub. Dünya çempionatıları tarixində ilk dəfə təmsil olunan Özbəkistan millisinin yeganə təsəlli qoluna isə 60-cı dəqiqədə Abbasbəy Fayzullayev imza atıb. Beləliklə, qrup mərhələsi oyunlarının birinci turu başa çatıb.

Dünən axşam A qrupu çərçivəsində baş tutan Çexiya – Cənubi Afrika Respublikası qarşılaşması ilə 2-ci turun oyunlarına start verildi. Qeyd edək ki, hər iki komanda qrupdakı ilk oyunlarında məğlub olduqları üçün (Çexiya Cənubi Koreyaya 1:2, CAR isə Meksikaya 0:2 uduzub), pley-off şanslarını qorumaq üçün bu görüşdə mütləq qələbə qazanmağa çalışdılar. CAR millisi ilk oyunda qırmızı vərəqə alan əsas yarımmüdafiəçiləri Temba Zvane və Sphephelo Sithole olmadan meydana çıxdı. ABŞ-ın Atlanta şəhərində (Corciya ştatı), turnir zamanı rəsmi olaraq “Atlanta Stadionu” adlandırılan məşhur Mercedes-Benz Stadionunda keçirilən qarşılaşma 1:1 hesabı ilə başa çatıb. Avropalıların heyətində Mixal Sadilek 6-cı dəqiqədə çexiyalıları hesabda önə çıxarıb. 83-cü dəqiqədə isə Teboho Mokoena penalti zərbəsini dəqiq yerinə yetirərək CAR yığmasına 1 xal qazandırıb.



Dünən gecə yarısı B qrupunda mübarizə aparan İsveçrə və Bosniya və Herseqovina millilləri üz-üzə gəlib. Oyun ABŞ-ın San-Fransisko (Santa-Klara) şəhərindəki “San-Fransisko Bay Area stadionu”nda keçirilib.

***Q.YUSİFOĞLU***
***XQ***

## “Azmetko Kompleks Sazlama və Avtomatlaşdırma” ASC-nin 2025-ci il dekabrın 31-nə mühasibat balansı

*([illegible])*

| AKTİVLƏR | 2024-cü il | 2025-ci il |
|---|---|---|
| Torpaq, tikili və avadanlıqlar | [illegible] | [illegible] |
| CƏMİ UZUNMÜDDƏTLİ AKTİVLƏR | [illegible] | [illegible] |
| Pul vəsaitləri və onların ekvivalentləri | 1[illegible] [illegible] | [illegible] |
| Sair qısamüddətli aktivlər | [illegible] | [illegible] |
| CƏMİ QISAMÜDDƏTLİ AKTİVLƏR | [illegible] | [illegible] |
| CƏMİ AKTİVLƏR | [illegible] | 11[illegible] |
| KAPİTAL VƏ ÖHDƏLİKLƏR | | |
| Ödənilmiş nominal (nizamnamə) kapital | [illegible] | [illegible] |
| Emissiya gəliri | [illegible] | |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | | [illegible] |
| CƏMİ KAPİTAL | [illegible] | [illegible] |
| Qısamüddətli kreditor borcları | [illegible] | |
| Sair qısamüddətli öhdəliklər | | [illegible] |
| CƏMİ QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR | [illegible] | [illegible] |
| CƏMİ ÖHDƏLİKLƏR | [illegible] | [illegible] |
| CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR | [illegible] | 11[illegible] |

### Mənfəət və zərər haqqında hesabat (xərclərin funksiyaları üzrə)

| | 2025-ci il |
|---|---|
| Əsas əməliyyat gəliri | [illegible] |
| Satışın maya dəyəri | [illegible] |
| Vergiqoyulmadan əvvəl mənfəət (zərər) | [illegible] |
| Mənfəət vergisi | [illegible] |

### Xərclərin xüsusiyyətləri üzrə təsnifat əsasında əməliyyat xərcləri haqqında MƏLUMAT

| | 2025-ci il |
|---|---|
| İşçi heyəti üzrəx ərclər | [illegible] |
| Amortizasiya xərcləri | [illegible] |
| Sair əməliyyat xərcləri | [illegible] |
| Cəmi əməliyyat xərcləri | [illegible] |

**“Azmetko Kompleks Sazlama və Avtomatlaşdırma” ASC-nin rəhbərliyinə**

Biz, “Azmetko Kompleks Sazlama və Avtomatlaşdırma” ASC-nin 2025-ci il yanvarın 1-dən dekabrın 31-nə maliyyə vəziyyəti haqqında hesabatdan və həmin tarixdə bitən il üzrə mənfəət, zərər və sair məcmu gəlir, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan, eləcə də əsas mühasibat uçotu siyasətləri və sair izahedici məlumatları əhatə edən qeydlərdən ibarət olan maliyyə hesabatlarının auditini apardıq.

**Maliyyə hesabatları üzrə rəhbərliyin məsuliyyəti**

Rəhbərlik, göstərilən maliyyə hesabatlarının “Milli Mühasibat Uçotu Hesabatı Standartları”na uyğun olaraq hazırlanması və düzgün təqdim edilməsi üzrə məsuliyyət daşıyır. Bu məsuliyyətə saxtakarlıq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq əhəmiyyətli səhvlər olmayan maliyyə hesabatlarının hazırlanması və düzgün təqdim edilməsi üçün müvafiq daxili nəzarətin təşkili, tətbiqi və saxlanılması, müvafiq uçot siyasətinin seçilməsi, tətbiqi və müəyyən şəraitə münasib olan uçot ehtimallarının müəyyən edilməsi daxildir.

**Auditorun məsuliyyəti**

Bizim vəzifəmiz apardığımız audit əsasında həmin maliyyə hesabatları üzrə rəy ifadə etməkdir. Biz, auditi beynəlxalq audit standartlarına uyğun aparmışıq. Bu standartlar bizdən etik normalara riayət etməyi, auditin planlaşdırılması və aparılması zamanı maliyyə hesabatlarında əhəmiyyətli səhvlərə yol verilmədiyinə kifayət qədər əmin olacaq tərzdə həyata keçirməyi tələb edir.

**Rəy**

Bizcə, təqdim edilən maliyyə hesabatları bütün əhəmiyyətli aspektlər baxımından cəmiyyətin 2025-ci il dekabrın 31-nə maliyyə vəziyyətini və həmin tarixdə tamamlanan il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini “Milli Mühasibat Uçotu Hesabatı Standartları”na uyğun olaraq düzgün əks etdirir. Müstəqil auditorun hesabatı 2026-cı il aprelin 9-da eyni qüvvəyə malik iki nüsxədə tərtib edilmişdir. Bunlardan biri sifarişçi təsərrüfat subyektində, ikincisi isə “ASON AUDİT” MMC-də saxlanılır.

**İcraçı: “ASON AUDİT” MMC-nin direktoru: O.S.Vəkilov**
**Auditor: S.X.Vəkilov**

*Beynəlxalq həyat*

# “Yanmış kilsə” Trampın mövqeyini necə dəyişdi?

## *Yaxud Makronun G7 sammitindən faydalanmaq cəhdləri...*

**Keçən sayımızda G7 sammitində alınan qərarlar barədə məlumat vermişdik. Amma bir nüans çoxları üçün müəmma olaraq qaldı: Tramp Ukraynaya münasibətdə nədən qəfildən mövqeyini dəyişdi?**

Fransanın Evian-le-Ben şəhərində keçirilən “Böyük yeddilər”in görüşü göstərdi ki, beynəlxalq siyasətdə bəzən düzgün seçilmiş ifadə, məqamına düşən jest, hətta bir fotoşəkil ssenarisi əvvəlcədən yazılmış müzakirələri daha təsirli edə bilər. Əvvəlki yazımızda sammitin sonunda Ukraynaya dəstəyin gücləndirilməsini nəzərdə tutan birgə bəyanatın qəbul edildiyini yazmışdıq. Amma bu qərarın arxasında Avropa liderlərinin ABŞ Prezidenti Donald Trampın mövqeyinə təsir göstərmək üçün həyata keçirdikləri mürəkkəb diplomatik taktika dayanırdı.

### Gözləntilər niyə baş vermədi?

Sammitdən əvvəl bir çox müşahidəçilər ABŞ prezidentinin Ukrayna məsələsində əvvəlki skeptik yanaşmasını davam etdirəcəyini düşünürdülər. Hətta bəzi dairələrdə əsas məqsədin Trampın görüşü vaxtından əvvəl tərk etməsinin qarşısını almaq olduğu barədə fikirlər səslənirdi. Belə bir şəraitdə yekun sənəddə Ukraynaya dəstəyin açıq şəkildə vurğulanması Avropa diplomatiyası üçün uğur hesab olunur. Bu nəticəyə gedən yolda emosional faktorların da rol oynadığı görünür. Ukrayna Prezidenti Volodimir Zelenski Kiyevdəki tarixi Dormition kilsəsinin dağıdılmış və yanmış vəziyyətini əks etdirən fotoları Trampa təqdim etdi.

Rusiya hücumları nəticəsində zərər görmüş, əsrlərin mirası sayılan dini və mədəni abidənin görüntüləri müharibənin humanitar və mədəni ölçülərini nümayiş etdirirdi. Yəni, bununla statistika və hərbi hesabatlardan fərqli olaraq münaqişənin insanlara və tarixi irsə vurduğu zərəri birbaşa göstərildi. Nəzərə alaq ki, din, xüsusilə prezidentlər üçün, bir çox Avropa ölkələri ilə müqayisədə daha böyük siyasi və mədəni əhəmiyyət daşıyır. Buna görə də Ağ Ev sahibinin dini məkanların dağıdılması və ya dini simvollarla bağlı hadisələrə emosional reaksiya verməsi qeyri-adi deyil. Donald Tramp dərin dini fiqur kimi tanınmasa da, siyasi karyerası boyunca ABŞ-dakı evangelist xristianlar, konservativ katoliklər və digər dini qruplarla sıx əlaqələr qurub. Onun siyasi bazasının əhəmiyyətli hissəsini məhz dini-mühafizəkar seçicilər təşkil edir. Bu səbəbdən tarixi kilsələrin, monastırların və dini abidələrin məhv edilməsi kimi mövzular həm humanitar, həm də siyasi baxımdan diqqət çəkir.

**QEYD:** *Sammitin nəticəsini, sadəcə, bir emosional məqamla izah etmək düzgün olmazdı. Əslində, proses daha geniş diplomatik hazırlığın məhsulu idi. Fransa Prezidenti Emmanuel Makron uzun müddətdir Trampın siyasi davranış modelini, qərarvermə üsulunu və prioritetlərini diqqətlə təhlil edir. Makron və Avropanın digər liderləri Ukrayna məsələsini Trampın dünyaya baxış prizmasına uyğun təqdim etməyə çalışdılar. ABŞ prezidentinin beynəlxalq münasibətlərə daha çox güc balansı və qalib-məğlub məntiqi ilə yanaşdığı nəzərə alınaraq müzakirələrdə Ukraynanın müqavimət qabiliyyəti, Rusiyanın isə strateji çətinliklərlə üzləşdiyi vurğulandı. Məqsəd Ukraynanı mübarizəni davam etdirən və nəticə əldə edən tərəf kimi təqdim etmək idi.*

Eyni zamanda, Avropa liderləri Trampın öz uğurlarına verdiyi önəmi də nəzərə aldılar. Sammit zamanı onun İranla bağlı siyasətinin müsbət qiymətləndirilməsi, görüşlərin təşkilinə xüsusi diqqət göstərilməsi və diplomatik protokolun onun gözləntilərinə uyğun qurulması təsadüfi deyildi. Sözügedən yanaşma bəzi müşahidəçilər tərəfindən siyasi kompliment kimi qiymətləndirilsə də, Avropa diplomatiyasının məqsədi ABŞ-ın Ukrayna məsələsində daha konstruktiv mövqe tutmasını təmin etmək idi.

### Makronun xarici siyasətdə uğuru

Maraqlıdır ki, Makron prosesi prinsipial mövqelərlə müşayiət olunan dialoq kimi təqdim edir. Fransa prezidenti dəfələrlə bildirib ki, Ukraynanın ərazi bütövlüyü, Avropanın təhlükəsizliyi və beynəlxalq hüquq məsələlərində mövqeyi dəyişməz olaraq qalır. Onun fikrincə, məhz prinsipiallıq və eyni zamanda, dialoqa açıq olmaq müəyyən nəticələrin əldə edilməsinə imkan verib. Bununla belə, əldə olunan uğurun nə qədər davamlı olacağı hələ də müəmmalıdır. ABŞ siyasətində qərarların sürətlə dəyişə bildiyi, Trampın isə tez-tez gözlənilməz mövqelər sərgilədiyi nəzərə alınarsa, G7 sammitində formalaşan konsensusun gələcəkdə də qorunub saxlanılacağına heç kim zəmanət verə bilməz.

Yeri gəlmişkən, sammitin nəticələri Emmanuel Makronun şəxsi siyasi nüfuzu baxımından da diqqət çəkir. Son illər Fransa prezidentinin ictimai reytinqi, populyarlıq göstəriciləri aşağı səviyyəyə yuvarlanıb, hökumət isə həm parlamentdə, həm də cəmiyyətdə ciddi siyasi müqavimətlə üzləşib. Bir sıra sorğular Makronun ölkə daxilində dəstəyinin zəiflədiyini və 2027-ci il prezident seçkiləri ərəfəsində mərkəzçi siyasi düşərgənin öz mövqelərini qorumaqda çətinlik çəkdiyini göstərir.

Məhz buna görə Makron son prezidentlik dövründə daxili siyasətdə əldə edə bilmədiyi siyasi kapitalı xarici siyasətdə fəallığı ilə kompensasiya etməyə çalışır. Fransa Konstitusiyasına görə o, yenidən prezident



seçilə bilməsə də, 2027-ci il seçkilərinə qədər həm öz siyasi irsini qorumaq, həm də mərkəzçi düşərgənin namizədləri üçün əlverişli siyasi fon yaratmaq istəyir. Bu baxımdan G7 sammiti və Ukrayna məsələsində əldə edilən diplomatik nəticələr Makronun beynəlxalq nüfuzunu artırmaqla yanaşı, onun siyasi xəttinin hələ də effektiv olduğunu nümayiş etdirmək məqsədi daşıya bilər.

Diqqətçəkən məqamlardan biri də odur ki, son aylarda Makronun beynəlxalq böhranlarda daha fəal rol oynamağa çalışdığı müşahidə olunur. Fransa mətbuatında və siyasi dairələrdə bu kurs “diplomatik irs strategiyası” kimi xarakterizə edilir. Məqsəd isə Ukrayna və ya Yaxın Şərq məsələlərində vasitəçilik etməklə prezidentlik müddətinin son mərhələsində Makronu Avropanın aparıcı dövlət xadimlərindən biri kimi adını tarixə yazdırmaqdır.

Görünür, Fransa lideri hesab edir ki, daxildə zəifləyən siyasi nüfuzunun fonunda xarici siyasətdə uğur qazanmaq onun üçün həm nüfuzun bərpası, həm də qlobal miqyasda daha çox rəğbət qazanmaq vasitəsinə çevrilə bilər.

***Nəzrin ELDARQIZI***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 106 (31075) 19 iyun 2026-cı il, cümə




## İDMAN

### IV Avropa Oyunlarında iştirak kvotası



**Mayın 18-24-də Türkiyənin Antalya şəhərində keçirilən "Açıq havada Avropa Çempionatında" iştirak edən Məhəmmədəli Əliyev 88 kişi iştirakçı arasından 659 xal toplayaraq 29-cu yeri tutub. İdmançımız bu nəticə ilə 2027-ci ildə İstanbulda keçiriləcək IV Avropa Oyunlarında iştirak etmək üçün kvota qazanıb.**

Bu nəticə Azərbaycanın kamandan oxatma idmanı tarixində Avropa Oyunlarına kişi idmançılar arasında qazanılan ilk kvotadır. İndiyə qədər ölkəmizin heç bir kişi kamandan oxatanı bu idman növündə belə uğura imza atmayıb. Məhəmmədəli Əliyevin bu nailiyyəti həm də 2028-ci ildə ABŞ-ın Los-Anceles şəhərində keçiriləcək Olimpiya Oyunlarına gedən yolda mühüm addımlardan biri sayılır.

### Taekvondoçularımızın 6 Avropa medalı



**Azərbaycan taekvondoçuları Bosniya və Herseqovinanın paytaxtı Sarayevoda keçirilən klublararası Avropa çempionatında 6 medal qazanıblar.**

Azərbaycan Taekvondo Federasiyasından verilən məlumata görə, Aydan Hüseynova (36 kq, "İrəvan"), Rada Əsəd (44 kq, "Mübariz") qızıl, İslam Quluzadə (33 kq, "Alpman"), Gökalp Çilingir (40 kq, Nərimanov RİK), Renad Zülfiqarlı (+57 kq, "Alov") gümüş, Əkbər Tağıyev (+30 kq, "Atlet") bürünc mükafata sahib çıxıb.

Azərbaycan təmsilçiləri ümumi komanda hesabında bütün rəqiblərini qabaqlayaraq birinci yeri tutub və kubokun sahibi olublar.

### Paraüzgüçülərin ölkə çempionatı



**Azərbaycanda ilk dəfə paraüzgüçülük üzrə ölkə çempionatı keçirilib.**

Milli Paralimpiya Komitəsindən verilən məlumata görə, çempionatda 30-a yaxın yeniyetmə və gənc paraüzgüçü 9 müxtəlif kateqoriya üzrə mübarizə aparıblar.

Mərasimdə ikiqat Paralimpiya çempionu İlham Zəkiyev, Gənclər və İdman Nazirliyinin sektor müdiri Aydın Məmmədov, Milli Paralimpiya Komitəsinin rəhbərliyi, tərəfdaş qurumların nümayəndələri və idman ictimaiyyətinin üzvləri iştirak ediblər.

Çempionatın keçirilməsində əsas məqsəd əlilliyi olan şəxslərin idmana cəlb olunmasını təşviq etmək, onların idman bacarıqlarının inkişafına dəstək vermək, eləcə də gələcəkdə Azərbaycanı beynəlxalq yarışlarda təmsil edəcək perspektivli paraüzgüçülərin müəyyənləşdirilməsi və paraüzgüçülük üzrə ehtiyat qüvvənin formalaşdırılmasına töhfə vermək olub.

MPK-nın təşkilatçılığı, Gənclər və İdman Nazirliyinin dəstəyi ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində fəaliyyət göstərən Sumqayıt Paralimpiya İdman Kompleksində baş tutan birinciliyin sonunda qaliblərə medal, sertifikat və hədiyyələr təqdim olunub.

*Qabil YUSİFOĞLU*
*XQ*

*Tarixdən gələn səslər*

# Göygöldə alman memarlıq irsi





**Göygöl şəhərində yerləşən Müqəddəs İohan lüteran alman kilsəsində "Şəhərsalma və Memarlıq İli" çərçivəsində "Azərbaycanda alman memarlığı" mövzusunda fotosərgi təşkil olunub. Tədbir Rayon İcra Hakimiyyətinin dəstəyi və Alman-Azərbaycan Cəmiyyətinin təşkilatçılığı ilə keçirilib.**





Tədbirdə Göygöl Rayon İcra Hakimiyyətinin başçısı Vüqar Novruzov, Alman-Azərbaycan Cəmiyyətinin sədri Çingiz Abdullayev, cəmiyyətin üzvləri, İsveçdə yaşayan rejissor Rəhim Sadıqbəyli, koordinator Zaur Musayev, Türkiyənin Çanaqqala Onsekiz Mart Universitetinin professoru Vedat Çalışkan, Özyegin Universitetinin tədqiqatçı-alimi professor Ayşegül Özer, Almaniyadan olan tədqiqatçı-alim İnge Şturm, Gürcüstan-Almaniya Assosiasiyasının sədri Aleksandr Feldmayer və rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər. Tədbir çərçivəsində musiqi məktəbi şagirdlərinin çıxışları da dinlənilib.

Fotosərgidə Göygöldə yerləşən alman memarlıq abidələrinin, tarixi binaların və yaşayış evlərinin fotoları nümayiş olunub. Qonaqlara bu irsin memarlıq xüsusiyyətləri, tarixi əhəmiyyəti və qorunmasının vacibliyi barədə ətraflı məlumat verilib. Çıxışlarda Azərbaycanda multikultural dəyərlərə daim xüsusi önəm verildiyi vurğulanıb.

Tədbir iştirakçıları daha sonra bölgədə təxminən iki əsr yaşamış alman icmasının həyat tərzini və mədəni irsini əks etdirən, hazırda muzey kimi fəaliyyət göstərən sonuncu alman sakin Viktor Klaynın ev-muzeyini ziyarət ediblər. Ekskursiya zamanı qonaqlara alman icmasının Göygölün sosial və mədəni həyatında oynadığı rol barədə məlumat təqdim olunub.

Göygöldə keçirilən bu fotosərgi alman memarlıq irsinin tanıdılması, tarixi yaddaşın yaşadılması və mədəni müxtəlifliyin təbliği baxımından əlamətdar hadisə kimi qiymətləndirilib.

*Hamlet QASIMOV,*
*XQ-nin Gəncəbasar müxbiri*

## HAVA

# Aranda yağmursuz, dağlarda yağış və dolu…

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Cənub-şərq küləyi əsəcək. Havanın temperaturu gecə 20-23, gündüz 31-36 dərəcə isti olacaq. Atmosfer təzyiqi 759 millimetr civə sütunu, nisbi rütubət isə gecə 60-70, gündüz 40-45 faiz təşkil edəcək.**



Azərbaycanın əksər rayonlarında havanın əsasən yağmursuz keçəcəyi, lakin günün ikinci yarısında bəzi dağlıq və dağətəyi rayonlarda arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə yağışın qısamüddətli intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi dağlıq ərazilərdə duman müşahidə ediləcək. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 20-24, gündüz 33-38, dağlarda gecə 10-15, gündüz 20-25, bəzi yerlərdə 27-30 dərəcə isti olacaq.

*Q.ƏLİYEV*
*XQ*

## ALLAH RƏHMƏT ELƏSİN!

Lənkərandan Taleh Qaraşov Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyevə əzizi

**HİDAYƏT ORUCOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyevə əzizi

**HİDAYƏT ORUCOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Qobustan Rayon İcra Hakimiyyətinin başçısı Adil Məmmədov Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyevə əzizi

**HİDAYƏT ORUCOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"Azərsutikinti" ASC-nin sədri Yusif Hümbətov görkəmli yazıçı-dramaturq və dövlət xadimi

**HİDAYƏT ORUCOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Milli Konservatoriyasının kollektivi dirijorluq kafedrasının professoru, bəstəkar, xalq artisti Vasif Allahverdiyevə

**ANASININ**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994 (51) 280-16-44

"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3178
SİFARİŞ 730
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
İmran BƏDİRXANLI

Çapa imzalanmışdır 00:00